Xalqın qəzeti!

# Xalq qəzeti

№ 174 (30868) 20 avqust 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan xarici yatırımlara açıq, azad fəaliyyət məkanıdır

## Prezident İlham Əliyev "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidentini qəbul edib



**Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Koheni qəbul edib.**

Söhbət zamanı dövlətimizin başçısı ilə Cared Kohenin bu ilin yanvarında Davosda görüşü məmnunluqla xatırlandı.

Ölkəmizlə "The Goldman Sachs Group Inc." şirkəti arasında 2010-cu ildən səmərəli əməkdaşlığın qurulduğu qeyd edilərək, Azərbaycan Respublikası Dövlət Neft Fondunun bu şirkətlə uğurlu tərəfdaşlığından məmnunluq bildirildi.

Görüşdə avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin dəstəyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması baxımından əldə olunmuş nailiyyətlərin önəminə toxunuldu və bu nəticələrin regionun hərtərəfli inkişafı üçün geniş imkanlar yaratdığı vurğulandı.

Söhbət zamanı ölkəmizlə şirkət arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, "The Goldman Sachs Group Inc." 1869-cu ildə təsis olunub. İnvestisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə olunması sahələrində xidmətlər təqdim edən aparıcı qlobal maliyyə institutu hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir. Mənzil-qərargahı Nyu-York şəhərində yerləşən şirkət 2,8 trilyon ABŞ dolları dəyərində aktivləri idarə edir.

*AZƏRTAC*

# Vaşinqton Zirvəsində sülh sazişinin konturları aydın göründü!

ardı səhifə ➩ 6

# Keçmişə çox boylanan gələcəyini dolaşıq salar

*Əsgərinin çəkməsini qana batıran ölkə Ukraynanın təhlükəsizliyinə necə təminat verir?*




**Bu mövzuya toxunmağımızın əsas səbəbi onun Azərbaycan üçün də aktuallıq kəsb etməsidir. Söhbət postsovet məkanındakı müstəqil respublikaların üzləşdiyi, yaxud sabah üzləşə biləcəyi real təhlükədən gedir. Müharibə hələ bitməmiş ABŞ və Avropa rəsmiləri Ukrayna üçün təhlükəsizlik təminatları hazırlamağa başlayıblar.**

*(ardı 4-cü səhifədə)*

# Paşinyanın reallıq etirafı

*Ermənistan cəmiyyətinin transformasiyası və sülhün yeni mərhələsi*



**Ermənistan Baş naziri Nikol Paşinyanın xalqa müraciəti bir dövrün sonunu təsdiqləyən tarixi məqamdır. Paşinyan açıq etirafları ilə Ermənistan cəmiyyətində uzun illər yığılıb qalan ideoloji mifləri dağıtmağa cəhd göstərdi. Əslində, bu müraciət yalnız daxili auditoriyaya deyil, həm də beynəlxalq ictimaiyyətə ünvanlanmış strateji mesajdır: Qarabağ məsələsi artıq siyasi gündəmdə yoxdur.**

Bəs bəyanat hansı nəticələri doğuracaq? Ermənistan cəmiyyəti illərlə formalaşdırılmış Qarabağ mifindən imtina edə biləcəkmi? Ən əsası isə, bu etiraf regionda sülhün davamlılığı üçün real zəmin yaradır, yoxsa yeni daxili ziddiyyətlərin başlanğıcına çevriləcək?

*(ardı 4-cü səhifədə)*

# Minsk qrupu – iflas etmiş vasitəçilik



**Azərbaycan və Ermənistan tərəfindən ATƏT-in Minsk qrupunun və ona bağlı institutların ləğvinə dair imzalanmış birgə müraciət Cənubi Qafqazın müasir tarixində dönüş nöqtəsidir. Bu sənəd yalnız uzun illər davam edən vasitəçilik mexanizminin rəsmi olaraq sona çatdırılması deyil, həm də regionda yeni diplomatik və siyasi mərhələnin başlanğıcıdır.**

Birgə müraciətdə aydın şəkildə ifadə olunur ki, Minsk qrupu və onun fəaliyyəti artıq mövcud regional və siyasi kontekstə adekvat deyil. Bu mexanizm həm Azərbaycan, həm də Ermənistan tərəfindən köhnə və qeyri-effektiv vasitəçilik nümunəsi kimi qəbul edilir. Bu, həm də tərəflərin artıq keçmişin diplomatik strukturundan çıxaraq gələcək yönümlü, nəticəyə fokuslanan yol xəritəsinə üstünlük verdiklərini göstərir.

*(ardı 5-ci səhifədə)*

## "Odlar yurdu" 19 ölkəyə neft ixrac edir

*7 ayda xarici bazara 14,5 milyon ton neft çıxarılıb*



**Cari ilin yanvar-iyul aylarında Azərbaycandan 19 ölkəyə 7,7 milyard ABŞ dolları dəyərində 14,5 milyon ton bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları ixrac edilib. Bu da 2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə 225,5 min ton və ya 1,5 faiz azdır. Hesabat dövründə ölkə üzrə ümumi ixracın 50,31 faizi xam neftin payına düşüb. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.**

*(ardı 8-ci səhifədə)*

## Trampın Ukrayna sülh planı: atəşkəs əvəzinə zəmanət



**ABŞ Prezidenti Donald Trampın 18 avqustda təşkil etdiyi ikitərəfli və çoxtərəfli görüşlər müsbət reaksiyalarla başa çatdı. Lakin Kiyev və Avropa üçün ən ağrılı mövzularda konkret nailiyyətlər o qədər də çox deyildi.**

Prezident Tramp son qərarla atəşkəs ideyasını rədd etdi və tam miqyaslı sülh sazişi əldə etməyə üstünlük verdi. O, həmçinin ABŞ-ın Rusiya ilə razılaşma çərçivəsində Ukraynanın təhlükəsizliyini təmin etməyə kömək edəcəyini vəd etdi, lakin bu zəmanətlərin parametrləri hələ razılaşdırılmalıdır. Ən gərgin ərazi məsələsi ilə bağlı qərarlar isə görünür, ABŞ, Rusiya və Ukrayna liderlərinin üçtərəfli sammitinə qədər təxirə salındı. Vaşinqton görüşü barədə ümumi fikir budur ki, Qərb Ukrayna məsələsində vahid mövqe sərgilədi və Ukrayna-Rusiya liderlərinin danışıqlarına eyni cəbhədə hazırlaşmağa razılaşdılar.

*(ardı 11-ci səhifədə)*

# Azərbaycan – Mərkəzi Asiyadan Avropaya strateji körpü

Səhifə ➩ 8

## Azərbaycan Respublikasının Prezidenti Zati–aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Zəngəzur dəhlizinin fəaliyyətə başlamasına zəmin yaradan və bölgəmizdə tarixi bir səhifə açan Birgə Bəyannamənin imzalanması münasibətilə Zati-alinizi ən səmimi hisslərlə təbrik edirəm.

Bu tarixi hadisə Azərbaycanın strateji mövqeyi və güclü liderliyinin, eyni zamanda, Qarabağda qazanılan tarixi Zəfərdən regional sülhə, əməkdaşlığa və inkişafa keçidin konkret təzahürüdür.

Zəngəzur dəhlizi Türk dünyasını bir-birinə bağlayacaq, ticarət əlaqələrini gücləndirəcək və xalqlarımız arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndirəcək strateji əhəmiyyətə malik bir layihədir.

Zati-alinizin müdrik liderliyi ilə Azərbaycanın bundan sonra da regional sabitliyin və Türk dünyasının birliyinin təmin olunmasında qabaqcıl rol oynayacağına qəti şəkildə inanıram.

Fürsətdən istifadə edərək Türkiyə-Azərbaycan qardaşlığının "Bir millət, iki dövlət" prinsipi ilə daha da möhkəmlənəcəyinə, ölkələrimizin ortaq hədəflərin reallaşması üçün bundan sonra da çoxlu tarixi uğurlara imza atacağına əminliyimi ifadə edirəm.

Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan Respublikasına davamlı tərəqqi arzulayır, ən dərin ehtiramımı ifadə edirəm.

**Hörmətlə,**

***Binəli YILDIRIM,***
***Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri***

## Ceyhun Bayramovun nepallı həmkarı ilə telefon dialoqu




**Avqustun 19-da xarici işlər naziri Ceyhun Bayramov ilə Nepalın xarici işlər naziri Arzu Rana Deuba arasında telefon danışığı aparılıb.**

Nepalın xarici işlər naziri Azərbaycan Prezidentinin ABŞ-a səfəri zamanı liderlər arasında keçirilmiş sammitdə Azərbaycan ilə ABŞ arasında əldə edilmiş razılıqlar, habelə Azərbaycan-Ermənistan normallaşma prosesində nailiyyətlər münasibətilə təbriklərini çatdırıb.

Nazirlər iki ölkə arasında son illərdə ali və yüksək səviyyəli siyasi təmasların təqdirəlayiq olduğunu bildiriblər. Nepalın Prezidentinin COP29 çərçivəsində Azərbaycana səfəri məmnunluqla xatırlanıb.

Telefon danışığı zamanı ikitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsi, iqtisadi-ticarət, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri nəzərdən keçirilib. İki ölkə arasında beynəlxalq təşkilatlarda, Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq müsbət dəyərləndirilib, çoxtərəfli formatlarda qarşılıqlı dəstək fəaliyyətinin gücləndirilməsinin vacibliyi vurğulanıb.

*XQ*

## XİN Əfqanıstanı təbrik etdi

**Azərbaycan Xarici İşlər Nazirliyi Əfqanıstanı Müstəqillik Günü münasibətilə təbrik edib.**

Bu barədə XİN-in "X" hesabında paylaşım edilib.

"Əfqanıstan və onun xalqını Müstəqillik Günü münasibətilə təbrik edirik. Milli Gününüz mübarək!" – paylaşımda qeyd olunub.

*XQ*

## Hərbi prokuror DSX-nin hərbi qulluqçuları ilə görüşüb



**Baş prokurorun müavini – Hərbi prokuror, ədliyyə polkovniki Bəhruz Əhmədovun Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxslərinin iştirakı ilə Dövlət Sərhəd Xidmətinin çətin relyefdə qulluq edən hərbi qulluqçuları ilə görüşü keçirilib.**

Çıxışçılar sərhədçilərin peşə bayramını təbrik ediblər. Həmçinin onlar Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və xalqın əzmi ilə əldə olunan uğurlardan, eləcə də qüdrətli Silahlı Qüvvələrin, o cümlədən DSX-nin formalaşdırılmasından, 44 günlük Vətən müharibəsində qazanılan Qələbədən bəhs ediblər.

Sonda xidmətdə fərqlənən hərbi qulluqçulara bayram münasibətilə hədiyyələr təqdim edilib.

*XQ*

## Keniya ilə şəhərsalma əməkdaşlığı müzakirəsi

**Azərbaycanın Keniyadakı səfiri Sultan Hacıyev bu ölkənin torpaq, ictimai işlər, mənzil və şəhərsalma naziri xanım Elis Vahome ilə görüşüb.**



Görüşdə əlçatan mənzil təminatı sahəsində Keniyanın Afrika qitəsi üzrə qabaqcıl təcrübəsi, dayanıqlı şəhərsalma və iqlim dəyişikliyi mövzularının həmin region ölkələri üçün mühüm mövzulardan olduğu qeyd edilib.

Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) ilə birgə 2026-cı ildə Bakı şəhərində ev sahibliyi edəcəyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında (WUF13) yuxarıda qeyd edilmiş mövzuların müzakirə ediləcəyi və müvafiq hazırlıq proseslərində Keniya və Azərbaycan arasında əməkdaşlıq perspektivləri nəzərdən keçirilib.

Səfir nazir Elis Vahomeyə 2025-ci il oktyabrın 15-17-də Xankəndi və Bakı şəhərlərində keçiriləcək 3-cü Azərbaycan Şəhərsalma Forumunun əhəmiyyəti haqqında məlumat verib və onu tədbirə dəvət edib.

## Uşaqları "sosial şəbəkə" bəlasından qoruyaq!

**Son günlər sosial şəbəkələrdə uşaqların iştirakı ilə çəkilmiş və cəmiyyətdə haqlı narahatlıq yaradan bəzi videoların paylaşılması geniş ictimai rezonans doğurub.**




Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən bildirilib ki, xüsusilə azyaşlı qız uşaqlarının böyüklər üçün nəzərdə tutulmuş davranış və rəqs hərəkətlərini nümayiş etdirmələri həm etik və mənəvi dəyərlər baxımından, həm də hüquqi çərçivədə qəbuledilməzdir.

Qeyd olunub ki, bu halların yaranması, ilk növbədə, valideyn məsuliyyətinin yetərincə dərk edilməməsi, uşaqların rəqəmsal platformalarda nəzarətsiz qalması və onların bu sahədə düzgün maarifləndirilməməsi ilə bağlıdır.

Məlumatda bildirilib ki, uşaqların davranışları, maraqları və sosial bacarıqları formalaşma dövründə daha çox vizual və emosional təsirlərlə inkişaf edir. Bu səbəbdən sosial media platformalarında yayılan qeyri-etik məzmunlar, "trendlər" və vizual təsirlər uşaqlar üçün ciddi risk yaradır.

Komitə valideynlərə, ictimaiyyətə və media nümayəndələrinə müraciət edərək uşaqların sosial şəbəkələrdə foto və videolarının paylaşılmasına ciddi yanaşmağı, onların izlədikləri rəqəmsal məzmunlara daim nəzarət etməyi, etik, mənəvi və hüquqi dəyərlərə zidd hallarla qarşılaşdıqda müvafiq qurumlara məlumat verməyi tövsiyə edib. Həmçinin uşaqlara erkən yaşlardan etibarən sosial mediadan düzgün istifadə qaydalarının öyrədilməsinin, şəxsi sərhədlərə hörmətin aşılanmasının vacibliyi vurğulanıb.

**Xuntaçıların məhkəməsi**

## Ermənistanın Qarabağda törətdiyi faciələrin növbəti səhifəsi araşdırılıb





**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi avqustun 19-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında təqsirləndirilən Ruben Vardanyanın vəkili Avraam Berman məhkəməyə müraciət edərək işə baxan hakimlər kollegiyasına etirazını bildirib. R.Vardanyan etirazı müdafiə edib. Zeynal Ağayev bildirib ki, müdafiə tərəfi dəfələrlə eyni məzmunlu etirazlar təqdim edib və hazırkı etirazda da hər hansı yeni xüsusat göstərilməyib. Qeyd olunanlara əsasən, etiraz müzakirəyə çıxarılmayıb. Bundan sonra Avraam Berman müdafiə etdiyi şəxslə konfidensial görüş verilməsini xahiş edib. Hakim vəsatəti təmin edib və məhkəmədə fasilə elan olunub.

Fasilədən sonra məhkəmədə zərərçəkmiş şəxslərin və zərərçəkmişlərin hüquqi varislərinin ifadələri dinlənilib.

Amin Həsənovun atası İlqar Həsənov övladının Ağdərədə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu deyib. Ucal Babaşovun atası Nərbala Babaşov isə oğlunun Xocavənddə qarşı tərəfdən açılmış atəş nəticəsində həlak olduğunu söyləyib. Hüseyn Nəsibovun atası Əfqan Nəsibov övladının Şuşa-Xankəndi istiqamətində düşmənin təxribatı nəticəsində həyatını itirdiyini deyib. Nəcməddin Quliyevin atası Natiq Quliyev övladının Ağdərə istiqamətində həlak olduğunu qeyd edib.

Ramazan Hüseynzadənin atası Həmdulla Hüseynov övladının Xocalıda həlak olduğunu deyib.

Ramil Quliyev Kəlbəcərdə yaralandığını, iki nəfərin isə həlak olduğunu bildirib. Elnur Həsənov Tərtər rayonunun Həsənqaya kəndində minanın partlaması nəticəsində xəsarətlər aldığını söyləyib.

Bərzani Atayev Ağdərədə yaralandığını xatırlayıb. İsgəndər Hüseynov düşmənin açdığı artilleriya atəşi nəticəsində yaralandığını qeyd edib. Hadisə zamanı Samir Kərimov və Əli Heydərov da yaralanıb.

Halay Tahirli Kəlbəcərdə yaralandığını deyib. Həmin vaxt Kənan Nəsibov həlak olub, Eltəkin Həsənov isə müxtəlif növ bədən xəsarətləri alıb.

Elgün İsmayıllı Xocalı rayonunun Xanabad kəndində güllə yarası aldığını söyləyib. Hadisə zamanı onunla yanaşı, Xalid Əlifov və Babək Əhmədli də yaralanıb. Xalid Əlifov ifadəsində Xocavənddə xəsarət aldığını bildirib. Hadisə zamanı Əhliyar Muradov və Elgün İsmayıllı yaralanıb, Davud Qiyaslı isə həlak olub.

Nüsrət Kərimov, Rəsul Ramazanov, Əziz Qubadov, Ceyhun Əliyev, Elməddin Piriyev, Vasif Məmmədov, Elnur Piriyev, Ruslan Mirzəyev, Məhəmməd Piriyev, Samir Xəmmədli, Möhlət İdrisov, Hüseyn Nurullayev, Rəvan Əhmədov, Tural İsayev ifadələrində düşmənin təxribatları nəticəsində zərər çəkdiklərini qeyd ediblər.

Digər zərərçəkmiş şəxslər Elvin Muradov, Məhərrəm Məlikov, İlkin Əhmədov, Azər Həmzəyev, Elməddin Hacızadə, Hikmət Cəbiyev, Səfiyar Məmmədli, Orxan Sadıqlı ifadələrində Ağdərədə düşmən tərəfindən açılmış atəşlər nəticəsində yaralandıqlarını vurğulayıblar.

Rəşad Qənbərov Xocavənddə yaralandığını deyib. Hadisə zamanı Murad Arzullayev və Cavid Əliyev həlak olublar. Nurlan Abdullayev Ağdərədə düşmən tərəfindən açılmış atəş nəticəsində xəsarət aldığını bildirib. Rahil Dövlətov mina partlaması nəticəsində yaralandığını söyləyib. İmran Məmmədov Xankəndidə düşmənin atəşi nəticəsində xəsarət aldığını qeyd edib. Gündüz Əmoyev Xocavənd rayonunda qarşı tərəfin təxribatı nəticəsində yaralandığını deyib.

Eyvaz Hüseynov Ağdamda artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını diqqətə çatdırıb. Elvin Cabbarov Ağdərə-Xocalı istiqamətində düşmən tərəfindən açılmış atəş nəticəsində yaralandığını söyləyib.

Rahim Qardaşov deyib ki, Ağdərədə avtomobillə hərəkətdə olarkən mərmi atılıb. Partlayış nəticəsində o və avtomobildə olan digər şəxslər xəsarətlər alıblar. Toğrul Mehralıyev Kəlbəcərdə kəllə-beyin travması aldığını bildirib. Məcid Səfərov Zəngilanda mina partlaması nəticəsində xəsarətlər aldığını qeyd edib. İzzət Dadaşlı Xocavənd rayonunda kəllə-beyin travması aldığını söyləyib.

Məhkəmə prosesində mina qurbanı olmuş və digər zərərçəkmişlər Amid Əsədov, Çərkəz Quliyev, Oktay Alışov, Elşən Xəlilov, Vüqar Zülfüqarlı, Xəyal Abdullayev, İlham Salmanov, Dilavər Şükürov, Rövşən Əlizadə, Mehman Quliyev, Güloğlan Mirzəliyev, Bəhruz Nəsirov, Elnur Abbaszadə, Xanlar Aslanov, Səfər Əliyevin və başqalarının barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Bundan başqa, prosesdə məhkəmə-fonoskopik, məhkəmə partlayış texniki ekspertizalarının rəyləri elan olunub.

Məhkəmənin növbəti iclası avqustun 26-na təyin edilib.

*XQ*

# İrəvanın sülh mesajları: çətin durum və nikbinlik üçün əsas

## *Baş nazir başbilənliyi bacaracaqmı?*

**“Sülh bizim üçün yad bir şeydir. Amma sizdən xahiş edirəm: gəlin bu reallığı qiymətləndirək. Bu o deməkdir ki, sülhün nə olduğunu və onun necə göründüyünü sıfırdan öyrənməliyik”. Ermənistanın baş naziri Nikol Paşinyanın xalqa müraciətindəki bu fikirlər təqdirəlayiqdir. Təkcə ona görə yox ki, həmin fikirləri dilə gətirən 30 ildən artıq müddətdə Azərbaycana və Azərbaycan xalqına qarşı düşmən münasibətdə olan ölkənin rəhbəridir. Eyni zamanda, o səbəbdən ki, Paşinyan erməni cəmiyyəti üçün son dərəcə vacib məqama diqqət çəkir.**



Həqiqətən, ermənilərin tarixən mövcud olmuş türk düşmənçiliyinin motivini anlamaq müşkildir. Türklərin, eyni zamanda, Azərbaycan türklərinin haylara nə pisliyi keçmişdi ki? Görünür, bəzi məsələlər heç də səbəb-nəticə əlaqələrindən asılı deyilmiş. Hərçənd, biz öz unutqanlığımızın və laqeydliyimizin nəticələrini gördük. Özü də acı nəticələrini. 2020-ci ilin 44 günlük müharibəsində isə tarixdə yaşananların hamısından dərs çıxardıq. Elə Ermənistan da dərs çıxardı.

Bəli, bu gün Azərbaycanın və Ermənistanın sülhə doğru yön alması xüsusən də ikincinin rəhbərliyinin 2020-ci ildən indiyədək baş verənlərdən ciddi nəticə çıxarmasıdır. Amma demək olmaz ki, erməni cəmiyyəti yekdilliklə Paşinyanı dəstəkləyir. Baş nazirin müraciət tonu da bundan xəbər verir. Hiss olunur ki, o, son dərəcə böyük çətinliklərlə üz-üzədir və xalqı sülhə inandırmaq üçün əlindən gələni etməyə çalışır. “Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında sülh bərqərar oldu, əziz insanlar. Avqustun 8-dən biz fərqli Cənubi Qafqazda, yeni Ermənistanda yaşayırıq”, - deyən Paşinyan vurğulayıb ki, əldə olunan razılaşmalar iki xalq arasında düşmənçilik səhifəsini bağlamaq üçün yol açır.

Qeyd edək ki, Paşinyan xalqa müraciətində ABŞ-da Azərbaycanla sülh müqaviləsinin paraflanmasını dönüş nöqtəsi adlandırıb. O, xatırladıb ki, avqustun 8-də Vaşinqtonda keçirilən üçtərəfli sammitdən sonra Azərbaycan və Ermənistan iki mühüm sənəd imzalayıblar. Birincisi, “Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında” Sazişi paraflayıblar, ikincisi isə Birgə Bəyannamə qəbul ediblər. O Bəyannamə ki, rəsmi şahidi Birləşmiş Ştatların Prezidenti Donald Trampdır.

“İlk növbədə, qeyd etmək istərdim ki, bu gün biz artıq neçə vaxtdır danışıqlar prosesində olan sülh sazişini parafladıq. Onun burada, dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində və Birləşmiş Ştatların hörmətli Prezidenti qarşısında paraflanması faktı göstərir ki, tərəflərdən heç biri geri çəkilməyəcək. Bununla bağlı heç bir şübhə yoxdur. Əgər bizlərdən kimsə, Baş nazir Paşinyan və ya mənim özüm geriyə çəkilmək istəsəydik, buraya gəlməzdik. Beləliklə, Siz, eləcə də Azərbaycan ictimaiyyəti tam əmin ola bilər ki, bu gün baş verən hadisə Qafqaza sülh, uzunmüddətli sülh, əbədi sülh gətirəcək”. Bu fikri Prezident İlham Əliyev Vaşinqtonda Birgə Bəyannamənin imzalanmasından sonra dilə gətirmişdi. Dövlətimizin başçısından sonra söz açan Ermənistanın baş naziri isə bunları demişdi: “Üzr istəyirəm, tam razıyam. Heç bir əlavəm də yoxdur”.

Onu da bildirək ki, N.Paşinyan Vaşinqtonda mətbuata birgə bəyanatında ABŞ-da Ermənistan-Azərbaycan münasibətlərində mühüm nailiyyətin əldə edildiyini vurğulamış, ölkələrin keçmiş tarixlərindən fərqli olacaq yeni hekayənin təməlini qoyduqlarını dilə gətirmişdi: “Sülh sazişinin paraflanması ölkələrimiz arasında onilliklərdir davam edən münaqişəyə son qoyulmasına yol açacaq, onlar üçün bir-birinin suverenliyinə və ərazi bütövlüyünə tam hörmətlə yanaşaraq, yeni dövrü başladacaq. Bu gün Prezident Trampın şahidliyi ilə onun da imzaladığı bəyannamə daha çox əminlik və inam yaradır ki, biz Cənubi Qafqazda sülh, rifah, təhlükəsizlik və iqtisadi əməkdaşlıq səhifəsini açırıq”, - deyə erməni baş nazirin xalqa müraciətində səsləndirdiyi fikirlər də onun diqqətə çatdırdığımız fikirlərinin davamıdır: “Biz müharibəni bir alət kimi birdəfəlik rədd etdik və istisna etdik, bu isə yeni mərhələnin başlanğıcı deməkdir. Bu, yenidən nəzərdən keçirilməli olmayan və dəyişdirilməməli olan faktdır. Bu, iki xalq arasında düşmənçilik səhifəsinin bağlanmasına yol açır”.

Ümumən, N.Paşinyanın xalqa müraciətindəki fikirlərdən gəlinən nəticə budur ki, Ermənistanda xalqın sülhə gəlməsi üçün onun ümumən sülh anlayışına baxışının dəyişməsi mütləqdir. Baş nazirin yazının əvvəlindəki iqtibasda yer alan fikirlər də bunu söyləməyə əsas verir. Ona görə də bildirdik ki, ölkədə Nikolun mövqeyini bölüşməyənlər var. Məsələn, götürək Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyanı. O, davamlı olaraq bildirir ki, ölkəsinin Azərbaycanla bağladığı sülh ədalətli deyil.

Əlbəttə, V.Oskanyan Ermənistandakı revanşist-şovinist kəsimin təmsilçisidir. Onun kimilərinin sayı isə az deyil. Bu səbəbdən Paşinyanın xalqa müraciətindəki sülh mesajlarını daha çox erməni cəmiyyətini belələrinin yanlış sülh təsəvvürlərindən xilasına yönəlmiş manifest kimi də qiymətləndirmək mümkündür. Baş nazir özünün, belə demək mümkünsə, xilas manifestində reallıqları açıqlayıb. O deyib ki, Ermənistanda insanlar sülh arzulayırdılar. Lakin “sülh” sözünün özü çox vaxt tənqidlə qarşılanır, ondan istifadə edənlər isə bəzən qınanırdılar.

Sonda bir məqam da deyək ki, bu günün özündə də Paşinyan və onun rəhbərlik etdiyi komanda Azərbaycanla sülh yolçuluğuna görə qınanmaqdadır. Hərçənd, baş naziri qınayanların da məntiqi alternativ fikirləri yoxdur. Onlar əvvəllərdəki kimi, “it arabanın kölgəsində yatır, elə sanır öz kölgəsidir” deyiminin təsiri altındadırlar. Söhbət əlbəttə ki, Rusiya amilindən gedir. Axı Ermənistandakı revanşist-şovinist kəsimin başlıca dayağı məhz Rusiyadır. Paşinyan mövcud reallığın fərqindədir. Ona görə də onun xalqa müraciətini, eyni zamanda, anti-sülh təmayüllərinə demarş manifesti olaraq da qiymətləndirmək mümkündür. Yəni, baş nazir, əslində, bir yerdə dayanmır, revanşist-şovinistlərə qarşı ideoloji cəbhə açır və sülhü öz mübarizəsinin başlıca tezisinə çevirir. Başqa sözlə desək, Nikol revanşistlərin erməni cəmiyyətini onun hakimiyyətini devirmək cəhdləri naminə alətə çevirmək cəhdlərinin qarşısına çıxır.

Ən sonda onu da bildirək ki, ədalətli sülh qonşulara qarşı normal münasibətlərdən keçir. Əslində, Azərbaycan və Ermənistan arasında barış sazişinin cəmiyyətə açıqlanmış mətni də bunun təsdiqidir. İndi qalır həmin sazişin imzalanması. Bunun üçün isə Azərbaycanın iki şərti əhəmiyyətini saxlamaqdadır. Məlum olduğu kimi, həmin şərtlərdən birincisi ATƏT-in Minsk qrupunun buraxılmasıdır ki, haqqında söz açdığımız bəyannamədə bu məqama yer verilir, hər iki ölkənin xarici işlər nazirliklərinin mövcud istiqamətdə iş aparacaqları vurğulanır. Ermənistan Konstitusiyasının işğalçı mahiyyətdən qurtulmasına gəlincə, Prezident İlham Əliyev Vaşinqtonda ölkəmizin media vasitələrinə müsahibəsində bunları bildirmişi. “Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər”.

Deməli, N.Paşinyanın sülh yolundakı ən mühüm real addımı məhz Ermənistanda konstitusiya dəyişikliyinə getmək, erməni əsas qanununu ölkənin təcavüzkar niyyətə və ərazi iddiasına köklənmiş İstiqlaliyyət Bəyannaməsinə istinad yükündən qurtarmaqdır. Baş nazir bunu bacaracaqmı, gələcəyi zaman göstərəcək. Hələlik, pozitivə köklənək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ermənistanda “gerçəyi görmək mərhələsi” başlayır

## *“Qarabağ məsələsi”nin bağlanması yalana sitayişin iflasıdır*

**Ermənistan baş naziri Nikol Paşinyanın avqustun 18-də xalqa müraciəti ictimai rezonans doğurub. Gözlənildiyi kimi, müraciət erməni cəmiyyətində fərqli reaksiyaların meydana çıxmasına səbəb olub. Baş nazirin çıxışında səsləndirdiyi fikirlər həm tərəfdarları, həm də opponentləri tərəfindən geniş müzakirə edilir. Onun bölgəmizdə sülh və sabitlik çağırışlarını dəstəkləyənlər bunu ölkənin gələcəyi üçün zəruri addım hesab edirlər. Digər qrup isə baş nazirin çıxışını təslimçi mövqe kimi qiymətləndirərək sərt tənqidlər səsləndirir. Sosial şəbəkələrdə də müraciət ətrafında debatlar müşahidə olunmaqdadır. Siyasi ekspertlər isə çıxışın Ermənistanın daxili siyasi gündəminə ciddi təsir göstərəcəyini bildirirlər.**



Qondarma “erməni soyqırımı” muzey-institutunun sabiq direktoru Hayk Demoyan N.Paşinyanın açıqlamalarına cavab verməyən qurumun hazırkı rəhbərliyini susqunluğuna görə kəskin tənqid edib. O, “Facebook” sosial şəbəkəsinə yerləşdirdiyi bəyanatda bildirib ki, bu sözlərdən sonra institutun missiyası mənasızlaşır. Müraciət müəssisənin rəhbərliyinə, elmi şuraya və qəyyumlar şurasının üzvlərinə ünvanlanıb: “Nikol Paşinyanın məlum bəyanatlarından sonra sizin fəaliyyətiniz və missiyanız mənasız və lazımsız olur. Üstəlik, bu bəyanatlar və “soyqırımı”nın nəticələrinə haqq qazandırmaq sizi və əməyinizi mənəvi cəhətdən dəyərsiz edib”. Onun sözlərinə görə, institutun öz reputasiyasını bərpa etmək üçün yalnız bir imkanı var – Paşinyanın çıxışında səslənən “qeyri-insani və anti-xalq mülahizələri”nə elmi, hüquqi və mənəvi qiymət vermək. Demoyan baş nazirin vətəndən məhrum edilməyə (?) və köçürülməyə açıq şəkildə haqq qazandırdığını deyib. Bunun BMT-nin 1948-ci il “Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” Konvensiyasına zidd olduğunu vurğulayıb: “Siz susdunuz və Nikol Paşinyanın timsalında Ermənistan hökumətinin birbaşa iştirak etdiyi “Artsax” ermənilərinə qarşı “etnik təmizləmə və soyqırımı”na qiymət vermədiniz”.

O, həmçinin institutu Paşinyanın və hakim partiya üzvlərinin bəyanatlarına reaksiya verməməkdə suçlayıb. Sabiq direktorun sözlərinə görə, bu bəyanatlarda “erməni soyqırımı” ilə bağlı tarixi fakta (?) şəkk gətirmək var: “Aydındır ki, siz susmağınızla istəmədən Paşinyanın bəyanatlarına və onun cinayət əməllərinə şərik oldunuz”.

Demoyan xatırladıb ki, Paşinyanın özü əvvəllər 2020-ci ildəki 44 günlük müharibəni və 2023-cü ilin sentyabr hadisələrini “soyqırımı” adlandırıb. Lakin, Demoyanın fikrincə, Nikolun son sözləri “eyni soyqırımına açıq xidmət və onun nəticələrinin günahkarlarla cinayət sövdələşməsi çərçivəsində möhkəmləndirilməsini” özündə ehtiva edir.

*

Qeyd edək ki, Paşinyan müraciətində Qarabağ məsələsi bağlanmadan sülhün mümkün olmadığını bildirib. O, Qarabağdan könüllü köçüb getmiş şəxslərin geri qayıtmasını qeyri-real adlandırıb və belə təşəbbüslərin Ermənistan–Azərbaycan sülhünü təhdid etdiyini vurğulayıb. H.Demoyana, necə deyərlər, yer edən də məhz Paşinyanın bu sözləridir. Onun çıxışı bir daha göstərdi ki, Paşinyanın son bəyanatları Ermənistan cəmiyyətində birmənalı qarşılanmır. Baş nazirin Qarabağ məsələsini qapanmış hesab etməsi və bölgədə yaşamış hayların geri dönməsini mümkünsüz sayması faktiki olaraq illərlə qurulmuş yalan ideologiyanın iflası deməkdir. Demoyanın reaksiyası isə həm də ona dəlalət edir ki, erməni siyasi və ideoloji dairələrinin bir hissəsi hələ də reallığı qəbul etmək iqtidarında deyil.

Paşinyanın son açıqlaması bu saxta qurumların fəaliyyətini mənasızlaşdırıb. Əgər institutun rəhbərliyi həqiqətən elmi nüfuz iddiasında idisə, o zaman susqunluq yox, obyektiv tarixi qiymətləndirmə ortaya qoymalı idi. Amma onlar bunu edə bilmirlər, çünki illərdir cəmiyyətə təlqin olunan uydurmalar indi rəsmi İrəvanın özü tərəfindən təkzib olunur. Demoyanın emosional ittihamları, əslində, bu acı həqiqətin nəticəsidir.

Paşinyanın Qarabağ məsələsini qapadılmış mövzu kimi təqdim etməsi isə Ermənistanın gələcək siyasətində dönüş nöqtəsi kimi qiymətləndirilməlidir. İllərdir bu məsələ üzərindən siyasi dividendlər qazanan dairələr indi dayaqlarını itiriblər. Demoyanın qəzəbi də əsasən buradan qaynaqlanır, çünki onun kimi şəxslər uzun illərdir süni miflər üzərində karyera qurublar. İndi isə həmin miflərin hökumət tərəfindən rəsmən rədd olunması onları çıxılmaz vəziyyətə salıb. Ermənistan cəmiyyətində yaranan bu ziddiyyətlər göstərir ki, yalan üzərində qurulan siyasət uzun müddət davam gətirə bilməz və gec-tez həqiqətlər ortaya çıxır.

“Alternativ layihələr” qrupunun üzvü, ekspert Vahe Hovannisyan isə sosial şəbəkə hesabında yazıb: “Müraciətin ilk anonsu veriləndən sonra insanlar bir-birindən soruşurdular: Nikol nə deyəcək? Çoxları həyəcanlı, bir qismi ümidli idi. Dövran belədir. Son nəticədə məlum oldu ki, Nikol olduqca sadə bir söz deyib: “Mən daha Ermənistanın nə olduğunu bilmirəm. Biz fotolar çəkdirdik, imza atdıq, əl sıxdıq və evə döndük. İndi də, əziz xalq, bilmirəm sabahkı Ermənistan necə olacaq”.

V.Hovannisyanın sözlərinə görə, 2018-ci ilə qədər hamı, o cümlədən Nikol bilirdi ki, Ermənistan müharibədən sonrakı mərhələdədir: “Bilirdik ki, bu mərhələ çətin və mürəkkəbdir. Lakin dövrün mahiyyəti qazanılan qələbənin təkamül yolu ilə möhkəmlənməsi idi. Başqa bir məsələ də odur ki, biz qazanılmış qələbənin ciddi siyasi təfəkkür tələb edən mürəkkəb hadisə olduğunu dərk etməmişik. İndi isə Nikol birbaşa deyir: mən bilmirəm Ermənistan nədir. Konsert, ziyafət, viza, sülh eyforiyası – bunlar aydındır, lakin bu, dövlətin perspektivi və dövlət ideyası deyil”.

Hovannisyanın açıqlamaları bir daha sübut edir ki, Ermənistan siyasi müxalifəti hələ də dövlət anlayışını düzgün qavraya bilmir. Onun Paşinyanın sözlərini şərh edərkən göstərdiyi çaşqınlıq, əslində, cəmiyyətin içindəki ümumi boşluğun ifadəsidir. Dövlətin gələcəyini konsert və ziyafətlərlə müqayisə etmək yalnız məsuliyyətsiz siyasətçilərə yaraşır. İndi Paşinyanın “bilmirəm nə olacaq” deməsi də, Hovannisyanın bu cür şərhləri də dövlətçilik adına biabırçı mənzərədir. Ermənistanı uçuruma aparan səbəb məhz budur. Hakimiyyət də, ekspert adlanan çevrələr də məsuliyyətdən qaçır, həqiqətləri qəbul etmək əvəzinə xalqı emosional şüarlarla aldatmağa üstünlük verirlər.

*

Paşinyanın xalqa müraciətindən sonra hakimiyyət yönümlü ekspertlər, deputatlar və siyasətçilər də öz mövqelərini bildiriblər. Onların əksəriyyəti baş nazirin çıxışını reallığı qəbul edən və xalqı aldatmayan bir mövqedə dayanmaq kimi qiymətləndiriblər. Hakim “Vətəndaş müqaviləsi” partiyasının deputatı Andranik Koçaryan Paşinyanın dediklərini cəsarətli addım adlandıraraq, artıq Ermənistanın illüziyalarla yaşaya bilməyəcəyini vurğulayıb. Onun fikrincə, Qarabağ məsələsinin bağlanması Ermənistanın sülh gündəliyinə fokuslanmasına imkan yaradır və ölkənin beynəlxalq aləmdə mövqeyini gücləndirir.

Deputat Arman Yeğoyanın fikrincə, Paşinyanın xalqa müraciəti bir daha göstərdi ki, Ermənistan rəhbərliyi reallıqları gizlətmək yox, onları açıq şəkildə cəmiyyətin diqqətinə çatdırmaq xəttini seçib: “Bəli, deyilənlər bir çoxlarına xoş gəlməyə bilər, lakin siyasətin mahiyyəti həqiqətləri söyləməkdən və gələcək üçün məsuliyyət daşımaqdan ibarətdir. Qarabağ məsələsinin bağlandığını vurğulamaq, köhnə illüziyaların arxasınca qaçmağı dayandırmaq, əslində, ölkə üçün yeni mərhələnin başlanğıcıdır. Bu, Ermənistanın sülh gündəliyini önə çıxarmaq və regionda uzunmüddətli sabitliyə nail olmaq istiqamətində atılmış vacib addımdır. Eyni zamanda, deputat olaraq demək istərdim ki, Paşinyanın mövqeyini təkcə siyasi bəyanat kimi deyil, həm də dövlət idarəçiliyinin rasional yanaşması kimi qiymətləndirmək lazımdır. Çünki populist vədlərlə ölkə irəli gedə bilməz. Ermənistanın mövcud reallıqları nəzərə alaraq inkişaf yolunu seçməsi isə hər bir vətəndaş üçün daha etibarlı gələcək deməkdir. Bu siyasəti dəstəkləmək təkcə hakimiyyətin deyil, bütövlükdə cəmiyyətin borcudur”.

Hakimiyyətə yaxın ekspertlər bəyan ediblər ki, Paşinyanın dedikləri ağrılı olsa da, doğru qərardır və ölkə yalnız bu yolla sabitlik qazana bilər. Bəzi siyasətçilər isə çıxışın cəmiyyət üçün psixoloji sarsıntı olduğunu qəbul etsələr də, bunu gələcəyə yönəlik qaçılmaz həqiqətin açıqlanması kimi dəyərləndiriblər. Ən çox vurğulanan məqam odur ki, Ermənistan artıq regional reallıqları qəbul etməli və münaqişədənkənar inkişaf yolunu seçməlidir.

***Səxavət HƏMİD***
***XQ***

# Keçmişə çox boylanan gələcəyini dolaşıq salar

(əvvəli 1-ci səhifədə)

"Bloomberg"in özəl mənbələrinə istinadən yaydığı məlumata görə, bu tədbirlər Rusiya və Ukrayna prezidentləri Vladimir Putin və Volodimir Zelenski arasında mümkün görüşə münbit şərait yaratmaq məqsədini güdür. Yeri gəlmişkən, 15 avqust Alyaska görüşündə Rusiyanın dövlət başçısı qarşıdakı Moskva–Kiyev danışıqlarında Ukraynanın təhlükəsizliyinə təminatın verilməsi məsələsini də xatırlatmışdı. Fəqət, o, bunu bəyan etdiyi dəqiqələrdə Odessa şəhəri və SOCAR-ın qaz terminalı bombalandı...

İndi Vaşinqtondan oxşar çağırışlar səslənməkdədir. Mənbələrin bildirdiyinə görə, zəmanət paketi Ukrayna Silahlı Qüvvələrinin və onun imkanlarının heç bir məhdudiyyət olmadan gücləndirilməsinə yönələcək. Ehtimal olunur ki, bu, Avropada "istəklilərin koalisiyası" prinsiplərinə əsaslanacaq. Yəni, formatı hələ müəyyən edilməmiş beynəlxalq kontingentin yaradılması nəzərdə tutulur.

Xatırladaq ki, avqustun 18-də Ağ Evdə ABŞ və Ukrayna prezidentləri, eləcə də Avropa liderləri arasında görüş keçirilib. Onlar Ukraynada müharibəyə son qoymağın mümkün yollarını müzakirə ediblər. Əsas məsələ Ukraynanın təhlükəsizliyinin təmini olub. Bu barədə fikirlərini bizimlə bölüşən **Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** bildirdi ki, NATO



nizamnaməsinin 5-ci maddəsinə uyğun olaraq, vaxtilə Ukraynanın təhlükəsizliyinə verilən təminat kağız üzərində qaldı: "Axı, Rusiya Ukraynanın ərazi bütövlüyünü, sərhədlərini tanımışdı. Bəs, sonra necə oldu? Hamısı pozuldu. Sabah Moskvanın bir bəhanə tapıb Ukraynanın üzərinə yeriməyəcəyinə kim təminat verir? Bu halda ABŞ, Avropa ölkələri öz ordularını qabağa verəcəklərmi? Buna əminlik yoxdur. Ağ Ev indidən bəyan edir ki, NATO çərçivəsində aldığım öhdəliklər, misal üçün, Baltik respublikalarına hansısa hücum ediləcəyi təqdirdə alyans üzvlərinin müdaxiləsi yolverilməzdir. Siz Moskvanın və Vaşinqtonun Kiyevə verəcəyi təminatların icra ediləcəyinə inanırsınız? Tutaq ki, Ukrayna müəyyən dəyişiklik və düzəlişlərlə sülh şərtlərini qəbul etdi. Bunun ardınca ordunun xeyli hissəsinin evə buraxılması prosesi gəlir. Kim təminat verə bilər ki, Moskva yenə hansısa təxribatı törədib, bir bəhanə tapıb Ukrayna üzərinə hücum etməyəcək? Əminsinizmi ki, tutaq ki, atəşkəsdən sonra ora Fransanın, Almaniyanın, yaxud İngiltərənin sülhməramlıları gəlib düzülüblər və onlar sinələrini rus tanklarının qabağına verəcəklər? Yəni, belə bir ideya var, amma fransızlar və ingilislər ön xətdə deyil, arxada duracaqlarını bildirirlər".




*

Yüz minlərlə insanın həlak olduğu Rusiya və Ukrayna arasındakı cəbhə xətti Avropa İttifaqının monitorinq missiyasından ötrü Ermənistan–Azərbaycan şərti sərhədində binoklla aşağı-yuxarı gəzmək demək deyil. Orada ölüm heç nədən baş verə bilər. Ukraynaya yardım etməkdən ötrü Avropada "dəstək qrupu"nun yaradılması mövzusuna toxunan politoloq Kiyevə real yardımın hansı formada ediləcəyindən də danışdı: "Avropa Ukraynaya yardım edəcək. Söhbət ondan gedir ki, Avropa bu gün təhlükəsizliyinin qarantını vuruşan Ukraynanın timsalında görür. Yəni, Kiyev müqavimət göstərməkdə davam etdikcə "Qoca qitə" hansısa bir formada özünün vahid ordusunu möhkəmləndirmək, hərbi sənayesini bərpa etmək üçün vaxt qazanır. Amma Avropanın Ukraynaya yardımının nə dərəcədə geriçəkilmənin qarşısını almağa qadirdir, bunu söyləmək çətindir. Belə düşünürlər ki, edilən hərbi yardımlarla Ukraynanın müqavimət gücünü saxlamaq mümkündür. Əlbəttə, bu məsələ həm də danışıqlardan asılıdır. Hər halda Donald Trampı inandırmağa çalışacaqlar ki, Ukraynaya dəstək vermək hamı üçün vacib məsələdir. Bir paralel aparaq. İkinci Dünya müharibəsi ərəfəsində Çexiyanın güclü hərbi sənayesi, müdafiə sistemi vardı. Sonralar hərbi mütəxəssislər deyirdilər ki, əgər Çexiyaya cüzi kömək edilsəydi, onun ordusu Almaniya qoşunlarını hətta geriyə ata bilərdi. Hitler Çexiyadan sonra Polşanın üstünə yeridi. Onda Fransa və İngiltərə Polşaya təhlükəsizlik təminatı verdilər. Bəs son nəticədə nə oldu? Faşist Almaniyası Polşaya hücum etdi, Fransa və İngiltərə isə müdafiə xəttinin arxasında dayandılar və heç tərpənmədilər də. Onlar, sadəcə, Hitlerin Stalinlə birgə Polşanı necə parçaladıqlarını kənardan seyr etdilər. Bunu ona görə misal çəkirəm ki, o təminat sözü çox şübhəlidir. Sözdə, kağız üzərində təminata bel bağlamaq sadəlövhlükdür".

Hazırda Ukrayna lideri Volodimir Zelenskinin "pis və daha pis" arasında qərar vermək məcburiyyətində qaldığına diqqət çəkən millət vəkili bu seçimin altında çox böyük məsuliyyət yükünün gizləndiyini xüsusi olaraq vurğuladı: "Bəli, Zelenski üçün olduqca çətin bir mərhələ başlayıb. Taleyüklü qərar qəbul etmək cürəti tələb olunur. Məgər Azərbaycan Prezidenti üçün 44 günlük müharibəyə başlamaq barədə qərarı vermək asan olub? Nə qədər riskli addım olsa da, bütün məsuliyyəti öz boynuna götürdü və bu qərarı verdi. Bəs 2023-cü ilin sentyabrında Ermənistan ordusunun qalıqlarının, Xankəndidəki separatçıların torpaqlarımızdan çıxarılması ilə bağlı qərarı qəbul etmək necə, sizcə, asan idi? Özünə, xalqına inanan cürətli dövlət başçısı belə tarixi məqamlarda siyasi qətiyyət göstərməyi bacarmalıdır. İndi Zelenskidən də bu tələb olunur: ağır qərar vermək və onun məsuliyyət yükünü çəkmək".

*

Kuluarlarda Ukrayna müharibəsindən əl-qolu açılan kimi Rusiyanın növbəti hədəfinin hansı ölkə olacağı ətrafında diskussiya getməkdədir. Bu zaman təhlükə mənbəyi kimi daha çox postsovet respublikaları göstərilir. Politoloqun bu məsələ ilə bağlı şərhi kifayət qədər maraqlı oldu: "Ordudan tərxislər, onun yeni canlı qüvvə və müasir avadanlıqla təchizatı üçün təxminən 3 il vaxt lazımdır. Böyük hərbi əməliyyatlar üçün bu prosesi aparmaq vacibdir. Amma lokal miqyaslı hərbi təsir üçün xüsusi hazırlığa ehtiyac yoxdur. Bəzi ekspertlər Rusiyanın potensial təzyiq obyektləri kimi Qazaxıstan və Gürcüstanı göstərirlər. Qazaxıstanın təhlükəsizliyinə Çin kimi "Asiya nəhəngi" təminat verib. Doğrudur, Azərbaycanla bağlı da bəzi söz-söhbətləri eşidirik. Amma bunu real təhlükə kimi görmürəm, çünki Azərbaycana "soxulmaq" çox çətindir. Samur çayının dar bir hissəsindəki keçiddə müdafiəni təşkil etmək o qədər də çətin deyil. Dənizdən müdaxilə də faydasız cəhddir. Havadan müdafiə sistemimiz isə ən müasir standartlara cavab verir. Güclü strateji müttəfiqlərə malik Azərbaycana qarşı belə bir ssenarinin işə salınacağını düşünmürəm. Amma müəyyən təzyiqlər-filan ola billər".

*

Bütün gizlinlərin aşkara çıxdığı məqamdır. Təəssüf ki, Kreml isteblişmenti hələ də keçmişə boylanmaqda, SSRİ adlı "qırmızı imperiyanın" bərpasını arzulamaqdadır. Yazımıza bu düşüncənin daşıyıcılarından biri olan "müasir rus alim-ziyalısının" sosial şəbəkədə paylaşdığı fikirlərlə nöqtə qoyuruq.

"Rusiyaya heç kimin açıq şəkildə "təpik atmağa" cəsarət etmədiyi, özünü təmin edən və formal baxımından SSRİ-yə bənzər siyasi subyektiv sivilizasiyaya çevrilmək üçün keyfiyyətcə fərqli siyasət lazımdır. Onda insanlar xoşbəxt idilər, maddi vəziyyətləri kifayət qədər yüksək olmasa da, iş, pulsuz dərman, təhsil, etibarlı hüquq-mühafizə orqanları, keyfiyyətli yemək və geyim, "qəpiklik" kommunal xidmətlər, sosial liftlər və dünyada hörmət edilən ittifaq vardı".

SSRİ üçün nostaljinin tüğyan etdiyi bu avantürist açıqlamanın müəllifi Rusiya Beynəlxalq Peşəkar İnnovasiyalar Universitetinin professoru, siyasi elmlər doktoru İqor Skurlatovdur. O, "Telegram" kanalında keçmiş sovet, indiki müstəqil respublikaların, xalqların ünvanına çəkinmədən aşağılayıcı ifadələr işlədir, paylaşımında şovinist arzularını aşkar şəkildə bəyan edir: "Yolun sahibi onu idarə edəcək! Amma potensial yol subyektlərində qorxaqlıq varsa, o zaman biz Qafqazda yeni qəhrəmanlar – Yermolovlar və Rusiyanın mərkəzi hissəsində Stolıpinlər rollarına layiqli namizədlər təqdim etməyə hazırıq. Dəyişikliklər ləngimədən, elə bu gündən etibarən başlamalıdır. Onlara cəmiyyətdə və dövlətdə xüsusilə vacib və təhlükəli "bifurkasiya nöqtələri" həvalə edilməlidir. Biz Rusiyanın mənafeyi naminə və onun rəhbərinin xeyrinə işləməkdən qorxmuruq. Biz "piyada" deyilik, xoşbəxt həyatın zəmanətçisinin "qvardiyası"yıq!".

Nə yazıq ki, ötən əsrin 30-cu illərinin nasist Almaniyasının qoxusu gələn bu zehniyyətin hökm sürdüyü bir dövlətlə qonşuyuq. Amma vaxt və tarixi şərait çox şeyi dəyişməyə qadirdir. Ümid edək ki, keçmişin xəyalları ilə yaşayanlar hərdən irəliyə – gələcəyə də boylanacaq, XXI əsrin reallığını qəbul etməyə məcbur olacaqlar...

***İ.HƏSƏNQALA***
***XQ***

# Paşinyanın reallıq etirafı

(əvvəli 1-ci səhifədə)

Nikol Paşinyanın son çıxışında ən diqqətçəkən məqam Ermənistan siyasi tarixində köklü yanlışların etirafı idi. O, açıq şəkildə bəyan etdi ki, "Qarabağ məsələsi" uzun illər dövlət siyasətinin deyil, hakimiyyət uğrunda mübarizənin aləti olub. Müxtəlif siyasi elitalar və qruplar bu mövzunu manipulyasiya vasitəsinə çevirərək seçkilərdə xalqın emosiyalarını idarə edib, sosial-iqtisadi böhranları ikinci plana keçirməyə çalışıblar. Bəs belə bir siyasi manipulyasiya Ermənistan cəmiyyətinə nə verdi? Nəticədə, ölkə inkişaf perspektivlərindən uzaqlaşdı, dövlətçilik isə strateji kursunu itirdi. Paşinyanın "Qarabağ məsələsi həll olunmadan sülh olmayacaq" tezisi həm regional reallığı, həm də tarixi məntiqi ifadə edir. Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə bərpa etməsi, əslində, uzun illər davam edən qeyri-müəyyənliyi aradan qaldırdı. Artıq bölgədə yeni siyasi və hüquqi nizam formalaşır və bu, sülhün davamlılığı üçün yeganə real zəmin yaradır. Başqa sözlə, Qarabağ problemi həll olunmadan nə Ermənistanın inkişafı mümkün idi, nə də regionda sabitlik.

Burada əsas sual yaranır: Ermənistan cəmiyyəti uzun illər formalaşdırılmış "Qarabağ mifi" ilə vidalaşa biləcəkmi? Əgər bu ideoloji yükdən qurtulmaq baş tutmasa, ölkə daxilində revanşist meyillər güclənə bilər. Əksinə, əgər cəmiyyət real siyasi kursu dəstəkləsə, Ermənistan ilk dəfə olaraq regional əməkdaşlıq və iqtisadi inteqrasiya imkanlarını dəyərləndirə bilər.

Paşinyanın etirafı həm də beynəlxalq hüququn üstünlüyünü qəbul etmək anlamına gəlir. Çünki yalnız Azərbaycanın suverenliyinin bərpası ilə beynəlxalq hüquqa əsaslanan sülh perspektivi mümkün olub. Bu isə göstərir ki, müasir dünyada ideoloji miflərə deyil, hüquqi və siyasi reallıqlara əsaslanan siyasət uzunömürlüdür.

*

Nikol Paşinyanın müraciətində diqqət çəkən ən həssas məqamlardan biri Qarabağdan çıxmış ermənilərin geri qayıtması məsələsinə münasibət oldu. Baş nazir bu ideyanı açıq şəkildə "sülh üçün təhlükəli və zərərli" adlandırdı. Əslində, bu ifadə Ermənistan siyasətində tamamilə yeni yanaşmanın təsdiqidir. Çünki indiyə qədər müxtəlif dairələr bu mövzunu dirçəltməklə ictimai rəydə revanşist hissləri qızışdırmağa çalışırdılar. Bəs nəyə görə bu mövzu təhlükəli sayılır? Birincisi, "qayıdış" ideyası beynəlxalq hüquq və real siyasi şərtlərlə uzlaşmır. Azərbaycanın suverenliyini tam bərpa etdiyi şəraitdə belə bir tələb irəli sürmək yalnız qarşıdurmanı yenidən alovlandıra bilər. İkincisi, bu tezis daxildə siyasi qüvvələr tərəfindən manipulyasiya edilərək, hökumətə təzyiq vasitəsinə çevrilə bilər. Nəticədə isə bu amil sülhün möhkəmlənməsi əvəzinə qeyri-sabitlik doğuracaq.

Paşinyanın verdiyi əsas mesaj isə sadədir: Ermənistanın gələcəyi keçmişin illüziyalarında axtarılmamalıdır. "Qarabağa qayıdış" kimi populist şüarlar nə məcburi köçkünlərə fayda verəcək, nə də dövlətin maraqlarına xidmət edəcək. Əksinə, Ermənistanın inkişaf yolunu bağlayan böyük maneələrdən biri məhz bu illüziyalardır.

Burada vacib sual ortaya çıxır: Ermənistan cəmiyyəti bu "qayıdış mifindən" imtina etməyə hazırdırmı? Əgər bu miflərlə yaşamağa davam edərsə, ölkə yalnız yeni münaqişələrin astanasına sürüklənəcək. Paşinyanın mövqeyi həm də psixoloji transformasiyanın vacibliyini göstərir. Çünki cəmiyyətin ideoloji yüklərdən azad



olunması olmadan nə dövlətin modernləşməsi, nə də uzunmüddətli sülh mümkündür. Ermənistanın strateji seçimi məhz buradadır: illüziyalarla yaşamaq, yoxsa reallıqlar əsasında gələcək qurmaq.

*

Nikol Paşinyanın xalqa müraciətində ən kəskin məqamlardan biri onun açıq etirafıdır: əgər xalq Qarabağ məsələsini bağlamaq xəttini qəbul etməsəydi, inqilab edə bilərdi. Lakin belə bir inqilab baş vermədi. Məhz bu fakt, əslində, Ermənistan cəmiyyətinin müəyyən mənada reallığı dərk etməyə hazır olduğunu göstərir. Xalq susqunluq nümayiş etdirdi, çünki hər kəs anlayır ki, münaqişənin davamı ölkəni daha dərin uçuruma sürükləyəcəkdi.

Amma problem tam həll olunubmu? Təbii ki, yox. Ən böyük çətinlik ictimai şüurun transformasiyasıdır. Onilliklər



boyu dövlət ideologiyası və siyasi elitalar tərəfindən qidalandırılan "Qarabağ mifi" cəmiyyətin kollektiv psixologiyasına hopmuşdu. Bəs Paşinyanın qarşısında hansı missiya dayanır? Onun üzərinə düşən əsas vəzifə hay cəmiyyətini "islah etmək", yəni onu reallığa qaytarmaqdır. Ermənistanın gələcək inkişafı məhz bu psixoloji dönüşdən asılıdır. Sual aydındır: Ermənistan lideri öz xalqını illüziyalardan ayıraraq, onu reallıqlar əsasında yeni siyasi gündəmə inandıra biləcəkmi? Cavab məhz Paşinyanın liderlik bacarığından və cəmiyyətin psixoloji hazırlığından asılı olacaq.

*

Paşinyanın çıxışı yalnız Ermənistan auditoriyası üçün deyil, beynəlxalq aktorlar üçün də ciddi siqnallar daşıyır. Ermənistan rəhbərliyi ilk dəfədir ki, bu qədər açıq şəkildə Qarabağ məsələsinin qapandığını və geri dönüşün mümkün olmadığını bəyan edir. Əgər əvvəllər müxtəlif platformalarda "münaqişənin həlli yolları" müzakirə olunurdusa, indi artıq söhbət yalnız sülh müqaviləsinin icrası və praktiki addımların atılmasından gedir.

Burada əsas sual yaranır: bu yeni reallıq beynəlxalq güclərin regiondakı siyasətinə necə təsir edəcək? ABŞ və Avropa İttifaqı Ermənistanın sülh xəttini dəstəkləməklə regionda Rusiyanın təsirini azaltmaq istəyir. Rusiya isə, əksinə, münaqişə gündəminin dirçəlməsində maraqlıdır, çünki yalnız münaqişə olduğu halda vasitəçi statusunu qoruyub saxlaya bilər. Bu mənada Paşinyanın bəyanatı Moskvanın regional təsir mexanizmlərinə zərbə vurur. Digər tərəfdən, Türkiyə və Azərbaycan üçün bu açıqlamalar mühüm əhəmiyyət kəsb edir. Çünki Ermənistan rəhbərliyi faktiki olaraq Azərbaycanın mövqelərini təsdiqləyir və regionda yeni əməkdaşlıq imkanlarına qapı açır. Beynəlxalq kontekstdə diqqətçəkən başqa bir məqam da odur ki, Paşinyanın etirafı vasitəçilik institutunun mahiyyətini dəyişir. İndi sual "münaqişənin həlli" deyil, "sülhün möhkəmlənməsi"dir. Bütün bunlar ATƏT-in Minsk qrupu kimi funksiyasını itirmiş qurumların tamamilə gündəmdən çıxmasına gətirib çıxarır. Onların yerini daha çox ikitərəfli və ya regional platformalar tutur.

Beləliklə, Paşinyanın çıxışı regionda geosiyasi nizamı dəyişdirən bir mərhələyə işarə edir. Ermənistan ilk dəfə olaraq açıq şəkildə reallıqları qəbul etdiyini bildirir və bu, beynəlxalq güclərin strategiyalarını yenidən nəzərdən keçirməsinə səbəb olur.

*

Ermənistanın 30 ildən artıq davam edən təcrid vəziyyətindən çıxması Vaşinqton razılaşmalarının ən mühüm nəticəsi kimi qiymətləndirilə bilər. Çünki uzun illər ərzində regionda kommunikasiya layihələrindən kənarda qalan, qonşularla əlaqələrini məhdudlaşdıran Ermənistan iqtisadi, siyasi və sosial baxımdan dalana dirənmişdi. Blokadadan çıxmaq nə deməkdir? Bu, ilk növbədə Ermənistanın regionda iqtisadi oyunçuya çevrilməsi üçün yeni imkanlar açır. Azərbaycanla yolların açılması həm ticarət, həm logistika, həm də enerji layihələri baxımından mühüm əhəmiyyət daşıyır. Paşinyanın vurğuladığı kimi, nəqliyyat-kommunikasiya xətlərinin bərpası sərhədlərin delimitasiyası ilə müşayiət olunmalıdır. Yəni, bu proses təkcə infrastruktur layihələri ilə məhdudlaşmır, həm də sərhədlərin hüquqi dəqiqləşdirilməsi yolu ilə siyasi sabitlik yaratmağı hədəfləyir.

Ermənistan üçün ikinci mühüm nəticə psixoloji baryerin aşılmasıdır. Uzun illər "blokada" və "təcrid" anlayışları siyasi ideologiyanın bir parçasına çevrilmişdi. İndi bu divarların dağıdılması cəmiyyətə yeni perspektivlər təqdim edir. Üçüncü aspekt isə beynəlxalq güclərin roludur. ABŞ və Qərb Vaşinqton razılaşmaları vasitəsilə Ermənistanı regional əməkdaşlıq məkanına daxil etməklə, həm də Rusiyanın təsirini zəiflətmək niyyətindədir.

Nəhayət, Paşinyanın "Ermənistan sərhədi keçmə prosedurlarını sadələşdirməyə hazırdır" sözləri göstərir ki, hökumət artıq konkret praktiki addımlara yönəlir. Əgər bu proses uğurla həyata keçsə, Ermənistan 30 ildən sonra nəinki blokadadan çıxacaq, həm də regionda real tərəfdaşlıqlar qurmaq şansı əldə edəcək.

Paşinyanın xalqa müraciəti Ermənistan üçün tarixi dönüş nöqtəsi ola bilər. Onun açıq etirafları, Qarabağ məsələsini bağlaması və cəmiyyətə verdiyi islahat mesajları yeni bir siyasi mərhələnin başlanğıcıdır. Lakin proses asan olmayacaq. Ermənistanda hələ də revanşist qüvvələr, diaspor təzyiqləri və milli romantizmdən qurtula bilməyən dairələr mövcuddur. Sülhün davamlı olması üçün Ermənistan daxili sabitlik, iqtisadi inkişaf və regional əməkdaşlığı prioritetə çevirməlidir. Son olaraq qeyd etməliyik ki, Qarabağ mövzusunu siyasi alət kimi istifadə edənlər isə artıq tarixdə qalır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Dövlət idarəetməsində sinerji və innovativlik



### II MƏQALƏ

## Resentiment identiklik

Filosoflar (əsasən, F.Fukuyama) müasir cəmiyyətlər və dövlətlər üçün resentimenti təhlükəli fenomen hesab edirlər. Resentimentlik cəmiyyətin bütövlüyünü, tamlığını siyasi şüur səviyyəsində poza bilir. O, dövlət identikliyinə mədəni və siyasi identiklik sferasından nüfuz edir. Dövlətçilik baxımından resentiment həmin andan təhlükəyə çevrilir. F.Fukuyama yazır ki, XXI əsr cəmiyyətlərində etnik, dini, traybolistik, iqtisadi (proteksionizm aspektində), milliyyətçiliyin müxtəlif radikal formaları (məsələn, özünü müstəsna irq hesab etmək psixoloji xəstəliyi), ksenofobiyalar və s. getdikcə güclənir. F.Fukuyama bunun kökündə "özünü etirafetdirmə" hissinin dayandığını vurğulayır. Deməli, hər hansı cəmiyyətin daxilində özünü etiraf etdirmək hissinə ifrat qapılmış kəsimlər mövcuddursa, onda dövlət idarəçiliyi üçün ciddi risklər meydana çıxa bilir. Yekunda bu fraqmentləşdirici tendensiya toplumun birliyini pozmağa təkan verə bilir.

Düşündürücüdür ki, ilk baxışdan resentimentliyin inkişaf edən və birliyi demək olar ki, təmin edilmiş cəmiyyətlər üçün elə bir risk yarada bilməsi əsaslı görünmür. Ancaq XXI əsrin təcrübəsi bunun belə olmadığını təsdiq edir. Müəyyən müddətdə normal inkişaf edən cəmiyyətlərdə özünü etirafetdirmək "eşqinə" düşən qruplar vəziyyəti kəskin dəyişə bilər. Məsələn, dünyanın inkişaf etmiş ölkələrində ifrat səviyyədə alturist düşüncəli insanların sayı artır. Onlara "Dünya oğlanları" deyirlər. İndi onların yaşı 40-50 arasındadır. Həmin kəsim üçün milli dövlət anlayışı arxa plandadır. Hazırda həmin kəsimin sosial çəkisi artır və bu, cəmiyyətin rəyinə təsir edir. Qərb tədqiqatçıları bu faktı ciddi qəbul edirlər. Bu tendensiyanın cəmiyyəti parçalaya biləcəyini istisna etmirlər.

Yaxın Şərq cəmiyyətlərinin problemləri başqadır. Həmin regionun əksər dövlətlərində resentimentliyin müxtəlif təzahürlərini indi də müşahidə edirik. Deyək ki, İraqda, Suriyada, Yəməndə, Livanda və başqa region ölkələrində bu proses özünü göstərir.

Qərbdə son illər "ağ radikalizm" anlayışına tez-tez rast gəlinir. Ermənistanda revanşizmin kökündə "erməni müstəsnalığı" psixoloji xəstəliyi dayanır.

Kənarda özünü göstərən bu kimi fraqmentləşmə tendensiyaları qloballaşma dövründə geniş yayıla bilər. Ona görə də dövlət idarəçiliyinin sinerjisi ön plana çıxmalıdır. Dövlət xidməti institutunun transformasiyalarında fraqmentləşməyə yol vermək olmaz. Dövlət xidməti institutunun transformasiyalarında fraqmentləşmə hansı istiqamətlər üzrə ola bilər? Bu suala cavabın bir tərəfi idarəetmənin texnoloji xüsusiyyətlərinə bağlıdırsa, digər aspekti kadr yetişdirilməsi məsələsinə söykənir. Kadrların milli-mənəvi dəyərlərə sadiq peşəkarlar kimi yetişdirilməsinin strateji əhəmiyyəti buradan qaynaqlanır. Onlar bütöv Azərbaycan miqyasında düşünən, özünün məmur olaraq yararlığını Azərbaycan dövlətinə xidmətdə görən Vətənsevər insanlar olmalıdırlar! Prezident İlham Əliyevin yeni tarixi mərhələdə dövlət idarəçiliyi sahəsində çalışan kadrlar qarşısında qoyduğu başlıca vəzifə bundan ibarətdir!

Bu tələbin ideoloji bünövrəsi də mükəmməl müəyyən olunmuşdur. Bununla bağlı Prezident İlham Əliyevin aşağıdakı fikirlərini vurğulamaq zəruridir. Dövlət başçısı demişdir: "Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz – onun davamçıları isə bu müsbət meylləri öz tərəfimizdən daha da gücləndiririk".

## Uğurlu vətəndaşlar cəmiyyəti

Resentimentin sosial münasibətlər baxımından əsas əlamətlərini filosoflar belə qruplaşdırırlar:

– Uğurlu və varlı insanlara qarşı düşmənçilik hissi - qibtə və onları aşağılamaq istəyi yaradır;

– Cəmiyyətdə daha yüksək məqamda olanlara qarşı qəzəb. Adam hesab edə bilər ki, kimsə yüksək məqama layiq olmadan çatmışdır;

– Başqa sosial qrupların, irqlərin, dinlərin təmsilçilərinə neqativ münasibət aludəçisi. Bu, özünü müstəsnalıq hissini yaradır və fərqli olanlara nifrət əmələ gətirir.

Tədqiqatlar göstərir ki, bu cür hisslərin və münasibətlərin yaranmasında müxtəlif faktorlar – ailədaxili münasibətlər, məktəbdə təhsillə tərbiyənin nisbəti, insanın şəxsi həyatı, onu əhatə edən ən yaxın ətraf, informasiya qaynaqları və digərləri rol oynayırlar. Bunlarla yanaşı, məsələyə vətəndaş-məmur münasibətləri prizmasında baxanda dövlətçilik aspektində ciddi məsələlər meydana çıxır.

Alimlər vurğulayırlar ki, resentiment əsasən insan arzu etdiyinə çata bilməyəndə, müxtəlif yerlərdə aşağılananda, özünü kənarlaşdırılan kimi hiss edəndə, məmur laqeydliyini görəndə, bir sözlə, özünü uğursuz hiss edəndə meydana gəlir. Buna görə də varlı, zəngin insanlara obyektiv münasibət göstərə bilmir, məmur təbəqəsinə qarşı radikal mövqe tutur və s.

Belə alınır ki, resentiment müasir cəmiyyətdə əsasən uğursuz vətəndaşlar mühitində formalaşır. Bu da avtomatik olaraq məmur təbəqəsinin dövlətçilik və birlik yaratmaq üçün vacib olan keyfiyyətlər qazanması məsələsini aktuallaşdırır.

Beləliklə, müstəqil dövlətçilikdə uğurlu vətəndaşlar cəmiyyətinin (vətəndaş cəmiyyətinin) formalaşdırılması strateji anlam kəsb edir. Prezident İlham Əliyevin Andiçmə mərasimində ifadə etdiyi aşağıdakı müdrik fikirlər bu baxımdan son dərəcə əhəmiyyətlidir. Dövlət başçısı demişdir: "Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq...Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi var".

Ölkə rəhbərinin vurğuladığımız tezisləri yalnız məzmun baxımından əhəmiyyətli deyildir, onlar həm də uğurlu liderin cəmiyyətə səslənişləridir. O cümlədən. məmur təbəqəsi qarşısında duran çoxsaylı vəzifələrin bir qisminin ön plana çıxarılmasıdır.

Azərbaycan təcrübəsinə görə, Azərbaycanda uğurlu vətəndaşlar cəmiyyətinin formalaşması üçün məmur təbəqəsi hansı keyfiyyətlərə malik olmalıdır? Onları Prezident İlham Əliyev müxtəlif kontekstlərdə dəqiq ifadə etmişdir. Biz, sadəcə, bir sıra məqamlar üzərində dayanmağa çalışacağıq.

## İşgüzar, vətənsevər və milli təəssübkeşli məmur təbəqəsi

Öncədən vurğulayaq ki, bu məsələ idarəetmə baxımından olduqca prinsipial və dərin dövləti mövqe tələb edir. Söhbət, qətiyyən hansısa şəxsləşdirmədən getmir. Azərbaycan dövlət məmurları ümumilikdə kifayət qədər vətənsevər, çalışqandırlar və milli təəsübkeşliyə malikdirlər. Burada məsələ yeni tarixi mərhələnin tələblərinə uyğun məmur təbəqəsinin vətənsevərlik və milli təəssübkeşlik istiqamətlərində daha yüksək kollektivçilik ruhunda inkişafı imkanlarından gedir. Və bu prosesdə idarə edənlərlə yanaşı, alimlərin, nazirliklərin və müxtəlif digər dövlət orqanlarının üzərinə düşən funksiyalarını yerinə yetirmələri zərurəti önə çəkilir. Uğurlu həll yolu vurğulanan dairələrin fəaliyyətinin sinerji və innovativlik yaratması ilə bağlıdır. Bütün dünya üçün bu məsələ aktualdır. Bu bağlılıqda F.Fukuyama və C. Fridmanın fikirlərinə baxmaq faydalı olardı.

Frensis Fukuyama 2014-cü ildə yazırdı ki, Amerikanın dövlət institutları tənəzzüldədirlər. Bunun səbəbi dövlətin tədricən nüfuzlu kəsimlərin maraqlarının təsiri altına düşməsi ilə bağlıdır. 2016-cı il seçkilərində hakimiyyətə gələnlərin iqtisadi milliyyətçilikləri və avtoritar tendensiyalarının beynəlxalq düzəni sabitlikdən çıxarma təhlükəsi yaratdığını vurğulayırlar. Cəmiyyətdən müəyyən qrupun üstün identikliyə malik olduğunu qəbul eləməyi tələb etmək resentiment hissləri gücləndirmişdir.

Corc Fridmanın da fikirləri maraqlıdır. O yazır ki, müasir dövlətlərdə orta sahibkarlar təbəqəsinin fəaliyyətinin dövləti əhəmiyyəti böyükdür. İşgüzar kəsim toplumun xeyrinə və maraqlarına uyğun fəaliyyət göstərirsə, həmin cəmiyyətin dayanıqlığı yüksək olur. Əks halda fraqmentləşmə cəmiyyəti çox laxlada bilər. Bu qismdə dövlətin orta məmur təbəqəsinin fəaliyyəti də prinsipial əhəmiyyət daşıyır. Apardığı təhlillər əsasında C.Fridman belə qənaətə gəlir ki, Qərb cəmiyyətlərinin başlıca problemləri orta sahibkarlar və məmurlar təbəqəsinin ümumi milli maraqlardan uzaqlaşmağa başlaması ilə əlaqəlidir. Bu istiamətdə dəyişikliklər gənc nəslin cəmiyyət maraqlarına xidmət ruhunda tərbiyəsi ilə bağlıdır. C.Fridman R.T.Ərdoğanın cəmiyyətin faydası üçün çalışan gənc və dinamik orta sahibkarlar və məmur təbəqəsi yetişdirə bilməsini nümunə olaraq göstərir.

Buradan belə bir qənaət əldə etmək olar: müasir mərhələdə resentiment həm qlobal miqyasda özünəməxsus təzahürlərə malikdir, həm də konkret cəmiyyətlər üçün aktualdır. Bu iki səviyyədə resentimentlə mübarizə fərqlidir. Konkret cəmiyyətlərdə onun zəifləməsi milli ruhlu orta sahibkar və məmur təbəqəsinin formalaşdırılması sayəsində mümkün ola bilər. Prezident İlham Əliyevin davamlı olaraq milli-mənəvi dəyərlərə bağlı gənc nəslin tərbiyəsi məsələsini aktuallaşdırması bütün bunlara görə strateji mahiyyəti böyük olan addımdır. Dövlət başçısı vurğulayır ki, "Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik".

Belə alınır ki, dövlətin idarə edilməsində dayanıqlı və davamlı sinerji effekti almaq özlüyündə çoxaspektli və müxtəlif parametrləri birləşdirən mürəkkəb prosesdir. Burada idarəetmə texnologiyaları ilə yanaşı, dərin sosial-mədəni və iqtisadi mahiyyəti olan faktorlara da diqqət etmək gərəkdir. Daha doğrusu, onların bir-biri ilə qarşılıqlı münasibətlərində sistemlilik təmin edilməlidir. Bunun reallaşmasında orta sahibkar və məmur təbəqəsinin rolu prinsipial əhəmiyyət daşıyır.

Bu tezis kontekstində öncəki məqalədə vurğuladığımız nazirliklərin fəaliyyətlərini qarşılıqlı surətdə əlaqələndirməsi məsələsinin də müəyyən ayrıntılarını təsəvvür edə bilərik. O cümlədən, təhlildən və müqayisələrdən görünür ki, səhiyyə, elm, təhsil və maliyyə sferalarının fəaliyyətlərinin sinxronlaşması nəticəsində sinerji effekti kimi cəmiyyətdə xəstəliklərin səmərəli profilaktikası mühitinin yaradılması və vətəndaşların sağlam həyat tərzinin inkişafı ilə yanaşı, çox aktual olan gənc nəslin milli-mənəvi dəyərlər əsasında yetişdirilməsi diqqətə alınmalıdır. Və məsələ yalnız vurğulanan üç faktorla qətiyyən məhdudlaşmır. Burada hər bir faktorun təsnifini aparmağa ehtiyac yoxdur. Ümumi mənzərə elədir ki, yuxarıda qeyd edilən nazirliklərlə yanaşı, dövlətin bütün qurumları sinxron fəaliyyət göstərməli və birlikdə nəzərdə tutulan sinerji effektini yaratmalıdırlar.

Bəs bu çox ümumi və demək olar ki, hər kəs tərəfindən qəbul edilən məqsədə praktiki müstəvidə necə çatmaq olar? Konkret olaraq, müxtəlif nazirliklər və bütövlükdə dövlət qurumları arasında qarşılıqlı fəaliyyətin optimal modelini necə yaratmaq olar? Yeni tarixi mərhələdə uğurlu olmaq üçün hansı məsələləri önə çəkmək gərəkdir? Bir sözlə, dövlət təşkilatlarının ortaq sinerjisi hansı şərtlər daxilində mümkündür?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Minsk qrupu – iflas etmiş vasitəçilik

**(əvvəli 1-ci səhifədə)**

Müraciət ATƏT-ə sədrlik edən Finlandiyaya təqdim olunandan dərhal sonra rəsmi Helsinki bu çağırışa dəstək verdiyini açıqladı. Finlandiyanın Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən Hədəf Qrupunun rəhbərinin müavini, diplomat Toni Sandell bildirib ki, ölkəsi bu sənədi müsbət qarşılayır və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasında mühüm mərhələ hesab edir. Sandellin sözlərinə görə, Finlandiya artıq edir. Deməli, yeni dövrün çağırışları artıq fərqlidir və tərəflər sülhə doğru irəliləmək üçün daha konkret və qarşılıqlı faydalı əməkdaşlıq mexanizmlərinə üstünlük verirlər.

Bu səbəbdən Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində intensiv danışıqlar aparılır. Minsk qrupunun ləğvi danışıqlar üçün münbit zəmin yaradır. Sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması, etimad mühitinin yaranması və iqtisadi inteqrasiyanın dərinləşməsi gələcəkdə konkret




müraciətə cavab vermək və ATƏT çərçivəsində uyğun addımlar atmaq istiqamətində ilkin prosedurlara başlayıb.

Minsk qrupunun ləğvi istiqamətində atılan addımlar həm də onu göstərir ki, Cənubi Qafqazda postmünaqişə dövrü başlayıb. 2020-ci ildəki Vətən müharibəsindən sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə yanaşı, faktiki olaraq regionda yeni status-kvo formalaşıb. Amma beynəlxalq diplomatiyada bu yeni vəziyyətin rəsmən tanınması və köhnə vasitəçilik strukturunun ləğvi bugünədək baş verməmişdi. Artıq Azərbaycan və Ermənistan reallığı qəbul edərək köhnə modelə ehtiyac olmadığını bildirdilər. Bu, həm də tərəflərin gələcək münasibətləri birbaşa danışıqlar və ikitərəfli mexanizmlər vasitəsilə tənzimləməyə hazır olduqlarını göstərir.

Onu da qeyd edək ki, bu qurumun fəaliyyətinin dayandırılması bölgədə daha çevik və konkret nəticələrə yönəlik diplomatik formatların aktuallaşmasını zəruri edir. Tərəflər üçün uzaq vasitəçilər və illərlə davam edən, lakin nəticə verməyən proseslər əhəmiyyətini itirib. Bunun əvəzinə, daha çevik, texniki və real nəticələr doğuran əməkdaşlıq formatlarına üstünlük verilir.

*

Yeni geosiyasi şəraitdə bölgədə əsas güc mərkəzlərinin mövqeləri də dəyişir. Rusiya əvvəllər regionda aparıcı vasitəçi rolunu oynasa da, indi təsir dairəsini itirir. Artıq Moskva diplomatik proseslərin birbaşa mərkəzində deyil və bu vəziyyət müxtəlif bəyanatlarla kompensasiya edilməyə çalışılır. Məsələn, Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitə sədrinin birinci müavini Viktor Vodolatski ABŞ-da İlham Əliyev və Nikol Paşinyan arasında imzalanmış Bəyannaməni "ağlın qələbəsi" adlandırsa da, eyni zamanda, Moskvanın əvvəllər atdığı addımları xatırladaraq bu prosesdə Rusiyanın da rolunu qabartmağa çalışıb. Bu, əslində, Rusiyanın hazırda kənarda qaldığı proseslərə simvolik şəkildə daxil olmaq cəhdidir. Yəni, demək istəyir ki, bu işlərdə "biz də varıq".

Fransa isə son illər Azərbaycanla münasibətlərdə yaratdığı gərginlik fonunda bölgədəki rolunu zəiflətmək məcburiyyətindədir və daha çox ikitərəfli əlaqələrə fokuslanır. Bunun nəticəsidir ki, bu il ərzində ilk dəfə Azərbaycandan Fransaya neft ixracı həyata keçirilib. Söhbət 81,7 min ton həcmində və 41,3 milyon ABŞ dolları məbləğində neft alışından gedir. Bundan başqa, Fransa ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan liderləri arasında Vaşinqtonda əldə olunan razılaşmanı alqışlayıb və tərəflərin ATƏT-in Minsk qrupunun strukturlarını ləğv etməyə başlamaq çağırışına qoşulub. Fransa XİN-in bəyanatında deyilir: "Münasibətlərin normallaşması və sülh müqaviləsinin tezliklə imzalanması Cənubi Qafqazın sülh və firavanlıq məkanına çevrilməsi istiqamətində mühüm addım olmalıdır".

Paris həmçinin qeyd edib ki, sazişlər 1991-ci il Almatı Bəyannaməsi prinsipləri əsasında regional əlaqəyə, sərhədlərin açılmasına və dövlətlərin suverenliyinin möhkəmləndirilməsinə töhfə verir. Digər tərəfdən, ABŞ regionda yaranmış boşluğu doldurmaq və daha güclü mövqe tutmaq üçün diplomatik fəallığını artırıb. Bütün bu proseslər fonunda regional güclərin mövqeyi xüsusi əhəmiyyət kəsb edir. Türkiyə Azərbaycanla strateji müttəfiqliyini davam etdirərək postmünaqişə dövründə yaranmış yeni reallıqları dəstəkləyir və regional layihələrdə, xüsusilə də Zəngəzur dəhlizi ilə bağlı təşəbbüslərdə fəal iştirak nəticələrin əldə olunacağından xəbər verir. Bu da bölgənin sabitlik və əməkdaşlıq müstəvisinə keçməsi üçün real fürsət pəncərəsi açır.

*

**Mövzu ilə bağlı politoloq Yeganə Hacıyeva XQ-yə bildirdi ki,** hazırda



Azərbaycan tərəfinin tələbləri və geosiyasi səyləri nəticəsində beynəlxalq münasibətlər sistemində mühüm dəyişikliklər baş verir: "Bu dəyişikliklərin əsas göstəricilərindən biri ATƏT-in Minsk qrupunun fəaliyyətinin faktiki olaraq dayandırılması, yəni demontajıdır. Azərbaycan bu prosesin əsas təşəbbüskarı və icraçısı kimi çıxış edir. Bu demontaj təkcə konkret bir qurumun – ATƏT-in Minsk qrupunun ləğvi ilə məhdudlaşmır, həm də onun timsalında beynəlxalq münaqişələrin nizamlanmasında iştirak edən, lakin real nəticə verməyən qurumların, xüsusilə də sülhyaratma missiyalarını həyata keçirən çoxmilyardlıq sənayenin iflasını nümayiş etdirir. Uzun illər ərzində beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in Minsk qrupunun fəaliyyəti əsasən imitasiyadan ibarət olub. Bu qurum münaqişənin həllində nə real, nə də effektiv nəticə verən vasitəçi kimi çıxış edə bilib. Bu isə beynəlxalq münasibətlər sistemində formalaşmış köhnə mexanizmlərin iflasa uğradığını göstərir.

Azərbaycanın 30 illik səbirli, lakin qətiyyətli mövqeyi və hərbi-siyasi səyləri bu prosesin sürətlənməsinə səbəb oldu. Məhz ölkəmizin təşəbbüsü ilə beynəlxalq münasibətlər sistemində köklü dəyişikliklər baş verir. Bu proses təkcə region səviyyəsində deyil, qlobal miqyasda da yeni geosiyasi reallıqların formalaşmasına yol açır. Bu gün bizim şahidi olduğumuz yeni mərhələnin başlanğıcı məhz Azərbaycandan verilib. Bu yeni reallıqlar milli maraqlara əsaslanan, nəticəyönümlü və suverenlik prinsipini əsas tutan yanaşmaların ön plana çıxması ilə səciyyələnir. Regiondakı məsələlərin həlli üçün artıq vasitəçilərə və qeyri-funksional platformalara ehtiyac yoxdur. Azərbaycan və Ermənistan birbaşa dialoq vasitəsilə gələcəklərini və münasibətlərini müəyyənləşdirməyə hazır olduqlarını nümayiş etdirdilər. Bu isə təhlükəsizlik, nəqliyyat-kommunikasiya, sərhəd məsələlərində daha çevik və məqsədyönlü qərarların qəbuluna şərait yaradır".

Beləliklə, Minsk qrupunun ləğvi istiqamətində atılan addımlar təkcə keçmişin yükündən azad olmaq deyil, həm də gələcəyə yönəlmiş konstruktiv münasibətlər modelinin əsasını qoymaq niyyətinin göstəricisidir. Bu sənəd bir münaqişənin idarə edilməsinə həsr olunmuş köhnə mexanizmlərin dövrünü başa vurduğunu və Cənubi Qafqazda yeni, daha realist və əməkdaşlıq yönümlü mərhələnin başlandığını göstərir. ATƏT-in Minsk qrupunun rəsmi şəkildə ləğvi və bu qərarın Finlandiyanın sədrliyi altında həyata keçirilməsi bölgə üçün yeni bir dövrün başlanğıcıdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Vaşinqton Zirvəsində sülh sazişinin konturları aydın göründü!

**Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanmasını əksər analitiklər tamamilə haqlı olaraq tarixi hadisə kimi qiymətləndirirlər. Eyni zamanda, vurğulanmalıdır ki, həmin sazişin ərsəyə gəlməsində aparıcı rolu Azərbaycan oynamışdır. 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl sülh siyasəti öz bəhrəsini verməkdədir. Cəmi 5 ildə Azərbaycan lideri möhtəşəm bir zəfər yolunu keçmişdir. Öncə, siyasi-hərbi yolla ölkənin ərazi bütövlüyünü təmin etmiş, sonra isə sülh uğrunda qətiyyətli və ədalətli mübarizəsi ilə dünyaya Azərbaycan həqiqətlərini qəbul etdirmişdir.**



## Regional geosiyasi proseslər: üç aspektin sintezi

Ekspertlər Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci il avqustun 7-8-də Vaşinqtona səfərini, Azərbaycan–Ermənistan liderlərinin Vaşinqton görüşü zamanı Azərbaycan, ABŞ və Ermənistan liderlərinin sammitinin nəticəsində liderlər tərəfindən Birgə Bəyannamənin imzalanması, sülh sazişinin paraflanması, ATƏT-in Minsk prosesi və aidiyyəti strukturların ləğvinə birgə çağırış, habelə "Tramp Marşrutu" (Zəngəzur dəhlizi) və strateji tərəfdaşlıq xartiyası üzrə əldə edilmiş razılıqları, əsasən, üç aspektdə təhlil edirlər.

Birincisi, Azərbaycan–ABŞ münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri.

İkincisi, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması şərtləri.

Üçüncüsü, Cənubi Qafqazda sabit və davamlı sülhün bərqərar olması imkanları.

Bu istiqamətlərin hər biri həm ayrılıqda, həm də qarşılıqlı əlaqədə çox önəmlidir. Vurğulanan istiqamətlərin hər biri üzrə əldə edilmiş konkret nəticələr hazırlanan və artıq qəbul olunan sənədlərdə öz əksini tapmışdır.

Politoloji baxımdan əhəmiyyətlidir ki, bu üç istiqamət üzrə razılıqlar birbaşa Ağ Evdə Amerika Birləşmiş Ştatları Prezidentinin iştirakı ilə əldə edilmişdir. Hazırda bütövlükdə dünya miqyasında həmin faktı yüksək qiymətləndirirlər. Azərbaycan Prezidenti İlham Əliyev də bu barədə açıq fikir bildirmişdir. Prezident İlham Əliyev bununla bağlı Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə verdiyi müsahibədə xüsusi vurğulamışdır: "... bugünkü gün...tarixi gün sayıla bilər. Həm Azərbaycan–Amerika ikitərəfli münasibətlərinin inkişafında, həm Azərbaycan–Ermənistan normallaşması işində atılan addımlar, Birgə Bəyannamənin qəbul edilməsi, imzalanması və dünyanın ən qüdrətli dövləti olan Amerikanın Prezidentinin buna dəstəyi və şahidlik etməsi bir daha bu Bəyannamənin önəmini göstərir. Mən bu gün mətbuat konfransında da qeyd etdim, biz dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində, dünyanın ən qüdrətli Prezidentinin iştirakı ilə bunu etdik. Əlbəttə, hər kəs başa düşür ki, bunun nə qədər böyük əhəmiyyəti var, həm ölkəmiz üçün, həm bölgə üçün, həm geniş coğrafiya üçün. Biz haqq-ədaləti müharibə yolu ilə bərpa etdik. İndi isə buna siyasi müstəvidə də nöqtəni qoyduq".

Müsahibənin başqa bir yerində dövlətimizin başçısı məsələnin bu tərəfinə təkrar diqqət yönəldərək ifadə etmişdir: "Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir" və "bir halda Azərbaycan və Ermənistan rəhbərləri bu paraflamanı Ağ Evdə etməyi qəbul ediblərsə, deməli, hesab etmək olar ki, artıq bölgəmizə dayanıqlı sülh gəlib. Hesab edirəm ki, bu, həm Azərbaycan, həm Ermənistan, həm bütün bölgə üçün xüsusi əhəmiyyətə malik olan məsələdir".

Azərbaycan Prezidentinin bu tezislərində üç mühüm aspekt məntiqi bağlılıqda ifadə edilmişdir.

Birinci aspekt ondan ibarətdir ki, görüşün Ağ Evdə təşkil edilməsi və konkret razılaşmaların əldə olunması həm çox əhəmiyyətlidir, həm də böyük məsuliyyət deməkdir.

İkinci aspekt görüşün Azərbaycan–ABŞ münasibətləri baxımından xüsusi əhəmiyyətinin olması ilə bağlıdır. İlham Əliyev bu məqamı belə xarakterizə etmişdir: "Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Əlbəttə ki, Azərbaycanın milli maraqlarının qorunması üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir".

Üçüncü aspekt belədir: sülh sazişi ilə bağlı sənədin Ağ Evdə paraflanması artıq Cənubi Qafqaza sülhün gəldiyinin təsdiqidir.

Azərbaycan liderinin bu tarixi fikirlərinin işığında görünür ki, İlham Əliyevin Vaşinqton səfəri regional və qlobal geosiyasi əhəmiyyətli bir sıra məsələlərin qarşılıqlı əlaqədə həllinə ciddi təkan verir. Vaşinqton görüşünə bu müstəvidə nəzər salmaq vacibdir.

## Vaşinqtonun etirafı

Yuxarıda vurğuladığımız aspektlərin formalaşdırdığı yekun mənzərə göstərir ki, İkinci Qarabağ müharibəsinin nəticələrini və 2023-cü ilin antiterror tədbirlərinin yaratdığı yeni regional geosiyasi reallığı artıq dünyanın ən qüdrətli dövləti olan ABŞ rəsmi olaraq etiraf edir. Belə ki, ABŞ Azərbaycan və Ermənistanla münasibətlərini ziddiyyətsiz məcraya yönəldərək, eyni zamanda, bu faktdan regional təhlükəsizlik, sabitlik və əməkdaşlıq naminə istifadə edir. Bunlar praktiki müstəvidə onu ifadə edir ki, artıq ABŞ başda olmaqla Qərb Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbənin əhəmiyyətini qəbul edərək Cənubi Qafqazda dövlətlərarası münasibətlərdə və regional geosiyasi proseslərdə yeni səhifə açmağa başlamışdır. Bu, tarixi baxımdan olduqca önəmli məqamdır.

Azərbaycanın regionda əldə etdiyi uğurların qlobal siyasi, hüquqi və geosiyasi miqyasda tanınması üçün Donald Tramp, sözün həqiqi mənasında, cəsarətli addım atmışdır. Məhz bu yeniliyin prizmasından həm Azərbaycan–ABŞ münasibətlərinin perspektivinə, həm də paraflanmış sazişin, ümumiyyətlə, təhlükəsizlik və əməkdaşlığa verə biləcəyi töhfələrə baxa bilərik.

## Yeni səhifə: əməkdaşlıq və strateji tərəfdaşlıq

Yuxarıda vurğulamışdıq ki, Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqton səfərinin səmərəli yekunlarından biri kimi, ilk növbədə, ABŞ ilə ölkəmiz arasında əməkdaşlıq və strateji tərəfdaşlıq istiqamətlərində yeni səhifənin açıldığını göstərmişdir. Dövlət başçısının bu fikrinin milli maraqlar baxımından nə dərəcədə əhəmiyyətli olduğunu dərk etməliyik. Çünki müstəqil Azərbaycanın müasir tarixində ciddi müsbət dönüş məqamını ifadə edir. Bu tezisi izah etməyə çalışaq.

Hər şeydən öncə, Prezident İlham Əliyev əməkdaşlıqla strateji tərəfdaşlığı təsadüfən ayrıca vurğulamamışdır. Çünki heç də hər bir əməkdaşlıq məzmunu, məqsədi və səviyyəsinə görə strateji xarakter daşımır. Bundan başqa, əsasən, Vaşinqtonun əməkdaşlıq adı altında atdığı ziddiyyətli addımlara görə Azərbaycanla ABŞ arasında indiyə qədər mövcud olmuş əməkdaşlıq heç də bütün dönəmlərdə müsbət məzmunda olmamışdır. Məsələn, bədnam "907-ci düzəliş" Amerikanın Azərbaycanla hərbi əməkdaşlığına qadağa qoyurdu. Təcavüzə məruz qalmış bir müstəqil dövlətə qarşı bundan böyük haqsızlıq olmazdı. Ancaq ona əsaslanaraq Amerika illərdir ki, nə tam anlamda əməkdaşlıq edə bilir, nə də hansısa dayanıqlı strateji planlar qurur. Vaşinqton razılaşmasından sonra bu maneə aradan qalxır. Ona görə də münasibətlərdə konkret əməkdaşlıq strateji niyyətindən danışa bilərik.

Vurğuladığımız kontekstdə Azərbaycan Prezidenti jurnalistlərə verdiyi müsahibədə real mənzərəni dolğun ifadə edərək demişdir: "Prezident Trampla görüşümüz çox səmimi şəkildə keçdi. Deyə bilərəm ki, dostluq şəraitində keçdi. Bir çox önəmli məsələlər müzakirə edildi. Eyni zamanda, bildiyiniz kimi, Strateji Tərəfdaşlıq Xartiyasını hazırlamaq üçün Strateji İşçi Qrupu da yaradılmışdır və əlbəttə ki, bu sənədin böyük əhəmiyyəti var. Orada gələcək əməkdaşlıq istiqamətləri də açıq-aydın təsbit edilib. Bunlar qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, bağlantılar, tranzit, təhlükəsizlik, süni intellekt, müdafiə sənayesi və müdafiə sahələrində əməkdaşlığı və digər məsələləri ehtiva edir. Yəni, sadəcə olaraq, bu istiqamətlərin sadalanması onu göstərir ki, ölkəmiz qarşısında nə qədər böyük imkanlar açılır və artıq mənim göstərişimlə Azərbaycan tərəfini təmsil edəcək tərkib müəyyən olunub".

## “Vaxt itirə bilmərik”

Göründüyü kimi, Azərbaycan tərəfi ABŞ ilə strateji tərəfdaşlığa son dərəcə böyük önəm verir. Bunun üçün rəsmi Bakı sürətlə irəliləməyi hədəfləmişdir. Bu qərar üçün Azərbaycan liderinin kifayət qədər ciddi əsasları vardır. Onu İlham Əliyev açıq və konkret söyləmişdir. Dövlət başçısı demişdir: "Biz öz təkliflərimizi irəli sürəcəyik. Artıq mənim səfərim çərçivəsində Amerikanın bir neçə aparıcı şirkəti ilə görüşlər keçirilmişdir. Yəni, biz vaxt itirmək istəmirik. Onsuz da əvvəlki administrasiya dövründəki dörd ili mən itirilmiş illər kimi qiymətləndirirəm. Çünki əfsuslar olsun ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan əlaqələrinin girovuna çevrilmişdi. Bizim Amerika Birləşmiş Ştatları ilə əvvəlki dövrdə əldə edilmiş nailiyyətlər və potensial demək olar ki, dondurulmuş vəziyyətə salınmışdı. Ona görə indi biz vaxt itirə bilmərik".

Bütün bunlar onu ifadə edir ki, Bakı və Vaşinqton əməkdaşlığı strateji səviyyəyə yüksəltməkdə qətiyyətlidirlər. Bu, tərəflərə sülh, barışıq, əməkdaşlıq və təhlükəsizliyə vahid yanaşma formalaşdırmağa əsas verir. Ona rahatlıqla "Azərbaycan–ABŞ strateji tərəfdaşlığı" demək olar. Bununla Azərbaycan Qərbdəki strateji tərəfdaşlarının sayını 10-a çatdırmış olur. Artıq Aİ-nin 9 dövləti və ABŞ Azərbaycanla strateji tərəfdaşdırlar. Çox ciddi siyasi-diplomatik nəticədir! Onun Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişin paraflanması baxımından da əhəmiyyəti böyükdür. Həmin sazişin detalları üzərində dayanaq.

## Azərbaycan–Ermənistan: sülh və dövlətlərarası münasibətlərin təsisi

2025-ci ildə Vaşinqtonda Azərbaycanın hansı sülh sənədini parafladığını doğru-düzgün anlamaq üçün 2022-ci ilin əvvəlində rəsmi Bakının Ermənistana təqdim etdiyi və "5 əsas prinsip" adlanan müddəaları bir daha xatırlayaq. Bunlar sülh müqaviləsinin imzalanmasının təməlində durmalı olan təklif-şərtlərdir.

Deməli, hələ 5 il bundan əvvəl Azərbaycan iki dövlət arasında sülhün bərqərar olmasının əsasını BMT Nizamnaməsinin müddəalarına tam uyğun bir neçə punktda cəmləşdirmişdi. Onlar bir-birinin suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının və siyasi müstəqilliyin qarşılıqlı şəkildə tanınmasını, dövlətlərin bir-birinə qarşı ərazi iddialarının olmamasını, dövlətlərarası münasibətlərdə bir-birinin təhlükəsizliyinə təhdid yaradılmamasını, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə edilməməsini, dövlət sərhədinin delimitasiyası və demarkasiyasını, diplomatik münasibətlərin qurulmasını və nəqliyyat kommunikasiyalarının açılışını ehtiva edir. Bu müddəaların fonunda Vaşinqtonda paraflanan sülh sazişinin preambulasında ifadə edilən müddəaları nəzərdən keçirək. Orada deyilir:

"Tərəflər:

Bölgədə ədalətli, hərtərəfli və davamlı sülhün təsis edilməsinə təcili zərurəti anlayaraq,

Bu məqsədə dövlətlərarası münasibətlərin təsis edilməsi yolu ilə töhfə verməyi arzulayaraq,

BMT Nizamnaməsini, BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətləri və əməkdaşlıq ilə bağlı beynəlxalq hüququn prinsipləri haqqında Bəyannaməni (1970), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Konfransının Helsinki Yekun Aktını (1975) və 21 dekabr 1991-ci il tarixli Almatı Bəyannaməsini rəhbər tutaraq və orada əks olunmuş norma və prinsiplər əsasında əlaqələri inkişaf etdirmək məqsədi güdərək,

Öz aralarında mehriban qonşuluq münasibətləri təsis etməklə bağlı qarşılıqlı iradəni ifadə edərək,

...öz aralarında sülh və dövlətlərarası münasibətləri təsis etmək barədə razılığa gəlirlər".

Bu müddəalardan aydın görünür ki, Azərbaycan və Ermənistan dövlətlərarası münasibətlərin təsis edilməsinə başlayırlar ki, nəticədə, regionda ədalətli, hərtərəfli və davamlı sülhü bərqərar etmək mümkün olacaqdır. Bu yekun məqsəd tam olaraq Azərbaycanın təklif etdiyi baza prinsiplərinin yekun təsirinə uyğundur. Hətta Azərbaycanın təklifində bu prosesin ayrıca punktlar üzrə aparılmasının hüquqi, siyasi və geosiyasi detalları da açıqlanmışdır.

Belə çıxır ki, Vaşinqtonda Azərbaycan və Ermənistanın xarici işlər nazirləri tərəfindən paraflanan sazişin təməl yanaşma prinsipləri Azərbaycanın təkliflərinə əsasən hazırlanmışdır. Həmin sazişin konkret maddələrinə nəzər salaq. 1-ci maddədə göstərilir ki, "tərəflər bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər"; 2-ci maddədə vurğulanır: tərəflər "...bir-birinə qarşı hər hansı ərazi iddialarının olmadığını və gələcəkdə belə iddialar qaldırılmayacağını təsdiq edirlər; Tərəflər digər tərəfin ərazi bütövlüyü və ya siyasi birliyini tamamilə və ya qismən parçalamağa yönəlmiş hər hansı bir hərəkətə, o cümlədən belə hərəkətlərin planlaşdırılmasına, hazırlanmasına, həvəsləndirilməsinə və dəstəklənməsinə yol verməyəcəklər"; 3-cü maddədə deyilir: "Tərəflər bir-biri ilə qarşılıqlı münasibətlərdə ərazi bütövlüyü və ya siyasi müstəqilliyə qarşı və ya BMT Nizamnaməsinə zidd olan hər hansı bir digər formada, güc tətbiq etməkdən və ya güc tətbiq etməklə hədələməkdən çəkinəcəklər". Üstəlik, "Onlar öz müvafiq ərazilərindən hər hansı üçüncü tərəfin digər Tərəfə qarşı BMT Nizamnaməsinə zidd olaraq güc tətbiq etmək üçün istifadə edilməsinə imkan verməyəcəklər". 4-cü maddədə isə qeyd edilir: "Tərəflər bir-birinin daxili işlərinə müdaxilədən çəkinəcəklər".

Vaşinqton sazişinin baza maddələri reallıqda Azərbaycanın əvvəllər təklif etdiyi əsas prinsiplərlə məzmun və məqsədcə üst-üstə düşür. Bu o deməkdir ki, paraflanan sülh sazişi tamamilə Azərbaycanın milli maraqlarına cavab verir.

## İki mühüm faktor

Bunun iki başlıca səbəbinin olduğunu düşünürük.

Əvvəla, Azərbaycanın xarici siyasəti tamamilə beynəlxalq hüququn prinsiplərinə əsaslanır. Bunu artıq dünyanın bütün dövlətləri qəbul etmişdir.

İkincisi, Azərbaycan Prezidenti yürütdüyü siyasi kursa görə qlobal miqyasda ədalətli, sülhsevər, əməkdaşlıq qurucusu, yeni təhlükəsizlik arxitekturasının formalaşmasında fəal iştirak edən, yaradıcı və təşəbbüskar lider kimi qəbul edilir!

Bu mənada Prezident İlham Əliyev müasir dövrün çağırışları səviyyəsində dövlət identikliyi ilə liderlik identikliyinin vəhdətinə nail olmuş nadir dövlət başçılarındandır. Vaşinqtonda paraflanmış sənədin perspektivinə məhz bu iki faktorun işığında baxmaq gərəkdir. Təbii ki, kimsə ABŞ Prezidenti D.Trampın təşəbbüskarlığını, ədalətliliyini və fəallığını arxa plana atmaq niyyətində deyildir. Ancaq bütün dünya üçün yeni olanı məhz müstəqil Azərbaycanın cəmi 5 il müddətində BMT kimi təşkilat da daxil olmaqla nüfuzlu dairələrin həll edə bilmədiyi münaqişəni siyasi-hərbi yolla həll etməsindən sonra sülh uğrunda da eyni qətiyyət və müdrikliklə mübarizə aparmaq potensialına malik olmasıdır.

Bizim üçün qürur mənbəyi, dünya üçün heyrət ünvanı olan bu gerçəklik başqa nəticələrlə yanaşı, həm də Vaşinqton razılaşmasını yaratdı. Prezident İlham Əliyev bu möhtəşəm prosesin ümumi xarakteristikasını çox yaxşı vermişdir. Dövlət başçısı Vaşinqtonda jurnalistlərə demişdir: "Azərbaycan bütün məsələləri beynəlxalq hüquq çərçivəsində özü həll etmişdir. Qarabağ münaqişəsi, Azərbaycan-Ermənistan münaqişəsi hərbi-siyasi yollarla öz həllini tapmışdır. Azərbaycan məhz o vaxt gələcək baxışlarını ortaya qoydu. Yəni ki, bu boşluq çox davam edə bilməz. Yəni, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi olmalıdır və onun təşəbbüskarı qeyd etdiyiniz kimi, biz olmuşuq".

Beləliklə, Vaşinqton Zirvəsi mühüm bir mərhələnin açılmasının rəmzidir! Bu elə bir mərhələdir ki, oradan sülh sazişinin konturları aydın görünür! Həmin sülh sazişinə aparan bütün yollar da Bakıda kəsişir!

***Kamal ADIGÖZƏLOV***

# İqtisadi tərəqqidə qeyri-neft-qaz sektorunun payı artır

## *7 ayda bu sahədə 50 milyard manatlıqdan çox məhsul istehsal olunub*



**Son illər ölkəmizdə iqtisadi və sosial tərəqqinin əsas göstəricisi sayılan ümumi daxili məhsul (ÜDM) istehsalında müşahidə olunan artım meyilləri cari ilin ötən dövründə də davam edib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci ilin yanvar-iyul aylarında Azərbaycanda 72 milyard 429,9 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,9 faiz çox ümumi daxili məhsul istehsal olunub.**

Hazırda ölkəmizdə ÜDM-in hər nəfərə düşən həcmi 7076,9 manat təşkil edir ki, bu da dünyanın inkişaf etməkdə olan dövlətləri arasında yüksək göstərici sayıla bilər. Azərbaycanda ümumi iqtisadi artımın əsas hissəsi ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış neft strategiyasının uğurlu nəticələri hesabına təmin olunsa da, son illər qeyri-neft-qaz sektoru üzrə də xüsusi fəallıq nəzərə çarpır. Bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir.

Müqayisə üçün qeyd edək ki, 2010-cu ildə ölkəmizin qeyri-neft-qaz sektorunda 18,4 milyon manatlıq məhsul istehsal olunduğu halda, 2024-cü ildə bu göstərici 85 milyard 712,4 milyon manat təşkil edib. Bir mühüm fakt da ondan ibarətdir ki, Azərbaycanın qeyri-neft-qaz ÜDM-i 2022-2024-cü illərdə hər il orta hesabla 6,6 faiz, ümumilikdə isə, 1,2 dəfə artıb.

Ölkə iqtisadiyyatının qeyri-neft-qaz sektorunun inkişafında müşahidə olunan sürətli artım tendensiyası 2025-ci ilin yanvar-iyul aylarında da davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin 7 ayında qeyri-neft-qaz sahələri üzrə məhsul istehsalı 50 milyard 142,9 milyon manat təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,1 faiz artım deməkdir.

Bu ilin yanvar-iyul aylarında ölkə üzrə istehsal olunmuş ümumi daxili məhsulun 35 faizi iqtisadiyyatının əsas sahəsi sayılan sənayenin payına düşüb. Hesabat dövründə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 36,6 milyard manatlıq məhsul istehsal edilib. Bu ilin 7 ayında sənayenin neft-qaz sektorunda məhsul istehsalı 3,5 faiz azalsa da, qeyri-neft-qaz sahələrində əhəmiyyətli artım qeydə alınıb. Belə ki, yanvar-iyul aylarında sözügedən sahələrdə 11 milyard 515,6 milyon manatlıq məhsul istehsal olunub ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 5,5 faiz çoxdur.

Sevindirici haldır ki, son illər Azərbaycanda sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı həyata keçirilən mühüm tədbirlər, aparılan genişmiqyaslı islahatlar dünyanın aparıcı ölkələri, eləcə də nüfuzlu maliyyə qurumları tərəfindən birmənalı olaraq bəyənilir, təqdir olunur. Həmin qurumların ölkəmizin iqtisadi inkişafı ilə bağlı proqnozları da ümidvericidir. Məsələn, Dünya Bankının proqnozlarına görə, bu ilin sonunadək Azərbaycanda qeyri-neft-qaz sektorunun ÜDM-də payının 2,6 faizdən çox olacağı gözlənilir.

Ekspertlərin fikrincə, hazırda neft sektorundan ölkə büdcəsinə daxilolmalar üstünlük təşkil etsə də, qeyri-neft sektorunun mühüm sahələri olan kənd təsərrüfatı, xidmət, tikinti, sənaye, turizm və digər sahələrdən, eləcə də enerji və qiymətli metalların ixracından, nəqliyyat və logistika sektorundan gələn tranzit haqları da büdcə gəlirlərinin formalaşmasında mühüm rol oynayır. Ötən il qeyri-neft sektorundan daxil olan gəlirlər hesabına ÜDM-də artımın baş verdiyini bildirən ekspertlər onu da bildirirlər ki, işğaldan azad edilmiş ərazilərdə iqtisadi fəallığın getdikcə yüksəlməsi ilə bu göstərici daha da yaxşılaşacaq.

Heç şübhəsiz, ölkə iqtisadiyyatının qeyr-neft-qaz sahələrində məhsul buraxılışının həcminin ilbəil artması ixracın strukturunda da özünü qabarıq şəkildə büruzə verir. Bu sahədə artım tendensiyası cari ilin ötən dövründə də davam edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına əsasən, yanvar-iyul aylarında Azərbaycanın qeyri-neft-qaz sektoru üzrə ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 11,4 faiz artaraq 2,1 milyard ABŞ dolları təşkil edib. Cari ilin təkcə iyul ayında qeyri-neft-qaz məhsullarının ixrac dəyəri 333,9 milyon dollar olub. Bu göstərici isə illik ifadədə 20 faiz artım deməkdir.

Qurumdan bildiriblər ki, son 1 ildə ölkənin yeyinti məhsullarının ixrac dəyəri 23,9 faiz artaraq 689 milyon ABŞ dolları olub. Bundan əlavə, hesabat dövründə kimya sənayesi məhsullarının ixrac dəyəri 45,2 milyon dollar və ya 30,4 faiz, şəkərin ixrac dəyəri 10,9 milyon dollar və ya 55,1 faiz, qara metallar və onlardan hazırlanan məmulatların ixrac dəyəri 8,6 milyon dollar və ya 19,1 faiz, meyvə-tərəvəzin ixrac dəyəri 122,6 milyon dollar və ya 31,9 faiz, pambıq ipliyin ixrac dəyəri 2,6 milyon dollar və ya 18,2 faiz, çayın ixrac dəyəri isə 317 min dollar və yaxud 8,8 faiz artıb.

Göründüyü kimi, ölkəmizdə sosial-iqtisadi inkişafın sürətləndirilməsinə yönəldilmiş məqsədli dövlət proqramlarının qəbulu, əlverişli biznes mühiti, eləcə də uğurlu şaxələndirmə siyasəti qeyri-neft sektorunun ümumi daxili məhsulda payının getdikcə artmasına səbəb olacaq. Bunun da nəticəsində ixracda qeyri-neft mallarının payı ildən-ilə artacaq.

# Qazaxıstanla aqrar əməkdaşlıq genişləndirilir

**Astana Beynəlxalq Maliyyə Mərkəzi (ABMM) və ADA Universiteti nəzdində fəaliyyət göstərən İnkişaf və Diplomatiya İnstitutunun (IDD) birgə hesabatında qeyd edilir ki, Qazaxıstanla Azərbaycan arasında aqrar sektor əməkdaşlığı genişlənir və bu, ikitərəfli ticarətin artımında əsas hərəkətverici qüvvəyə çevrilir.**

Bildirilir ki, Qazaxıstan dünyanın ən iri taxıl istehsalçılarından biri olaraq 2024-cü ildə, təxminən, 8,1 milyon ton taxıl ixrac edərək məhsulun mühüm hissəsini (illik həcmi, təxminən, 1,5 milyon ton) Bakı Taxıl Terminalı vasitəsilə respublikamıza göndərib. Əvəzində Azərbaycan Qazaxıstana meyvə və tərəvəz ixrac edib.



Hesabatda vurğulanır ki, aqrar sektorda, o cümlədən, məhsulların emalı sahəsində ticarət və investisiya layihələrinin icrası əməkdaşlığın əsas istiqamətlərindən birinə çevrilir. Bundan əlavə, Orta Dəhlizin imkanlarından istifadə etməklə məhsulların saxlanması və daşınması sahəsində qarşılıqlı investisiya yatırımı ilə iki ölkə arasında ərzaq ticarəti əhəmiyyətli dərəcədə optimallaşır, onun dayanıqlığını və səmərəliyi yüksəlir. Aqrar əməkdaşlığın dərinləşdirilməsi isə Qazaxıstan və Azərbaycanın strateji maraqlarına cavab verir, regional ərzaq təhlükəsizliyini və iqtisadi inteqrasiyanı gücləndirir.

Qeyd edək ki, regionda yaranmış yeni reallıqlar çərçivəsində nəqliyyat –kommunikasiya xətlərinin açılması istiqamətində aparılan işlər və postmünaqişə dövrünün reallığı olan Zəngəzur dəhlizi (Tramp yolu) Mərkəzi Asiya regionu, o cümlədən Qazaxıstan üçün də yeni fürsətlər yaradır. Ölkələrimizin maraqları bu məsələdə də üst-üstə düşür. Bununla bərabər, hər iki dövlətin beynəlxalq nəqliyyat – kommunikasiya dəhlizinə çevrilmələrinə xidmət edən "Rəqəmsal İpək yolu" layihəsinin əsas hissəsi olan Xəzəraltı fiber-optik kabel magistralının inşası istiqamətində görülən işlər də təqdirəlayiqdir.

Bununla bağlı vurğulamaq yerinə düşər ki, 2022-ci il sentyabrın 28-də "AzərTelecom" və "Kazakhtelecom" telekommunikasiya şirkətləri arasında Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsi üzrə strateji tərəfdaşlıq haqqında memorandum imzalanıb.

Azərbaycan – Qazaxıstan əməkdaşlığında ticarət-iqtisadi əlaqələr də xüsusi yer tutur. Ölkəmizdə dost ölkə arasında investisiyalı 182 kommersiya qurumu (sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, ticarət, xidmət) qeydiyyatdadır. Ötən il Qazaxıstandan respublikamıza 102 milyon dollar, Azərbaycandan Qazaxıstana isə 205 milyon dollar investisiya qoyulması, ölkələrimiz arasında ticarət dövriyyəsinin 599 milyon dollar təşkil etməsi də bunun bariz ifadəsidir.

Bütün bunlarla yanaşı, iki ölkə arasında neft və neft məhsullarının ticarəti sahəsində uğurlu əməkdaşlıq davam etdirilir. Bura Qazaxıstan mənşəli xam neftin Bakı – Tbilisi – Ceyhan neft boru kəməri ilə dünya bazarına çatdırılması, Azərbaycanda emalı, həmin məhsulun dünya bazarına təchizatı daxildir.

Qeyd edək ki, Azərbaycan Dövlət Neft Şirkəti 2023-cü ilin martından etibarən Qazaxıstanın Tengiz yatağından ayda 125 min ton həcmində neftin Bakı – Tbilisi – Ceyhan boru kəməri ilə nəqlinə başlayıb. Qazaxıstan neftinin Aktau limanından "Prezident Heydər Əliyev" tankerinə ilk yüklənməsi isə 2024-cü il martın 21-də həyata keçirilib.

# Yoncalıqlar da aqrar sığortaya cəlb edilib



**Ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan heyvandarlığın inkişafı üçün müasir yem bazasının formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan heyvandarlıqda əvəzsiz yem bitkisi sayılan yoncanın əkini və onun ayrı-ayrı sortlarının rayonlaşdırılmasına diqqət getdikcə artırılır. Bunun nəticəsidir ki, yonca ölkəmizdə ən kütləvi şəkildə əkilən yem bitkisinə çevrilib.**

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, hazırda Azərbaycanda 87 min nəfərə yaxın fermer 145 min hektar ərazidə yonca əkir. Statistik məlumatlara əsasən, yonca ən çox Qarabağ (37 min hektar), Mil Muğan (36 min hektar) və Mərkəzi Aran (29 min hektar) iqtisadi rayonlarında əkilir. Yem bitkisinin ən çox əkildiyi rayonlar isə Ağcabədi (14,2 min hektar), Beyləqan (13,5 min hektar), Bərdə (11,5 min hektar), Yevlax (8,7 min hektar) və İmişlidir (8,6 min hektar).

Böyük tələbatın olması və ildə bir neçə dəfə məhsul verməsi yoncanı iqtisadi cəhətdən əlverişli və fermerlər üçün qazanclı bitkiyə çevirib. Bununla yanaşı, yonca təbiət hadisələri, vəhşi heyvanların hücumu, 3-cü şəxslərin hərəkətləri kimi hallara qarşı həssas bitki sayılır. Məhz bu səbəbdən Azərbaycanda dövlət dəstəyi ilə sığortalanan mühüm növ bitkilərin sırasına yonca da daxil edilib. Qeyd edək ki, Aqrar Sığorta Fondu yonca bitkisini çoxsaylı risklərdən, o cümlədən təbiət hadisələri, dolu, fırtına, qasırğa, normadan artıq qar yağıntıları, sel-subasma, torpaq sürüşməsi, vəhşi heyvanların hücumu, 3-cü şəxsin hərəkəti və sair hadisələrdən sığortalayır.

Artıq ölkədə mövcud yonca sahələrinin sığortalanması prosesinə start verilib. Aqrar Sığorta Fondundan bildiriblər ki, yonca sahəsinin sığortası nə vaxt biçilməsindən asılı olmayaraq, il ərzində əkin sahəsindən toplanan bütün məhsulu əhatə edir. Belə ki, fermer məhsulu bəyan edərkən sahədən gözlənilən məhsulun çəkisini və gözlənilən satış qiymətini qeyd edir. Bununla da əkin sahəsindən fermerin gözlədiyi gəlir məbləği formalaşır. Bu məbləğ və əkin sahəsinin yerləşdiyi region üzrə sığorta tarifi nəzərə alınaraq sığorta haqqı hesablanır.

Qaydalara görə, sığorta haqqının yarısı dövlət tərəfindən ödənilir. Məsələn, Mil-Muğan regionunda 1 hektar yonca sahəsindən 200 sentner məhsul, 1 sentnerin qiyməti 20 manat proqnozlaşdırılır. Bu halda, 1 hektar sahədən gözlənilən məhsulun ümumi dəyəri 4 min manat təşkil edir. Region üzrə sığorta tarifinin 1,52 faiz olduğunu nəzərə aldıqda bu yonca sahəsinin sığortalanması üçün ümumi sığorta haqqı 60,8 manat təşkil edir. Həmin məbləğin 50 faizi dövlət tərəfindən ödənilir, nəticədə fermer cəmi 30,4 manat ödəniş etməklə 1 hektar yonca sahəsini sığortalaya bilər.

# Qarabağ və Şərqi Zəngəzurda 12 şəhər dirçəldilir

## *Artıq 8 şəhərin baş planı hazırdır*

**Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Qarabağ və Şərqi Zəngəzurda şəhər və kəndlərin, qəsəbələrin ərazi planlaşdırma sənədləri hazırlanır, inkişaf konsepsiyaları müəyyən olunur. Layihə sənədləri beynəlxalq standartlar nəzərə alınmaqla, xarici və yerli şirkətlərin, peşəkar mütəxəssislərin iştirakı ilə işlənilir.**



Planlarda ərazilərin tarix-memarlıq strukturu, eləcə də coğrafi mövqeyi, iqlimi, iqtisadi – turizm potensialı əsas götürülməklə müasir innovativ yanaşmalar tətbiq edilir. İşğal nəticəsində məhv edilmiş tarix-memarlıq abidələrinin bərpası önəmli amil kimi nəzərdə tutulur.

Proqram çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, ümumilikdə, 12 şəhərin baş planının işlənməsi nəzərdə tutulub. Artıq Ağdam, Qubadlı, Füzuli, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Şuşa, Laçın daxil olmaqla 8 şəhər üzrə layihələndirmə işləri müasir şəhərsalma və ekoloji yanaşmalar tətbiq edilməklə başa çatdırılıb. Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərinin baş plan layihələri üzərində işlər davam etdirilir. Həmçinin 90 kənd və qəsəbənin planlaşdırılması tamamlanıb və 10-u şəhər olmaqla 40-a yaxın yaşayış məntəqəsində yenidənqurma işləri aparılır.

Həmin ərazilərdə əhalinin dayanıqlı məskunlaşmasını təmin etmək məqsədilə müasir standartlara uyğun infrastruktur yaradılır, "ağıllı" həllərin, "yaşıl" enerji və mobil nəqliyyat yanaşmalarının tətbiqi, yeni turizm və iqtisadi sahələrin, park-şəhərlərin yaradılması nəzərdə tutulur. Artıq ilkin mərhələdə 30 mindən çox əhali doğma yurdlarına qayıdaraq, rahat həyatına davam edir.

# Orta aylıq əməkhaqqı 9,4 faiz çoxalıb

**Dövlət Statistika Komitəsindən bildirilib ki, 2025-ci ilin I yarısında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artaraq 1097 manat təşkil edib. Əməkhaqqı neft –qaz sektorunda 3919 manat, qeyri – neft – qaz sektorunda 1045 manat olub. Dövlət müəssisələrində bu göstərici 1062 manat, özəl müəssisələrdə isə 1133 manat qeydə alınıb.**

Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi – texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olub.




*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan – Mərkəzi Asiyadan Avropaya strateji körpü

**Özbəkistan Prezidenti Şavkat Mirziyoyev "Özbəkistan, Azərbaycan və Avropa – ümumi inkişaf naminə əməkdaşlıq" adlı yüksək səviyyəli görüşün iştirakçılarına müraciətində respublikamızın Mərkəzi Asiya ilə Avropanı birləşdirən strateji körpü rolunu oynadığını bildirib. O, eyni zamanda, adları çəkilən hər iki region ilə Avropa arasında tərəfdaşlıq perspektivlərinin mövcudluğunu vurğulayaraq, Azərbaycan ilə əməkdaşlıq proseslərinin geniş vüsət aldığını, regionlararası qarşılıqlı əlaqənin gücləndirilməsinin, respublikamızın potensialından və imkanlarından daha dolğun istifadə edilməsinin zəruriliyini xatırladıb.**

Ş.Mirziyoyev müraciətində daha sonra son illər Özbəkistan – Azərbaycan münasibətlərinin qarşılıqlı etimad və dəstəyə əsaslandığını qeyd edib. Bununla bağlı artıq iki ölkə arasında imzalanan Müttəfiqlik Münasibətləri haqqında Müqavilə əsasında qurulan Ali Dövlətlərarası Şuranın sözügedən əməkdaşlığa böyük töhfə verdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyevin son illərdəki qarşılıqlı səfərləri hər iki ölkə arasında münasibətlərin möhkəmlənməsinə, əməkdaşlığın genişlənməsinə müsbət təsir göstərib, eyni zamanda, ikitərəfli iqtisadi əlaqələrin inkişafı, əmtəə dövriyyəsinin artırılması, nəqliyyat və energetika sahələrində birgə layihələrin həyata keçirilməsi üçün geniş imkanlar yaradıb. İkitərəfli əməkdaşlıq üzrə müştərək hökumətlərarası komissiyanın fəaliyyəti isə ölkələr arasında ticarət-iqtisadi əməkdaşlığın inkişafına böyük töhfə verib. Bu, rəsmi statistikada da öz aydın ifadəsini tapıb. Məsələn, uzunmüddətli Azad Ticarət Sazişi və MDB çərçivəsində çoxtərəfli azad ticarət rejimindəki fəal iştirak nəticəsində bu iki ölkə arasında ticarət dövriyyəsi keçən il 252 milyon ABŞ dollarını ötərək əvvəlki illə müqayisədə 41 faiz artıb. Azərbaycan bu dövrdə adı çəkilən dost ölkəyə 212 milyon dollar dəyərində məhsul ixrac edib, Özbəkistan isə 40,3 milyon dollar dəyərində idxal həyata keçirib.

Ümumiyyətlə, son 5 ildə Özbəkistanın Azərbaycana ixracı əhəmiyyətli dərəcədə artaraq 2018-ci ildəki 32 milyon dollardan 2023-cü ildə 147 milyon dollara (illik orta hesabla 35,6 faiz artım) yüksəlib. Eyni dövrdə Azərbaycanın Özbəkistana ixracı 9,7 milyon dollardan 100 milyon dollara (illik orta hesabla 60 faiz artım) çatıb.

İqtisadi əməkdaşlığın dərinləşməsi təkcə ticarət artımı ilə məhdudlaşmır – bu prosesə Azərbaycan – Özbəkistan İnvestisiya Fondu kimi birgə investisiya mexanizmləri, avtomobil istehsalı, enerji və aqrosənaye klasterləri üzrə birgə layihələr də əlavə olunur. Bu istiqamətlər üzrə inkişaf iki ölkə arasında çoxşaxəli iqtisadi inteqrasiyanın möhkəmləndiyini göstərir.

Ticarət dövriyyəsi ilə bağlı isə qarşıya 1 milyard dollarlıq hədəf qoyulub. Bu məqsədlə imzalanan 2024 – 2025-ci illəri əhatə edən Praktiki Fəaliyyət Planı qarşılıqlı iqtisadi fəaliyyətin konkret sahələr üzrə genişləndirilməsinə yönəlib. Eyni zamanda, Ali Dövlətlərarası Şuranın səmərəli fəaliyyəti və strateji tərəfdaşlıq üzrə yol xəritələri çərçivəsində layihələrin uğurlu icrası nəticəsində isə münasibətlərin siyasi-hüquqi əsası möhkəmlənib.



Azərbaycan – Özbəkistan arasında əlaqələrin möhkəmlənməsində nəqliyyat və tranzit-logistika sahəsi ilə bağlı birgə layihələrin icrası da önəmli rol oynayır. Dost ölkənin Orta Asiyada mühüm coğrafi mövqeyi, Azərbaycanın isə Xəzər dənizi vasitəsilə Qafqaz və Avropaya çıxış imkanları bu iki dövləti təbii tərəfdaş edir. Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Hər iki ölkə bu dəhlizin inkişafında maraqlıdır və birgə layihələr vasitəsilə regionun beynəlxalq nəqliyyat xəritəsində rolunu artırmağa çalışır. Azərbaycan liman və dəmir yolu infrastrukturuna böyük sərmayələr yatırır, Özbəkistan isə bu imkanlardan istifadə etməklə öz ixrac və idxal marşrutlarını daha da şaxələndirir.

Qeyd edək ki, dünyada və regionda baş verən geosiyasi hadisələrlə əlaqədar Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən keçməklə Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur. Bu amil adıçəkilən dəhlizin önəmini artırmaqla yanaşı, geniş bir regionda yerləşən ölkələr arasında əməkdaşlığın daha da inkişafı baxımından unikal imkanlar təqdim edir. Yaxud Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrində respublikamızın rolu getdikcə artır.

Azərbaycan Qərblə Şərq yolunun üzərində yerləşdiyindən dünyanın ən böyük iqtisadiyyata malik olan tərəfləri – Çinlə Avropa arasında əlaqənin qurulması kimi vacib layihədə başlıca rollardan birini oynayır. Respublikamız bu istiqamətdə qlobal və regional miqyasda mövcud vəziyyətlə (Qırmızı və Qara dənizlərdə, Süveyş kanalında mövcud böhranlı şərait) əlaqədar Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən keçməklə Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrut sayılır.

Orta Dəhliz Çindən Avropaya və geriyə yüklərin çatdırılması üçün ən səmərəli və təhlükəsiz marşrutdur. Xatırladaq ki, bu dəhliz 2014-cü ildən fəaliyyət göstərir və Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyə, həmçinin Avropa ölkələrinə qədər uzanır.

Energetika sektoru da Azərbaycan – Özbəkistan əməkdaşlığının mühüm istiqamətlərindən biridir. Respublikamızın zəngin neft – qaz resursları və enerji ixracı sahəsində təcrübəsi ilə Özbəkistanın daxili enerji ehtiyacları və istehsal potensialı arasında qarşılıqlı tamamlayıcılıq mövcuddur. Eyni zamanda, bərpa olunan enerji sahəsində də əməkdaşlıq perspektivləri genişdir. Özbəkistan günəş və külək enerjisi potensialına malikdir, ölkəmiz isə bu istiqamətdə beynəlxalq tərəfdaşlarla əməkdaşlıq təcrübəsini bölüşür. Bu sahədə ortaq layihələrin reallaşdırılması regionun enerji təhlükəsizliyinə mühüm töhfə verir.

Bütün bu sahələrdə əməkdaşlıq Azərbaycan və Özbəkistan arasında münasibətlərin sadəcə dostluq çərçivəsində deyil, strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini göstərir. Dövlət başçılarının siyasi iradəsi, iqtisadi əlaqələrin genişlənməsi, birgə infrastruktur və energetika layihələri gələcək üçün möhkəm təməl yaradır, regionda sabitliyin və inkişafın möhkəmlənməsinə xidmət edir. İkitərəfli əlaqələrin uğurları təkcə iki ölkənin deyil, bütün Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının iqtisadi inteqrasiyası baxımından mühüm rol oynayır.

Hər iki ölkə arasında münasibətlərin genişlənməsinə müsbət təsir göstərən bir məsələyə də diqqət yetirək. Belə ki, Qarabağ münaqişəsinin həllində Özbəkistan Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləib, beynəlxalq təşkilatlar, ikitərəfli və çoxtərəfli görüşlər çərçivəsində dövlətimizin ərazi bütövlüyü ilə bağlı mövqeyini qətiyyətlə müdafiə edib. Vətən müharibəsindən sonrakı dönəmdə isə qardaş ölkə işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən quruculuq işlərində fəallıq göstərib. Füzuli rayonunda bu ölkənin vəsaiti hesabına məktəb tikilib.

# "Odlar yurdu" 19 ölkəyə neft ixrac edir



**(əvvəli 1-ci səhifədə)**

Bildirilib ki, ötən 7 ayda ölkəmizdən İtaliyaya 4,2 milyard ABŞ dolları dəyərində 8,4 milyon ton neft ixrac edilib. Bununla da İtaliya, əvvəlki dövrlərdə olduğu kimi, Azərbaycanın ümumi neft ixracında yenə də birinci olub. Siyahıda ilk üçlüyü isə Çexiya və Xorvatiya tamamlayıb. Belə ki, hesabat dövründə bu ölkələrə müvafiq olaraq 547 milyon 91 min dollar dəyərində 1 milyon 27 min 599,5 ton və 450 milyon 838 min dollar dəyərində 827 min 708 ton neft ixrac olunub.

Bu ilin yanvar-iyul aylarında Azərbaycanın xam neft və neft məhsulları satdığı digər 16 ölkə isə Portuqaliya, Rumıniya, Almaniya, Böyük Britaniya, İrlandiya, Yunanıstan, Niderland, Tailand, İndoneziya, Tunis, İsveçrə, Danimarka, Bolqarıstan, Avstriya, Fransa və Türkiyə olub. Yeri gəlmişkən, Fransa bu il ilk dəfə olaraq ölkəmizdən neft alıb. Ötən ay bu ölkəyə ümumi dəyəri 41 milyon 317 min dollar olan 81 min 702 ton xam neft satılıb.

Bu ilin ötən 7 ayının nəticələrinə əsasən, Azərbaycanın ixrac etdiyi xam neftin 1 tonunun orta qiyməti 900 manat təşkil edib. Bu isə 2024-cü ilin eyni dövrünə nisbətən 167 manat və ya 15,7 faiz ucuzlaşma deməkdir. Azərbaycan nefti hesabat dövrünün nəticələrinə görə ən baha qiymətə bir ton üçün 608 dollara (təxminən 1034 manat) Bolqarıstana və 600 dollara (təxminən 1021 manat) İsveçrəyə satılıb. Yanvar-iyul aylarında xam neftin ən ucuz qiymətə satıldığı ölkə isə Böyük Britaniyaya olub. Hesabat dövründə bu ölkəyə xam neftin tonu 463 dollara (təxminən 787 manat) ixrac olunub.

# SES-lərdə enerji istehsalı 13 faiz artıb



**Azərbaycanın müəyyən etdiyi inkişaf strategiyası çərçivəsində respublikamızda "yaşıl" enerji sektoruna böyük diqqət yetirir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurun "yaşıl" enerji zonası elan olunması, Xəzər dənizinin külək enerjisi potensialının beynəlxalq konsorsiumlarla birgə inkişaf etdirilməsi, eləcə də bərpa olunan enerji sahəsində hüquqi və texniki bazanın gücləndirilməsi ölkəmizin bu istiqamətdə sistemli və ardıcıl fəaliyyətini göstərir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu sahədə reallaşdırılan layihələrin nəticəsidir ki, cari ilin 8 ayında ayında ölkəmizin su elektrik stansiyalarında 2,1 milyard kVt-saat (ötən ilin eyni dövrü ilə müqayisədə 231 milyon kVt-saat və ya 13 faiz çox) elektrik enerjisi istehsal edilib. Ötən ilin eyni dövründə isə bu göstərici 1,8 milyard kVt-saat olub.

Azərbaycanda elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2025-ci ilin yanvar – iyul aylarında 1995,4 milyon manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib.

Hesabat dövründə respublikanın külək elektrik stansiyalarında isə 27,5 milyon kVt-saat (ötən ilin eyni dövrü ilə müqayisədə 6,3 milyon kVt-saat və ya 18,6 az) elektrik enerjisi istehsal edilib. Eyni zamanda, bu müddətdə ölkədə günəş elektrik stansiyalarında 334,2 milyon kVt-saat (ötən ilin müvafiq dövrünün göstərici ilə müqayisədə 38,7 milyon kVt-saat və yaxud 13,1faiz çox) elektrik enerjisi istehsal olunub.

# "Azərişıq"da peşə ustalığı turları

**"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin 10-cu ildönümünə həsr olunmuş silsilə tədbirlərə start verilib. "Paylayıcı şəbəkələrin energetikləri arasında keçirilən ümumrespublika peşə ustalığı yarışları"nın regional turu da bu sıradandır.**

Quba Elektrik Şəbəkəsində (EŞ) keçirilən açılış mərasimində öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. "Azərişıq" ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin direktoru Araz Məmmədzadə çıxış edərək komandalara uğurlar arzulayıb. Qeyd olunub ki, yarışların keçirilməsində məqsəd energetiklərin müasir innovasiyalar və texnologiyalar, əməyin mühafizəsi, texniki təhlükəsizlik qaydaları barədə bilik, bacarıqlarını inkişaf etdirməkdir. Bununla yanaşı, yarış iştirakçıları ümummilli lider Heydər Əliyevin Azərbaycanın elektroenergetika sisteminin qurulmasında və inkişafında xidmətləri, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə son 10 ildə ölkəmizin enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan islahatlar, eləcə də "Azərişıq" ASC tərəfindən ötən 5 ildə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən irimiqyaslı layihələr barədə geniş məlumatlar əldə edəcəklər.

Rəsmi hissədən sonra birinci mərhələyə start verilib. İntelektual yarışda



Xaçmaz Regional Enerji Təchizatı və Satışı İdarəsi üzrə 5 komanda – "Xaçmaz EŞ", "Şabran EŞ", "Quba EŞ", "Qusar EŞ" və "Siyəzən EŞ" nəzəri biliklərini sınayıblar. Onlar 1 saat müddətində 55 sualı cavablandırmağa çalışıblar.

Yarışların ikinci mərhələsində isə energetiklər 3 tapşırıq üzrə peşə bacarıqlarını əyani şəkildə nümayiş etdiriblər. Komandaların hər iki mərhələdə əldə etdiyi xalların nəticələrinə əsasən Xaçmaz Regional Enerji Təchizatı və Satışı İdarəsi üzrə keçirilən regional turun qalibi "Siyəzən EŞ" olub. Beləliklə, komanda "Paylayıcı şəbəkələrin energetikləri arasında keçirilən ümumrespublika peşə ustalığı yarışları"nın Hadrutda təşkil olunacaq final mərhələsində iştirak edəcək.

Qeyd edək ki, "Azərişıq" ASC ölkənin bütün regionlarında maarifləndirici tədbirlər, yarışlar həyata keçirir. Səhmdar cəmiyyətin əməkdaşlarının peşə bilik və bacarıqlarının artırılması, təhlükəsizlik qaydalarına əməl olunması və insan həyatının mühafizəsi məqsədilə belə tədbirlər gələcəkdə də davam etdiriləcək.

# Özəlləşdirmə və icarə büdcəyə 113 milyon manat qazandırıb



**Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına əsasən, qurum tərəfindən 2025-ci ilin yanvar – iyul ayları ərzində özəlləşdirmə və icarədən dövlət büdcəsinə 113 milyon manat ödənilib.**

Hesabat dövründə 26 hərrac keçirilib. Hərraclarda 4 səhmdar cəmiyyətinin səhm paketi, 1 kiçik dövlət müəssisəsi, 500 nəqliyyat vasitəsi özəlləşdirilib. Özəlləşdirmədən dövlət büdcəsinə 86 milyon manat daxil olub.

Xidməti tərəfindən yanvar-iyul aylarında, eyni zamanda, 406-sı qeyri-yaşayış, 2068-i torpaq sahələri üzrə olmaqla 2474 yeni icarə müqaviləsi bağlanılıb. Daşınmaz dövlət əmlakının (qeyri – yaşayış və torpaq sahələrinin) icarəsindən dövlət büdcəsinə 27 milyon manat vəsaitin ödənilməsi təmin edilib. Beləliklə, 2025-ci ilin yanvar-iyul aylarında dövlət əmlakının özəlləşdirilməsindən və icarəsindən büdcəyə, ümumilikdə, 113 milyon manat vəsait daxil olub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Qəhrəmanlıq zirvəsində əbədiyyət

**Ömür var, min ömrə dəyər. Sadəcə yaşanmaz – yazılar, danışılar, anılarla yaddaşlara hopar. Şəhid Fərhad Məlikzadənin həyatı da məhz belə ömürlərdəndir – Vətən sevgisi ilə döyünən bir qəlbin tarixə yazılmış fədakarlıq hekayəsidir.**



Fərhad Nadir oğlu Məlikzadə 20 avqust 1997-ci ildə Sabirabad rayonunun Şıx Salahlı kəndində dünyaya göz açdı. Şəxsiyyəti ailə dəyərləri ilə formalaşdı, torpaq sevgisinə bağlandı və bunlar ona Vətən ruhu aşıladı. Sakit təbiətli, zəhmətsevər və idmana maraqlı bir gənc kimi tanındı. Cüdo, güləş və qaydasız döyüş idman növlərindəki uğurları onun həm fiziki, həm də mənəvi cəhətdən mübarizə əzmini formalaşdırdı.

Müddətli həqiqi hərbi xidmət zamanı göstərdiyi nümunə, məsuliyyət hissi və hərbi bacarıqları ilə seçilən Fərhad 2018-ci ildə müddətdən artıq hərbi xidmətçi olmaq üçün ordu sıralarına qayıtdı. Qısa zamanda kəşfiyyat təlimlərini müvəffəqiyyətlə başa vurdu və ön cəbhələrdə fəaliyyət göstərməyə başladı.

Onun hərbi həyatı səssiz, ancaq dərin izlər buraxan qəhrəmanlıqlarla dolu idi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsinə başlayanda Fərhad Məlikzadə vətənpərvərlik amalına sadiq bir döyüşçü kimi cəbhəyə yollandı. İlk gündən ən qızğın döyüşlərin mərkəzində yer aldı: Füzuli, Cəbrayıl rayonlarının azadlığı uğrunda canı bahasına vuruşdu. Füzuli istiqamətində gedən döyüşlərdə düşmənin hücumunu dəf edərkən ağır yaralandı, hospitala yerləşdirildi. Qısa müalicədən sonra yenidən döyüş meydanına dönməkdə israr etdi: “Mən orda olmalıyam!” – deyərək geri döndü.

Fərhadın ömür və döyüş yolu Şuşada başa çatdı. 2020-ci il 5 noyabr tarixində Şuşanın azadlığına cəmi 3 gün qalmış verilən mühüm döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid oldu. Düşmən gülləsinə sinəsini sipər edən, torpaq uğrunda son damla qanına qədər döyüşən bir igid kimi tarixə düşdü. 12 noyabrda doğma Şıx Salahlı kəndində torpağa tapşırılmaqla həm də millətin yaddaşında özünə əbədi məkan tapdı.

Şəhid Fərhad Məlikzadənin göstərdiyi şücaət, rəşadət və vətənpərvərlik Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə o, ölümündən sonra “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda”, Füzulinin, Cəbrayılın və Şuşanın azad olunmasına görə medalları ilə təltif olunub. Bu mükafatlar Fərhadın sadəcə silahla deyil, ürəyi ilə – Vətənə sevgisi, düşmənə nifrəti ilə döyüşdüyünü təsdiqləyən dövlət möhürüdür.

Fərhad Məlikzadə bir ailənin oğlu kimi doğuldu, amma bir xalqın övladı kimi şəhid oldu. Onun həyat yolu – sadə bir kənd uşağının qəhrəmanlığa yüksəlməsi – bütün Azərbaycan gənclərinə örnəkdir. O, ailəsinə, Vətəninə və dövlətinə olan müqəddəs borcunu canı bahasına ödədi. Bu gün azad nəfəs alan Füzuli, Cəbrayıl, Şuşanın başı üstündə Fərhad kimi oğulların ölməz ruhu dolaşır. Şəhidlər ölmürlər. Onlar Vətənin hər daşı, hər ağacı, hər nəfəsində yaşayırlar. Onun və digər şəhidlərimizin örnək ömrü bizə təkcə qürur yox, həm də məsuliyyət verir – bu azadlığı yaşatmaq, əbədi etmək məsuliyyəti!

*Bəhruz MƏMMƏDZADƏ,*
*Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyinin sədri, Mətbuat Şurası İdarə Heyətinin üzvü*

# Tovuzlu şəhidin ad günü

**Qürur mənbəyimizə çevrilən şəhidlərimizdən biri də 30 yaşında şəhadətə ucalmış əsgər Emin Hüseynovdur. Sağ olsaydı, çox güman ki, elə bu axşam ailəsi, dostları ilə birlikdə 35 yaşını qeyd edəcək, haqqında söylənən xoş sözləri eşidəcəkdi.**



Emin Fərmayıl oğlu Hüseynov 1990-cı il avqustun 20-də Tovuz rayonunun Yanıqlı kəndində anadan olub. Vətən sevgisi, doğma yurdun keşiyində durmaq arzusu onu Azərbaycan Ordusu sıralarında hərbi xidmətə sövq edib. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olan Emin 2020-ci ilin məlum Tovuz döyüşlərindən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb. Emin Vətən müharibəsi zamanı Murovdağın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə hünər göstərib. Murovdağ döyüşləri zamanı yaralanmasına baxmayaraq, yenidən döyüş meydanına qayıdıb.

Quru Qoşunlarında xidmət edən qumbaraatan əsgər Emin Hüseynov Ermənistan Ordusunun canlı qüvvəsinin və texnikasının məhv edilməsində dəfələrlə fərqlənib. Noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub. Ailəsi ilə axırıncı dəfə noyabrın 7-də telefon danışığı olan Emindən sonra 10 gün xəbər gəlməyib. Sən demə, həyatını canından çox sevdiyi Vətənə qurban veribmiş. Bu barədə məlumat noyabrın 18-də dəqiqləşib və ailəsinə bildirilib.

Hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə “Vətən uğrunda” və “Hərbi xidmətlərə görə”, həmçinin torpaqlarımızın azadlığı uğrunda aparılan döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiynə görə “Kəlbəcərin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

Tovuzun igid oğlunun şəhadətindən bir neçə ay sonra oğul övladı dünyaya gəlib. Mərkəzi xəstəxanaya gələn rayon icra hakimiyyəti və ictimaiyyət nümayəndələri şəhidin həyat yoldaşını və övladını xəstəxanadan evə qədər müşayiət ediblər ki, Eminin ruhu şad olsun. Qeyd olunub ki, şəhidlərimizin xatirəsi həmişə uca tutulduğu kimi, onların ailələri, övladları da hərtərəfli dövlət qayğısı ilə əhatə olunurlar.

Ad günüdür. Yenə də Tovuz Rayon Şəhid Ailələri Birliyinin üzvləri kəndə gedərək qohum-əqrəbası ilə birlikdə onun məzarını ziyarət edəcək, ruhuna dualar oxuyacaqlar. Bu duaların ünvanına həmən çatacağına əminik.

# Zəfər tariximizin öyünc dərsləri

**Bu sərlövhə altında oxuculara iki tarix müəllimini təqdim etmək istəyirik. Biri yazıçı-publisist Aydın Tağıyevin hekayəsinin bədii qəhrəmanıdır, digəri isə İkinci Qarabağ müharibəsinin odundan, alovundan keçmiş şair – ixtisasca tarix müəllimi olan Emin Piri. Əgər Aydın Tağıyev bədii təxəyyülünün məhsulunu ortaya qoyubsa, Emin Piri özünün müharibədə bilavasitə yaşadıqlarını qələmə alıb.**

## Hekayə

## “Dəmir yumruq” yürüşü



Müəllim növbəti tarix dərsində şövqlə danışırdı.

– Hə, uşaqlar, belə bir ibrətamiz tarixi hadisə də var ki, bəs neçə müddətdən bəri iki qoşun döyüş meydanında üz-üzə durub vuruşsa da, bir-birinə güc gələ bilmirdilər.

Axşam düşmüşdü. Döyüş dayandırılmışdı. Hər iki tərəfin döyüşçüləri dincəlirdi. Həlledici döyüş səhər olacaqdı.

Payız girdiyindən havalar da tez soyumuşdu. Qoşun başçısı tonqal qalamağı əmr etdi. Bir az keçmiş tonqalın alovu qaranlığı şimşək kimi yardı, alov az qala göyə qalxırdı. Bütün günü qılınc çalmış, qalxan tutmuş yorğun-arğın döyüşçülər bir-birlərinə söykənib dövrə vuraraq tonqalın ətrafında yığışıb qızınırdılar.

Sərkərdə də çadırından çıxıb öz döyüşçüləri ilə bir yerdə oturmuşdu...

Düşmən tərəfin düşərgə saldığı tərəfdən səma işıqlandı. Onlar da tonqal qalamışdılar. Sərkərdə diqqətlə xeyri aralıda olan düşmən tərəfə baxıb birdən sevinclə bağırdı:

– Sevinin, döyüşçülərim! Biz sabah onlara qalib gələcəyik! Özünüz görəcəksiniz...

Doğurdan da, ertəsi gün sərkərdənin dediyi kimi oldu.

Döyüşçülər öz qələbələrini bayram etdilər. Sərkərdə qürurla döyüşçülərin arasında gəzib onları təriflədi, sonra isə axşamkı uzaqgörənliyinin səbəbini açdı:

– Dünən onlar üç yerdə tonqal qalamışdılar, – dedi, – elə onda başa düşdüm ki, onlar parçalanıblar... Aralarında birlik yoxdur...

Müəllim sözünü tamamladı. Qürur və əzəmətli bir səslə: – Xalqımızın qeyrətli, igid oğuları da 44 günlük Vətən müharibəsində dəmir bir yumruğa çevrildilər, – deyə əlavə elədi. – Sonra da bir tonqal başında toplaşıb öz Qələbələrini təntənə ilə qeyd etdilər.

*Aydın TAĞIYEV*

## Tarix yazan tarix müəllimi



Müharibəyə gedəndə qəribə təlatüm vardı içimdə. Düzünü desəm, həm özüm, həm də ölkəmlə bağlı qəribə narahatlıq keçirirdim. Savaşın gözlədiyimizin əksinə getməsi, torpaqların azadlığı ilə bitməməsi hamımız üçün fəlakət olardı, düşünürdüm. Özüm üçünsə ən qorxduğum əsir düşmək olub.

İlk dəfə Füzulinin kəndlərində olanda izahı müşkül hisslər yaşamışam. Sanki bir vakuumda idim. Nə tam doluluq idi, nə boşluq. Bilmirəm, nə hissi idi. Onu bilirəm ki, belə vakuuma ilk dəfə düşmüşdüm.

Təsir edən məqamlar çox olub. Yanındakıların şəhid olması, əzalarını itirməsi və s. Bilmirdin, sağ qaldığına üzüləsən, ya şəhid olanlara, əzalarını itirənlərə üzüləsən.

Xocalıda olandasa mənəvi baxımdan çökmüşdüm, həm də qürur duymuşdum. Xocalının təbiəti möhtəşəmdir! Mənə hələ də çatmır ki, belə bir cənnətdə, belə gözəl təbiətdə necə qətliam törətmək olar?! Duyğular necə deformasiyaya uğraya ki, belə iş tutasan?

Yaralıları düşmən qabağından çıxardırdıq Kürdlər kəndi ətrafında. Top, mərmi atəşinə tutdular bizi. Mərminin dalğası məni qırağa tulladı. Əllərim, üstüm qan idi. Fikirləşdim, yəqin, isti-isti hiss etmirəm, yaralanmışam. Gördüm, yox, salamatam. Sən demə mənim yox, yaralılarımızın qanıymış...

Baxmayaraq, Ağdamda cəbhə xidmətim olmuşdu, ancaq tarix müəllimi kimi məğlubiyyəti qəbul edə bilmirdim. Məsələn, hansısa şagirdin sualı.

Çətin deyildi cavab vermək, yenə də utanırdım.

İmkan tapıb, bacım uşaqları ilə bir dəfə danışdım. Mənə dedilər, gələndə qar gətir.

Uşaqlar elə bilir, bu dava qar üstündə, qartopu üstündədir. Kaş, elə olaydı. Xocalının kəndlərində olanda isə... bacım uşaqlarının qar istəməsi, uşaq qətliamı... – bütün bunları həzm etmək olmurdu. Mən onlara Qarabağa elə qar gətirməkçün getdiyimi demişdim...

İki dəfə çox kövrəldiyim an olub. Bir dəfə şəhid anası qan puluna ərzaq alıb ön xəttə göndərmişdi. Əsgərlər hamısı ağlamışdı... Hamımız kövrəlmişdik.

Bir də şeirlərimin haqqını vermək lazım idi. Baxmayaraq ki, o şeirlər Ağdam səngərində yazılmışdı, mənə çox uğurlar qazandırmışdı.

Ancaq müharibə şeirlərinin şairi kimi tanınıb, müharibədə olmamaq şeirlərimə xəyanət olardı.

Müəllim, jurnalist, şair... – mən sıravi Azərbaycan vətəndaşı kimi daha çox qürur duyuram…

*Emin PİRİ*



# “Murov aslanı”

**Şair Ədalət Salmanın “Murovun aslanı” poeması Vətən Müharibəsi Qəhrəmanı, igidliyi ilə “Canavar” adını qazanmış şəhid kapitan Rəşad Abdullayevin əziz xatirəsinə həsr olunub. Həmin poema kitab halında nəşr edilib. Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, polkovnik Cəlil Xəlilov əsərə “Ön söz” yazıb. Onun bəzi qeydlərini oxuculara təqdim edirik:**

Prezident təqaüdçüsü, AYB və AJB-nin üzvü, Cəlilabad Rayon Veteranlar Təşkilatının sədri Ədalət Salmanın Vətən Müharibəsi Qəhrəmanı, kapitan Rəşad Abdullayevin əziz xatirəsinə həsr etdiyi “Murovun aslanı” poeması müasir Azərbaycan ədəbiyyatında yeni hadisə, müsbət və maraqlı tendensiyadır. Poema 44 günlük Vətən müharibəsindən, bu müharibədə iştirak edən qəhrəman zabitdən bəhs etsə də, əsərdə cəsur kapitanın simasında bütün Azərbaycan Ordusunun qəhrəmanlığına şahid olur, onların Vətən uğrunda necə böyük məhəbbət, necə sonsuz cəsarətlə döyüşdüyünü müşahidə edirik.

**Əks-hücum əmri verdi**
**Ali Baş Komandanım.**
**Şığıdı düşmən üstə**
**Neçə min qəhrəmanım…**




Ədalət Salmanın “Murovun aslanı” poemasını oxucu üçün əhəmiyyətli edən digər bir amil isə müəllifin atalar və oğullar, babalar və nəvələr arasındakı mənəvi birlik faktına toxunması, gənc nəslin əcdadlarının qəhrəmanlıq ənənəsini uğurla davam etdirməsinə diqqət çəkməsidir. Hansı ki, poemanın əvvəlində bu nüans konkret misralarla dəqiq və poetik bir dildə təsvir edilir. Müəllif kapitan Rəşad Abdullayevin babasının da vaxtilə faşizmə qarşı döyüşdüyünü xatırladır, nəvəsinin babasının qəhrəmanlığından, onunla bağlı ailə üzvlərinin danışdığı xatirələrdən necə təsirləndiyini təsirli bir dillə oxuculara çatdırır:

**Görüb qoçaqlığını**
**Baban şəstlə deyərdi:**
**– O, general olacaq!**
**Rəşad kimi oğullar**
**Yad əldə əsir qalan**
**Qarabağı alacaq!**

“Murovun aslanı” poeması kapitan Rəşad Abdullayevin şəhid olması və 44 günlük Vətən müharibəsinin məntiqi sonluğuna uyğun olaraq Azərbaycan Ordusunun düşmən üzərindəki tarixi qələbəsi ilə başa çatır. Müəllif əsərdə Rəşad Abdullayevin doğma Vətənin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmasını ağrı ilə dilə gətirsə də, bütövlükdə, poema bədbin əhval-ruhiyyə ilə yekunlaşmır. Əksinə, poemanın sonunda da xalqımızın və dövlətimizin gələcəyinə olan böyük inam öz əksini tapır. Müəllif Azərbaycanın tarixi-strateji şəhəri olan Şuşanın erməni faşizmindən azad edilməsini xüsusi olaraq vurğulayır və Şuşada zəfər marşının çalınmasını böyük qələbənin tarixi akkordları kimi təqdim edir:

**Rahat uyu, şəhidim,**
**Qisasınız alındı.**
**Gözün aydın, Şuşada**
**Zəfər marşı çalındı.**

**Qeyd:** Abdullayev Rəşad Arif oğlu 14 sentyabr 1988-ci ildə Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olmuşdur. Göytəpə şəhər 1 saylı məktəbdə və Cəmşid Naxçıvanski adına Hərbi Liseydə oxumuş, sonra isə Heydər Əliyev adına Ali Hərbi Məktəbi “Motoatıcı” ixtisası üzrə bitirmişdir. 2012-ci ildə XTQ kursunu bitirdikdən sonra isə N saylı hərbi hissədə xüsusi təyinatlı qrupun komandir müavini vəzifəsinə təyin olunmuşdur. Məlum Aprel döyüşlərində fəal iştirak etmişdir. Vətən müharibəsində isə Ağdərədə, Kəlbəcərdə düşməni lərzəyə gətirən neçə-neçə əməliyyatda iştirak etmişdir.

Qəhrəman şəhidin ən böyük arzusu Qarabağı alarkən şəhidlik zirvəsinə yüksəlmək idi. Sentyabrın 28-də Murov istiqamətində aparılan əməliyyatda misilsiz şücaət göstərmiş, ağır yaralanmış, ertəsi gün haqqa qovuşaraq arzusuna çatmışdır. “Murovun aslanı” poemasında bütün bunlar barədə duyğulu bir dillə söhbət açılır.

# Şəhidliyin ölməzlik nəğməsi

*İsmayıl Mərcanlı İMANZADƏ*



**Tanrı dəhgahınadır, Şəhidim, son səfərin,**
**Yadlara göz dağıdır, qazandığın Zəfərin.**
**Hamı sənə ürəkdən deyir, Əhsən, Afərin!**
**Vətən-yurd sevgisidir halal qazancın-varın –**
**Əbədi yolçususan nur saçan sabahların!**

**Gur səsinlə “Qarabağ-Azərbaycandır!”-dedin,**
**Torpağım, dağım-daşım ürəkdir-candır-dedin!**
**Şəhid ya Qazi olmaq, şərəfdir-şandır-dedin!**
**Nəqş elədin imzanı torpağa al qanınla –**
**Tanındın hər tərəfdə isminlə, ünvanınla!**

**Uğrunda can verdiyin bu ana torpaq sənin,**
**Döyüş günü səsini əks etdirən dağ sənin.**
**Bayraqdarı olduğun üçrəngli bayraq sənin,**
**Şəhid ucalığında vətən daşına döndün –**
**Azadlıq nəğməsinə, Zəfər marşına döndün!**

**Ünyetməyən məkana qalxıb ölümsüz oldun,**
**Andında, peymanında, ilqarında düz oldun.**
**Qarı düşmən önündə hər an yenilməz oldun,**
**Məzarın and yeridir, adın hər qəlbdə naxış –**
**Şəhidim, əhsən sənə, hünərinə min alqış!**

*Səhifəni hazırladı: Əli NƏCƏFXANLI*
*XQ*

# Azərbaycan Beynəlxalq Xalq Yaradıcılığı Festivalında

**Artıq 3 gündür ki, Macarıstanın paytaxtı Budapeştdə 39-cu ənənəvi Beynəlxalq Xalq Yaradıcılığı Festivalı keçirilir.**



Bayramı Macar Xalq Sənətçiləri Assosiasiyası təşkil edib. Bu, qardaş ölkənin ən böyük mədəniyyət bayramlarından biridir və hər il olduğu kimi, bu dəfə də Buda Qəsrinin ərazisində, xüsusilə "Tanzics Mihaly" küçəsi, "Zemzaronsaq" meydanı və parkında Marqaret Terrasında, Tos Arpad xiyabanında keçirilir. Həmçinin bugünlərdə macarlar ölkənin Milli Günü – Müqəddəs İştvan Gününü qeyd etməyə hazırlaşırlar. Avqustun 20-nə təsadüf edən milli bayram vaxtı ölkəyə çoxlu sayda turist gəlir.

Festivalda Türk dünyasının – Macarıstan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Azərbaycanın, həmçinin Cənubi Koreya və Polşanın məşhur sənətçiləri iştirak edirlər. Bayramın builki fəxri qonaq ölkəsi Azərbaycandır. Festivala 800-dən çox sənətkar qatılıb və onlar əyani təcrübə mübadiləsi aparırlar.

Azərbaycana aid milli pavilyonun stendlərində xalq sənətinin müxtəlif nümunələri – xalçaçılıq, vəloqçuluq (yun, keçə sənəti), tikmə və nadir naxış sənəti, təkəlduz, kəlağayı və xətəmkarlıq (mikro mozaika ilə birlikdə nümunələr) təqdim edilir.

Milli xalçalarımıza maraq xüsusilə böyükdür. Azərbaycan Milli Xalça Muzeyinin sərgilədiyi ecazkar nümunələrlə tanış olan mütəxəssislər heyranlıqlarını gizlətmirlər. Onlar xalçalarımızı sadəcə naxış kimi deyil, yaradıcılıq irsi və ilkinlik nişanələri, nəsildən-nəslə ötürülən ailə ənənələrinin davamı kimi dəyərləndirirlər. Onlardan biri, sənətsevər Veys Tamas deyib: "Mən Bakıya dəfələrlə səfər etmişəm, muzeylərdə xalçalarınızla tanış olmuşdum. Azərbaycanşünas Mariya Keneşeinin "Azərbaycan – Macar danışıq kitabçası"na da sevə-sevə baxıram. İndi nümayiş etdirilən nümunələrdən yenə hədsiz zövq aldım. Bu xalçalar öz rəngləri, ilmələri ilə adama sanki nağıl danışır".

Ustad dərslərinin keçirildiyi, canlı sənət nümunələrinin nümayiş olunduğu, milli musiqi və rəqs proqramlarının təqdim edildiyi bayrama 100 min ziyarətçi gəlib. Günlər rəngarəng konsertlər, xalq rəqsləri şousu və uşaq proqramları ilə davam edir.

Festivalda qədim sənətlər beşiyi Azərbaycana olan xüsusi münasibət mədəni əlaqələrin dərinliyindən soraq verir və bu bayram xalqlarımızın zəngin irsini beynəlxalq miqyasda tanıtmaq baxımından mühüm əhəmiyyət daşıyır.

***Ə.ƏLİYEV***
***XQ***

# Ədəbiyyatdan əbədiyyətə köçən Turan sevdalı şair

**Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Türk dünyasının sevimli şairi, professor Məmməd İsmayıl ömrünün 86-cı ilində uzun sürən xəstəlikdən sonra əbədiyyətə qovuşub. Ömrünün 70 ildən çoxunu ədəbi yaradıcılığa, media və pedaqoji sahələrdə səmərəli fəaliyyətə həsr etmiş istedadlı şair, publisist və ədəbiyyatşünasın zəngin irsi təkcə ölkəmizdə deyil, Türk dünyasında da yüksək dəyər qazanaraq soydaşımızı şöhrətləndirib.**



Məmməd Mürşüd oğlu İsmayılov 1939-cu ildə Tovuz rayonunun Əsrik-Cırdaxan kəndində dünyaya göz açıb. 1957-ci ildə doğma kəndindəki orta məktəbi, 1964-cü ildə Azərbaycan Dövlət Universitetini, 1975-ci ildə Moskvada SSRİ Yazıçılar İttifaqının Ali Ədəbiyyat kursunu bitirib. 1998-ci ildə filologiya elmləri namizədi elmi dərəcəsi, 2013-cü ildə Türkiyənin Çanaqqala 18 Mart Universitetinin professoru fəxri adı alıb.

Ədəbi yaradıcılığı jurnalist fəaliyyəti ilə yanaşı davam etdirən Məmməd İsmayıl 1966–1973-cü illərdə Azərbaycan Dövlət Televiziyasında redaktor, böyük redaktor, baş redaktor, 1975-ci ildən "Ədəbiyyat və incəsənət" qəzetində müxbir, 1976-ci ildən "Azərbaycanfilm" studiyası sənədli filmlər birliyində baş redaktor, 1980-ci ildən "Yazıçı" nəşriyyatında şöbə müdiri və baş redaktorun müavini, 1983-cü ildən "İşıq" nəşriyyatının direktoru və Azərbaycan gənclər təşkilatı "Gənclik ədəbi birliyi"nin rəhbəri, 1988-ci ildən "Gənclik-Molodost" jurnallarının baş redaktoru, 1992–1993-cü illərdə "Azərbaycan Televiziya və Radio Verilişləri" şirkəti idarə heyətinin sədri vəzifələrində çalışıb.

Sonrakı illərdə ədəbi və elmi-pedaqoji fəaliyyətini qardaş Türkiyədə davam etdirən Məmməd İsmayıl 1995–1996-cı illərdə TİKA və Türk Dil Qurumunun birgə lüğət layihəsində ekspert olub. O, 1996-cı ildən son illərədək Çanaqqala 18 Mart Universitetində dərs deyib, bu ali məktəbin professoru olub.

Bədii yaradıcılıqla 14 yaşından məşğul olan şair böyük ədəbiyyata milli varlığı və peşəkarlığı önə çəkmiş 60-cı illər əbədi gəncliyinin istedadlı nümayəndəsi kimi daxil olub. Vətənpərvərliyi, insanın mənəvi gözəlliyini, milli və bəşəri dəyərləri tərənnüm edən, poetik özünüifadənin imkanlarını genişləndirən şair kimi tanınan Məmməd İsmayıl minlərlə şeirin, çoxsaylı poemanın, silsilə elmi-publisistik yazının müəllifi idi. Ölkəmizdə və xaricdə 70-dək kitabı nəşr olunub.

Milli ədəbiyyatımızın inkişafına dəyərli töhfələr vermiş Məmməd İsmayıl 1970-ci ildən Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü idi. O, qazandığı ədəbi və ictimai nüfuzu ilə Azərbaycan Yazıçılar Birliyinin katibi seçilib və dəfələrlə idarə heyətinin üzvü olub. Avrasya Yazarlar Birliyinin qurucularından olmuş Məmməd İsmayıl Moskvada çap olunan "Literaturnıe znakomstvo" jurnalının redaksiya heyətinin üzvü və Türkiyə təmsilcisi, Beynəlxalq Sənətçilər və Qəzetçilər Birliyinin Türkiyə təmsilcisi, Brüsseldə yerləşən Bogdani Beynəlxalq Yazarlar Birliyinin vitse-prezidenti, Fransa Elm, Sənət və Ədəbiyyat, Ukrayna Ali Təhsil akademiyalarının həqiqi üzvü idi.

Ukrayna Ali Təhsil Akademiyası türk və slavyan xalqları ədəbiyyatlarına verdiyi töhfələrə görə Azərbaycan şairinə fəxri doktor elmi dərəcəsi verib. Əsərləri 50-dən çox dünya xalqlarının dilinə tərcümə edilən şair müxtəlif ölkələrin ədəbi nümunələrini ana dilimizə çevirib. Məmməd İsmayılın həyat və yaradıcılığı haqqında Azərbaycanda və Türkiyədə dissertasiyalar, xarici ensiklopediyalarda məqalələr yazılıb.

Məmməd İsmayıl Respublika Komsomolunun ədəbi laureatı olub, Azərbaycan Jurnalistlərnin nüfuzlu "Qızıl qələm", keçmiş SSRİ-nin Ostrovski mükafatlarını alıb. 1997-ci ildə isə Türkiyə Yazarlar və Sənətçilər Vəqfinin Türk Dünyasına Xidmət mükafatı Azərbaycandan ilk dəfə Məmməd İsmayıla verilib. Digər xarici mükafarlara, təltiflərə və fəxri adlara da layiq görülüb.

Məmməd İsmayılın türklük məfkurəsi, Turan sevdası ilə aşılanmış zəngin yaradıcılığı ümumtürk ədəbi xəzinəsinin inciləri sırasında yer alıb. Onun parlaq xatirəsi Azərbaycan və türk xalqlarının xatirəsində daim yaşayacaq.

Allah rəhmət eləsin!

***Tahir AYDINOĞLU,***
***Əməkdar jurnalist***

*Elin söz boxçası*

# Gəncənin "lələ" həsrəti



**Hər şəhərin öz nəfəsi, öz danışıq melodiyası var. Gəncənin nəfəsi isə çox vaxt bircə sözün içində gizlənib - "lələ" xitabında. Bu müraciət təkcə çağırış deyildi, o, bir şəhərin ruhunu daşıyırdı. Onunla danışıq doğmalaşır, münasibət istiləşir, yadlıq aradan qalxırdı.**

Bir vaxtlar Gəncənin hər məhəlləsində, hər küçəsində bu söz səslənirdi. Qonşu qonşuya "ay lələ, bura gəl" deyir, bazarda satıcı alıcıya "lələ, götür, təzə maldı" söyləyirdi. Uşaqlar topun dalınca qaçanda bir-birinə "ötür, lələ" qışqırırdılar. Hər dəfə bu söz deyiləndə küçələrin səsi şirinləşirdi, danışığın içində sanki bir musiqi yaranırdı.

Məhəllədə uşaq ikən oyunun qızğın vaxtında qışqıran bir səs yadımda qalıb: – "Ay lələ, topu tut!". Top havadan yerə düşməmiş sanki hamının çöhrəsi gülürdü. Bu bircə kəlmə oyunun da, uşaqlığın da, dostluğun da dadını dəyişirdi.

"Lələ" sadəcə müraciət deyildi, o, könül qapılarını açan sehrli açar idi. Küskün adamı yumşaldır, yad adamı yaxınlaşdırırdı. Bu sözlə insan bir anda özünü doğma hiss edirdi. Çünki onun içində həm qədim türk nəfəsi vardı, həm də Gəncənin təmiz ruhu.

Bazar səhnələri də yadımdan çıxmır: satıcı əli ilə meyvələrə işarə edib deyirdi: "Lələ, al, bu gün dərmişəm". Alıcı da tərəddüdsüz gülümsəyib cavab verirdi: "Sağ ol ay lələ, yaxşı, bir az da çək". Bu cür sadə bir dialoq bazarda yadlığı yox, qardaşlığı, doğmalığı yaradırdı.

İndi bu söz az eşidilir. Küçələrin səsi dəyişib, çağırışların ruhu başqa olub, yerini yad ifadələr titub.

"Lələ" – Gəncənin öz ahəngidir. O ahəng ki, səmimiyyətin, dostluğun, sadəliyin səsi ilə birləşib. Hərdən insan darıxır, çünki bu bircə kəlmədə uşaqlığın oyunu, gəncliyin zarafatı, böyüklərin qayğısı, Gəncənin təmiz nəfəsi yaşayır.

Ona görə də, kiminsə dilindən təsadüfən "lələ" eşidəndə adamın ürəyi işıqla dolur. Sanki keçmiş qayıdır, sanki şəhərin daş küçələri yenidən danışmağa başlayır, çinarların yarpaqları da köhnə günlərin xatirəsinə pıçıldayır. O bircə səs yetir ki, uşaq gülüşləri, gənclik zarafatları, böyüklərin qayğıkeş söhbətləri yada düşsün. Yəni Gəncənin "lələsi" itməkdə olan bir söz yox, əbədi bir yaddaşdır.

"Lələ" sözü təkcə danışıqda deyil, Gəncə folklorunda da yaşayıb. Aşıqlar dastan söyləyərkən igid obrazlarını çox vaxt "lələ" deyə çağırırdılar: "İgid lələ, atını çap, meydana gəl!"

El şənliklərində isə gənclər bir-birini məhz bu sözlə səsləyirdi: "Lələ, sazı ötür, bu havanı da mən çalım". Belə müraciət sadəcə yaxınlıq yox, həm də hörmət, dostluq, yoldaşlıq rəmzi idi.

"Lələ" sözü türkdilli xalqların dilində çox qədimdən işlənib. Əvvəlcə bu söz "dayə", "tərbiyəçi", "böyük qardaş" mənasında işlənirdi. Orta əsrlərdə şahzadələrin müəllim və ya himayədarlarına da "lələ" deyilirdi. Məsələn, Səfəvilər dövründə Şah İsmayıl Xətainin məşhur tərbiyəçilərindən biri "Lələ Hüseyn bəy" idi.

Zaman keçdikcə sözün mənası genişləndi, sadə xalq dilində "yaxın dost", "qardaş", "sirdaş" mənasında işlənməyə başladı. Gəncədə isə bu müraciət o qədər şirin və doğma tələffüz olundu ki, şəhərin danışıq üslubunun ayrılmaz hissəsinə çevrildi.

Son illər gənclərin dilində yeni bir söz dolaşır – "Ağəli". Gülüş xatirinə deyilən bu müraciətin nə tarixi var, nə də mənası. O, təsadüfi uydurmadır. Halbuki "lələ" minillərin yaddaşından süzülüb gəlir, Gəncənin ruhunu daşıyır. "Lələ" doğmalıq gətirir, "Ağəli" isə boş səsdir. Gərək bizim yaddaşımızı yaşadan sözləri saxlayaq, uydurmaları, boş sözləri yox.

Əgər "lələ" unudularsa, Gəncənin səsi də bir az kasıblaşacaq. Çünki bu sözün içində sadəliyimiz, səmimiyyətimiz, doğmalığımız yaşayır. Biz danışığımıza bu kəlməni qaytarmasaq, şəhərimizin dilindəki nəğmələr də itəcək.

"Lələ" – itməkdə olan bir söz yox, əbədi bir yaddaşdır. Biz onu yaşatsaq, Gəncə yenə öz şirin ahəngi ilə nəfəs alacaq. Hər dəfə "lələ" deyiləndə şəhərin daş divarları da, çinarların kökləri də, insanların qəlbi də işıqlanacaq. Ona görə də bu sözü qorumaq, övladlarımıza ötürmək bizim borcumuzdur. Qoy sabah küçədə bir uşaq dostuna "lələ, gəl bura" desin, bazarda satıcı alıcıya "lələ, götür təzədi" söyləsin. Çünki "lələ"ni yaşatmaq Gəncənin öz ruhunu yaşatmaq deməkdir.

**Lələ deyən səsin vardı,**
**Küçələrdə nəfəs vardı,**
**Bir kəlmədə qardaşlıq,**
**Bir sözündə həvəs vardı.**

Kim yazıb, harda yazıb, necə yazıb, zəifdr, güclüdür, deyə bilmərəm. Amma o misrada "lələ" həsrəti varsa, demək o, güclü şeirdir. Çünki orada həyat var, sadəlik, şirinlik var, nəhayət, Gəncə var!

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

# Borçalılılar Göygöl yaylağının qonağıdır




**Xəbər verildiyi kimi, Azərbaycan xalqının zəngin tarixə və dərin mədəni köklərə malik yaylaq və elat həyat tərzini təbliğ etmək, milli-mənəvi dəyərləri yaşatmaq məqsədilə Göygöl rayonunun ecazkar təbiəti ilə seçilən Xan yaylağında IV Milli Yaylaq Festivalı keçirilib. Üç gün davam edən tədbir həm yerli sakinlərin, həm də ölkənin müxtəlif bölgələrindən və xarici ölkələrdən gələn qonaqların marağına səbəb olub.**

Festival elatların həyat tərzini əks etdirən çadırlar, milli geyimlərdə nümayişlər, zəngin əl işləri, milli musiqi və rəqs kollektivlərinin ifaları, aşıq sənəti nümunələri və folklor səhnəcikləri ilə zəngin olub. İştirakçılar həmçinin qədim Azərbaycan mətbəxinə aid yeməklərdən dadmaq imkanı qazanıblar.

Göygöl rayonu elat mədəniyyəti və dağlıq regionların sosial-iqtisadi inkişafı, turizm imkanları barədə seminar və müzakirələrə də ev sahibliyi edib.

Onu da qeyd edək ki, beynəlxalq səviyyədə maraq doğuran tədbirdə Gürcüstandan 18 nəfərlik nümayəndə heyəti də iştirak edib. Bu heyət "Alyans" Gənclər Mərkəzinin üzvləri, "Ceyran" rəqs ansamblı, Aşıq Nargilə və Aşıq Əfqan, müğənni Dito Kisişvili və "Şemoxmiandi" xor qrupundan ibarət olub. Onların çıxışları festival iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Borçalıların ifasında yaylaq mədəniyyətinin ayrılmaz hissəsi olan saz və söz sənəti bu tədbirdə öz orijinal ruhu ilə təqdim olunub. Gürcü xoru da bayrama xüsusi rəng qatıb.

"Alyans" Gənclər Mərkəzinin sədri Leyla Əmrahova çıxışında qeyd edib ki, Gürcüstandan gələn nümayəndə heyətinin festivala qatılması, yalnız qonaqlıq xarakteri daşımır, bu addım iki ölkənin ortaq mədəni dəyərlərinin yaşadılması və gələcəkdə birgə layihələrin formalaşması üçün möhkəm zəmin yaradır. "Gənclərimizin hazırladığı əl işlərinin sərgilənməsi, rəqslər, musiqilər və aşıq sənətinin təqdimatı bu əməkdaşlığın bir nümunəsidir".

Gürcüstanlı nümayəndələrin təqdim etdiyi çıxışlar, etnoqəsəbənin ziyarəti, sənətkarlıq guşələri və kənd təsərrüfatı sərgiləri kimi bölmələrdə fəal iştirakı, mədəni əlaqələrin xalqlar səviyyəsində nə qədər möhkəm təmələ söykəndiyini göstərib.

Tədbir çərçivəsində təşkil edilən səyyar "Sağlam həyat" layihəsi də iştirakçılar tərəfindən maraqla qarşılanıb. İdman həvəskarları, xüsusən də uşaqlar layihəyə qoşularaq əyləncəli vaxt keçiriblər.

***Ə.PÜNHAN***
***XQ***

# Bakı məktəblilərinin Aktau uğuru



**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Fikrət Əmirov adına Onbirillik İncəsənət Məktəbinin rəssamlıq şöbəsinin şagirdləri "Aktau 2025-Türk Dünyası Mədəniyyət Paytaxtı" çərçivəsində keçirilən "Türk dünyası ənənəvi uşaq oyunları" rəsm müsabiqəsində uğurla iştirak ediblər.**

Müsabiqədə məktəbin şagirdləri Fatimə Rəsulzadə 1-ci yerə, Məryəm Məmmədli 3-cü yerə layıq görülüblər. Onların müəllimi rəssam Elmar Ağamirzədir.

Müsabiqənin qalibləri TÜRKSOY-un Baş katibi Sultan Raev və Aktau şəhəri rəhbərliyi tərəfindən qiymətli hədiyyələr və diplomla mükafatlandırılıblar.

***XQ***

# “Mən hərb sənəti üçün doğulmuşam...”

*Müsahibimiz Azərbaycanın Milli Qəhrəmanı Nicad Bədəlovdur*

**O, Vətən müharibəsinin əfsanəvi qəhrəmanlarındandır. Ondan söz düşəndə, döyüş yoldaşları, adətən, çox səmimi şəkildə qəlblərindən dillərinə axan bu sözləri söyləməyi özlərinə borc bilirlər: “Nicad düşmən artilleriyasının belə dayandıra bilmədiyi komandirlərdəndir!..”**



Bəli, döyüşdə sinəsini qabağa verən, əsgərlərin önündə gedən igidlərdəndir. Ən ağır, həlledici döyüşlərdə qeyri-adi şücaətlər, qətiyyət və peşəkarlıq nümayiş etdirən cəngavərdir. Haqqında çox eşitmişdim, elə buna görə də qəzetimiz üçün ondan müsahibə almağa böyük həvəslə getmişdim. Məni səmimi qarşıladı. Vaxt itirmədən söhbətə başladıq.

**– Cənab komandir, xalqımız qarşıdakı həftələr ərzində düşmən üzərində Tarixi Zəfərimizin 5-ci ildönümünü qeyd edəcək. Bu münasibətlə qəzetimizin xüsusi layihəsi var: oxuculara vaxtaşırı Vətən Müharibəsi qəhrəmanlarının ömür və döyüş yollarından bəhs edən yazılar təqdim edirik. Budəfəki müsahibəmizin qəhrəmanı sizsiniz. Hərb meydanında öz sözünüzü demisiniz, bu dəfə sözün meydanındasınız...**

– Hiss edirəm ki, sözün meydanında məsuliyyət heç də döyüşlərdə olduğundan az deyil. Amma, gəlin, səmimi danışaq. Mən hərbçiyəm, çox danışmaqla da aram yoxdur, amma xalqımıza canım qurbandır, əziyyət çəkibsiniz, bizim hərbi hissəyə gəlmisiniz. Deyirsiniz ki, bu müsahibə oxucular üçün də maraqlı ola bilər, ona görə də bacardığım qədər suallarınıza cavab verəcəyəm. İcazənizlə, əvvəlcə, tərcümeyi-halımı danışım. Axı, jurnalistlər bu sualı çox tez-tez verirlər.

**– Buyurun, sizi böyük məmnuniyyətlə dinləməyə hazırıq...**

– Mən 1989-cu il dekabrın 12-də Qazax rayonunun Bala Çaylı kəndində hərbçi ailəsində doğulmuşam. Atam Mehman Bədəlov zabitdir, anam Gülnar Bədəlova isə müəllimədir.

Atam zabit peşəsinə qəlbən bağlı insandır. Mən onunla bütün ömrüm boyu fəxr etmişəm. Düşünürəm ki, onun bir hərbçi kimi ən yaxşı keyfiyyətləri irsən mənə də keçib.

Uşaqlıqdan hərbçi olmaq arzusunda idim. Orta məktəbi bitirəndən sonra Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının “N” saylı hərbi hissəsində xidmət etmişəm.

2000-ci ildə DİN Daxili Qoşunlarının Orta ixtisas hərbi məktəbinə daxil oldum və 2003-cü ildə təhsilimi başa vuraraq leytenant rütbəsi aldım.

**– Zabit kimi xidmətə necə və harada başladınız? İlk günlər çətin idimi?**

– Yox, elə bir çətinlik olmadı. Axı, mən qeyd etdim ki, hərbçi ailəsində doğulmuşam. Bu peşəni çox sevirəm. Bu, mənim həm peşəm, həm məsləkim, həm də idealımdır.

Bir az səbr edin, hamısını sizə nəql edəcəyəm. Zabit kimi hərbi xidmətə DİN Daxili Qoşunlarının Zaqatala rayonunda yerləşən “N” saylı hərbi hissəsinin xüsusi təyinatlı hərbi dəstəsinin qrup komandiri kimi başladım.

Ümumiyyətlə, xidmətimin çox hissəsini xüsusi təyinatlı hərbi hissələrdə keçirmişəm. 2014-cü ildə Türkiyənin Sparta şəhərində Dağ komandirləri məktəbində təşkil olunan kursda oxumuşam. Bundan sonra qardaş ölkədə 2 nüfuzlu hərbi məktəbdə təhsil almışam. 2016-2017-ci illərdə Türkiyə Jandarm Baş Komandanlığının Jandarm və Sahil Güvənlik Akademiyasında oxumuşam. 2023-cü ildə İstanbulda Milli Savunma (Müdafiə-müəllif) Universitetində təhsilimi başa vurmuşam.

Hər bir zabit üçün mükəmməl biliklər almaq son dərəcə vacibdir. Mən deyərdim ki, bu, həyati əhəmiyyət kəsb edir. Aldığım bilgilər, qatıldığım təlimlər, məşğələlər döyüş meydanında nəinki köməyim oldu, həm də qazandıqlarımı şəxsi heyətə də öyrətdim.

Fəxrlə deyə bilərəm ki, türk hərbi təhsil sistemi dünyanın ən yüksək təhsil sistemlərindən biridir. Orada bizi çox sevirlər. Hamının dilindən yalnız bu sözü eşidirdim: Can Azərbaycan! Hər dəfə də qəlbim qürur hissi ilə dolurdu. Bu gün də orada çoxlu dostlarım var.

**– Belə bir deyim var: Hərbçilər bir gün imtahan vermək üçün illərlə öyrənirlər, təlim keçirlər. Siz də bütün bu yolları keçmisiniz. Nəhayət, 2020-ci ilin 27 sentyabrında Azərbaycanın igid oğulları Vətən, torpaq naminə çətin imtahana girdilər...**

– Bəli, həmin təqvim hərb tariximizin yeni şanlı bir səhifəsinin yazıldığı gündür. Azərbaycan Ordusunun bir zabiti, komandiri kimi Ali Baş Komandanın əmrinə əsasən döyüş meydanına atıldıq. İlk döyüşə Kəlbəcər istiqamətindən başladıq. Ordumuzun şücaəti, döyüşkənliyi, ən başlıcası, mənəvi birliyimiz hamıda ilk gündən qələbəmizə sonsuz bir inam yaratmışdı. Hamı ürəklə, kişi qeyrəti ilə vuruşurdu. Bu sözləri xahiş edirəm, mütləq yazın: Bu xalq güclü və qeyrətli xalqdır! 44 günlük müharibə bu həqiqəti bütün dünyaya nümayiş etdirdi!

Şəxsi heyətin inanılmaz dərəcədə dözümlülüyü, qələbəyə əminlik hissi hər bir döyüşçüdə o qədər güclü idi ki, heç bir düşmən bizim qarşımızda dayana bilməzdi. Biz doğma torpağımız uğrunda savaşırdıq. Bu, ədalətli müharibə idi. Tamamilə inanırdım ki, biz döyüşdə mütləq qalib gələcəyik.

Növbəti ağır döyüşlər Cəbrayıl rayonu istiqamətində oldu. Məkanından asılı olmayaraq hər qarış torpağımız uğrunda inamla vuruşur, qələbə ruhu ilə irəliləyirdik. Amma döyüş meydanı heç də asan deyil. Sözlə ifadə edilməyən hisslər, hadisələr baş verir ki, bunlar, əlbəəttə, həyatın və müharibənin reallıqlarıdır.



Döyüşdə komandirin rolu böyükdür. Sən qalib gəlmək üçün sona qədər döyüşməlisən, şəxsi heyəti arxanca aparmağı bacarmalısan. Ölümə belə soyuqqanlı baxmalısan, göz yaşını içində boğmalısan.

**– Sizin çalışdığınız hərbi hissədə şəhid əsgər və zabitlərimiz ilə bağlı foto-stendlər diqqətimi cəlb etdi. Qürurverici haldır ki, hissənizdə müharibədə həyatını itirmiş əsgər və zabitlərimizin xatirəsi hamı tərəfindən çox əziz tutulur...**

– Vətən naminə canını qurban verən Azərbaycan oğullarının adları hər birimizin ürəyinə, yaddaşına əbədi yazılıb. Biz müharibəni qazi və şəhidlərimizin qanı, canı hesabına qazanmışıq. 1-ci Vətən müharibəsində Daxili Qoşunların 682 hərbi qulluqçusu döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş, 479 nəfər müxtəlif dərəcələrdə xəsarətlər almış, 4 nəfər hərbi qulluqçusu isə itkin düşmüşdür.

Vətən müharibəsi zamanı Daxili Qoşunların 66 nəfər hərbi qulluqçusu şəhid olmuş, 346 hərbçi isə yaralanmışdır. 2023-cü ilin payızında keçirilən antiterror tədbirləri zamanı isə Daxili Qoşunların 12 nəfər hərbi qulluqçusu şəhid olmuş, 24 hərbçisi isə yaralanmışdır.

Vətən qəhrəmanları ilə güclüdür, yenilməzdir. Azərbaycan xalqı mübariz, qorxubilməz xalqdır. 1-ci Qarabağ müharibəsində DİN Daxili Qoşunlarının 9 hərbi qulluqçusu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Onlardan yalnız 1 nəfəri həyatdadır: Məmmədov İsa Ələmdar oğlu. Allah dünyasını dəyişən qəhrəmanlara rəhmət eləsin!

Vətən müharibəsində isə DİN Daxili Qoşunlarının 3 hərbi qulluqçusu Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

**– Vətən müharibəsində ən ağır döyüşlər cəbhənin hansı istiqamətində baş vermişdir?**

– Ən ağır döyüşümüz Füzuli istiqamətində olmuşdur. Həmin günlər canımızdan canlar ayrılırdı, 821 nəfər şəhidimiz oldu, 11 gün ağır döyüşlər getdi. Şuşa şəhəri ətrafında, xüsusilə 1553 metr hündürlükdə gedən döyüşlər haqqında isə onu deyə bilərəm ki, Azərbaycan Ordusu bu müharibədə yeni bir tarix yazdı.

Canlı əfsanələrdən – qəhrəman oğullarımızdan nə qədər bacarırsınız yazın, çünki onlar özlərində yüzlərlə igid yaşadırlar.



Məşhur Topxana meşəsində gedən şiddətli döyüşlər kino lenti kimi gözlərimin önündən getmir. Biz ora “Sızma” əməliyyatı ilə gecə vaxtı hərəkət etdik. Düşmənin çox sayda şəxsi heyəti həmin yüksəkliyi inadla qoruyurdu.

Bilirsinizmi, bu yüksəkliyin xüsusi olaraq qorunmasının səbəbi nə idi? Həmin mövqedən Daşaltı, Şuşa şəhəri istiqamətlərinə, bundan başqa Laçın dəhlizinə gedən yollara nəzarət olunurdu. Ona görə də bu yüksəklikdə ölüm-dirim mübarizəsi getdi. Həmin mövqeni ələ keçirdikdən sonra Laçından, Şuşadan, Mədətkənddən, Şuşakənddən, Xankəndi istiqamətindən artilleriya atəşləri susduruldu.

Noyabrın 7-si saat 15 radələrində artıq biz Şuşa şəhərinə daxil olmuşduq. Həm sevincli idik, həm də kədərli. Elə oğullar Vətən yolunda canını qurban verdilər ki, onların yeri həmişə görünəcək. O torpaqların hər qarışında şəhidlərimizin qanı tökülüb.

İçimiz sızlasa da, etiraf etməliyik ki, əsirlikdə qalan torpaqlarımızı xilas etmək bizim nəslin taleyinə yazılmışdı. Tarix və zaman qarşısında çox böyük imtahandan məğrur, qalib çıxdığımıza görə xoşbəxtik. Biz bir xalq və dövlət olaraq Zəfərimizi qazandıq.

Ali Baş Komandan, cənab İlham Əliyevə minnətdaram. Ali Baş Komandan müharibənin ilk anından sona qədər bizimlə birgə oldu. Məhz onun rəhbərliyi altında Azərbaycan Ordusu, bütün xalq, millət, bir sözlə, hər kəs döyüşdü və heç vaxt qələbə əzmini itirmədi.

Sizinlə Zəfərimiz elan olunan günün təəssüratını bölüşmək istəyirəm. Dediyim kimi, mən noyabrın 7-dən Şuşada idim. Noyabrın 8-də Şuşada olan hərbçilərin hər biri sevincdən göz yaşlarını saxlaya bilmirdi. Bu elə bir hiss idi ki, o anları duymaq, yaşamaq lazım idi...

**– Siz çox yüksək mükafata – “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülmüsünüz. Ürəkdən təbrik edirəm sizi. Bu xəbəri eşidəndə ürəyinizdən keçəni dilinizdən eşitmək maraqlı olardı...**

– 9 dekabr 2020-ci ildə cənab Ali Baş Komandanın sərəncamı ilə bu ada layiq görülmüşəm. Səmimiyyətimə inanın, bu xəbəri dekabrın 15-də almışam. Səbəbi isə onunla əlaqədar idi ki, müharibə qurtarsa da, vuruşan ordunun zabiti olaraq müəyyən istiqamətlərdə tapşırıqları icra edirdim. Məsələn, mən Laçın istiqamətində idim. Döyüş yoldaşlarımdan ağır yaralananlar, şəhid olanlar var idi. Bu itkilərin hər biri çox ağırdır. Bunu sözlə ifadə edə bilmirəm.

Sizin dediyiniz müjdənin sevincini həmin anlarda tam yaşaya bilməsəm də, əlbəttə ki, sonsuz qürur hissi keçirirdim ki, dövlətim, Vətənim, Prezidentim mənə son dərəcə böyük etimad göstərib.

Bu yüksək adı ləyaqətlə daşımaq mənim borcumdur. Çünki bu adda Vətən məfhumu var, bu adın mahiyyətində şəhidlərin ruhu təcəssüm olunub. Bu məqamdan istifadə edərək məni bu mükafata təqdim edən rəhbərliyimə minnətdarlığımı bildirmək istəyirəm. Ali Baş Komandanımızın isə hər zaman müsəlləh əsgəriyəm!... Zəfərimizin 5-ci ildönümü mübarək olsun!

**– Mən isə qəzetimizin kollektivi adından sizə təşəkkür edirəm.**

***Kəmalə ABDİNOVA***
***XQ***

## Beynəlxalq həyat

# Trampın Ukrayna sülh planı: atəşkəs əvəzinə zəmanət

**(əvvəli 1-ci səhifədə)**

ABŞ və Ukrayna prezidentləri Donald Tramp və Volodimir Zelenski arasında Ağ Evdəki danışıqların əsas nəticələrindən biri, hər iki siyasətçinin bəyanatlarında vurğuladığı kimi, ABŞ-ın Ukraynanın təhlükəsizliyi üçün zəmanətlərin təmin edilməsində iştirak etməyə hazır olması oldu. “Təhlükəsizlik məsələlərinə gəldikdə, əhəmiyyətli yardım göstəriləcək”, – Tramp jurnalistlərə bildirdi və əlavə etdi ki, bu prosesdə Avropa ölkələri də iştirak edəcək. “Onlar birinci müdafiə xəttindədirlər, çünki oradadırlar, lakin biz onlara kömək edəcəyik”, – Ağ Ev rəhbəri səxavətlə əlavə etdi. Hazırda bu yardımın həcmi və detalları məlum deyil, amma Volodimir Zelenski bu vədi “önəmli irəliləyiş” olaraq qiymətləndirdi və bildirdi ki, zəmanətlər “gələn həftə – on gün ərzində kağıza köçürüləcək”. Bundan əlavə, Ukrayna lideri dedi ki, ölkəsi ABŞ-dan təxminən 90 milyard dollar dəyərində silah almaq istəyir, bu isə Trampın xoşuna gələcək.



Dünənki görüşdə Avropanın əksər iştirakçıları Ağ Evdəki ünsiyyəti uğurlu və konstruktiv hesab etdilər. Prezident Trampın ABŞ-ın Ukraynanın təhlükəsizlik sisteminə qoşulması ilə bağlı açıq öhdəliyi isə “irəliləyiş” kimi qiymətləndirildi. Məsələn, Almaniya kansleri Fridrix Merts görüşün nəticəsi olaraq hətta Donald Trampın avropalıların birləşmiş mövqeyindən təsirləndiyini də vurğuladı. Lakin Avropa və ABŞ bəzi məsələlərdə hələ də razılığa gələ bilmirlər. Kansler Mertsin sözlərinə görə, o və Fransa prezidenti Emmanuel Makron istəyirlər ki, Vladimir Putin atəşkəsə razılıq versin: “Düzünü desəm, biz hamımız atəşkəs görmək istəyirik. Gələcək görüşün atəşkəs olmadan keçiriləcəyini təsəvvür edə bilmirəm, buna görə bu istiqamətdə işləyək”.

Ümumiyyətlə, 18 avqust görüşlərinin digər bir nəticəsi danışıqları davam etdirmək barədə ənənəvi razılaşma oldu. Bazar ertəsi axşamı prezident Tramp sosial şəbəkədə paylaşım edərək bildirdi ki, Avropa liderləri ilə görüşün ortasında birbaşa Rusiya liderinə zəng etdi və Zelenski ilə görüşünü tez bir zamanda təşkil etdiyini açıqladı. Bundan sonra ABŞ, Rusiya və Ukrayna prezidentlərinin daha əvvəl elan edilmiş üçtərəfli sammiti keçirilə bilər. Avropa nümayəndə heyətinin mənbəyinə görə, bu ardıcıllıq – əvvəl ikitərəfli, sonra üçtərəfli görüş – ən məqbul variantdır.

Kreml isə hələlik Rusiya prezidentinin Ukrayna lideri ilə təkbətək görüşməyə hazır olduğunu rəsmən təsdiqləmir. Rusiya prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov bildirir ki, 40 dəqiqəlik telefon danışığında Rusiya və ABŞ prezidentləri Rusiya və Ukrayna nümayəndə heyətləri arasında birbaşa danışıqları dəstəklədiklərini ifadə etdilər (son raund iyunda Türkiyədə keçirilmişdi) və nümayəndə heyətlərinin səviyyəsini artırmaq barədə razılığa gəldilər. Ancaq ABŞ dövlət katibi Marko Rubionun sözlərinə görə, Vladimir Putin dünən axşam (avqustun 18-də-red.) amerikalı həmkarı Donald Trampla telefon danışığı zamanı Ukrayna prezidenti Vladimir Zelenski ilə görüşməyə hazır olduğunu bildirdi.

Məlumat verilir ki, cənab Trampın planına görə, üçtərəfli sammit onun iştirakı ilə keçiriləcək. Görünür, bu zaman tərəflər ən gərgin ərazi məsələsini detallı şəkildə müzakirə edəcəklər. Prezident Zelenski bazar ertəsi danışıqlarda ərazi məsələsinin gündəmə gəldiyini etiraf etdi, amma heç bir detal açıqlamadı və ehyam vurdu ki, bu mövzunu yalnız üçtərəfli görüşdə müzakirə etmək istəyir. Bununla belə, “Bloomberg” xəbər verir ki, ABŞ və Avropa Ukrayna prezidenti Volodimir Zelenski ilə Rusiya prezidenti Vladimir Putin arasında görüşə zəmin yaratmaq üçün Ukraynaya etibarlı təhlükəsizlik zəmanətləri vermək üçün dərhal işə başlayacaq. Qeyd olunur ki, təhlükəsizlik təminatları Ukraynanın silahlı qüvvələrinin və qoşunların sayının məhdudlaşdırılması kimi heç bir məhdudiyyət olmadan imkanlarının gücləndirilməsinə yönələcək. Eyni zamanda, tərəfdaşların məqsədi müharibəni dayandırmaq üçün mümkün razılaşmanın bir hissəsi kimi Rusiyanın Ukrayna silahlı qüvvələrinin sayını məhdudlaşdırmaq tələblərindən yayınmaqdır.

Məqalədə deyilir ki, avqustun 18-də Ağ Evdə keçirilən görüşdə ABŞ administrasiyası Ukraynanın təhlükəsizliyinə zəmanət verməyə kömək edəcəyini açıq şəkildə bəyan etdi və bu danışıqlar indiyədək Kiyev və Avropada ABŞ prezidenti Donald Trampın Vladimir Putinlə Alyaskada görüşündən sonra yaranan narahatlığı aradan qaldırdı.

The Wall Street Journal (WSJ) isə ABŞ prezidenti Donald Trampın və Avropa liderlərinin dövlət katibi Marko Rubionun Ukrayna üçün təhlükəsizlik təminatlarının hazırlanması üzrə işçi qrupuna rəhbərlik edəcəyi barədə razılığa gəldiklərini yazır. Qeyd olunur ki, qrupa milli təhlükəsizlik müşavirləri və NATO nümayəndələri daxil olacaq. ABŞ müzakirələrdə “koordinasiya” rolunu oynayacaq. Avropa rəsmilərinin də sözlərinə görə, təhlükəsizlik təminatları dörd komponentdən ibarət olacaq: hərbi mövcudluq, hava hücumundan müdafiə, silahlar və hərbi əməliyyatların dayandırılmasına nəzarət.

***Səbuhi MƏMMƏDOV***
***XQ***


# “Səba” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

“Səba” ASC-nin 18 avqust 2025-ci il saat 15.00-a təyin edilmiş səhmdarlarının növbədənkənar ümumi yığıncağının Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-2.1. maddəsinə müvafiq olaraq baş tutmadığını nəzərə alaraq Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-2.2. maddəsinə əsasən həmin məcəllənin 107-1.8. maddəsində müəyyən edilmiş qaydada “Səba” ASC-nin 18 avqust 2025-ci il saat 15.00-a təyin olunmuş səhmdarlarının növbədənkənar ümumi yığıncağının gündəliyi dəyişdirilmədən 19 sentyabr 2025-ci il saat 15.00-da Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60 nömrəli ünvanda “Səba” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:

1. “Səba” ASC-nin direktorlar şurasının 2023-2025-ci illər ərzindəki fəaliyyətinə dair hesabatı və onun tərəfindən qəbul edilmiş qərarlar barədə.

2. “Səba” ASC-nin tək təsisçiliyi ilə təsis edilmiş “Qarabağ Taxıl Aqro” MMC-nin (Dövlət qeydiyyat № (VÖEN): 5001333151. Dövlət qeydiyyatına alındığı tarix: 10.07.2025) nizamnamə kapitalındakı “Səba” ASC-yə məxsus payların satılması barədə.

3. “Səba” ASC-də dividendlərin elan edilməsi haqqında.

Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, səhmdarlar ümumi yığıncağın gündəliyinin layihəsinə dair təkliflər vermək və ümumi yığıncağa 15 (on beş) gün qalmış gündəliyə daxil edilmiş bütün məsələlər üzrə müvafiq sənədlərlə AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60 nömrəli ünvanda yerləşən cəmiyyətin ofisində tanış olmaq hüququna malikdirlər.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiqləyən sənəd və nümayəndənin səlahiyyətləri barədə etibarnamə təqdim etməlidirlər.

Əlaqə telefonları - (+99450) 201 20 15 – direktor
(+99455) 215 08 60 – hüquqşünas

Ünvan - Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60.

***“Səba” ASC-nin direktoru – Vüqar Baloğlanov***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 174 (30868) 20 avqust 2025-ci il, çərşənbə

## İDMAN

### 2 güləşçimiz Dünya 3-cüsü olub



**Bolqarıstanın Samokov şəhərində keçirilən U-20 dünya çempionatında Azərbaycanın 2 sərbəst güləşçisi bürünc medal qazanıb. 70 kq çəki dərəcəsində çıxış edən Nurlan Ağazadə bürünc medal uğrunda görüşdə gürcüstanlı Qoqa Otinaşviliyə 4:0 hesabı ilə qalib gəlib.**

125 kiloqram çəki dərəcəsində yarışan Yusuf Dursunov isə üçüncü yer uğrunda mübarizədə fransalı rəqi-bindən üstün olub–3:1.

Qeyd edək ki, mundiala avqustun 24-də yekun vurula-caq.

### "Zirə" – "Araz-Naxçıvan" – 1:1



**Dünən Misli Premyer Liqasında ilk turun daha bir oyunu keçirildi. Zirə İdman Kompleksinin stadionunda baş tutan qarşılaşmada "Zirə" və "Araz-Naxçıvan" komandaları üz-üzə gəliblər. Rəvan Həmzəzadənin idarə etdiyi görüşdə 1:1 hesablı nəticə qeydə alınıb.**

Beləliklə, I turun baş tutan 4 matçında "Turan-Tovuz" "İmişli"ni (1:0), "Sumqayıt" "Kəpəz"i (3:0) məğlub edib. "Karvan-Yevlax" – "Qəbələ" və "Neftçi" – "Şamaxı" görüşlərində 1:1 hesablı heç-heçə qeydə alınıb. Turun "Sabah" – "Qarabağ" matçı isə təxirə salınıb.

### Ukrayna ilə oyunun biletləri satışda




**Dünya çempionatının seçmə mərhələsi çərçivəsində Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək Azərbaycan–Ukrayna oyununun biletləri satışa çıxarılıb.**

Biletləri iTicket.az-ın satış məntəqələrindən əldə etmək olar. DÇ-2026-nın seçmə mərhələsində sentyabrın 9-da ke-çiriləcək qarşılaşma saat 20:00-da başlayacaq.

Xatırladaq ki, millimiz seçmə mərhələnin ilk matçını sentyabrın 5-də səfərdə– Reykyavikdə İslandiya komanda-sına qarşı keçirəcək. Oyun Bakı vaxtilə 22:45-də start gö-türəcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Turan elləri

# Günəbaxanlar diyarı – Tekirdağ

**Tekirdağ Türkiyənin Avropa qitəsində yerləşən 3 vilayətindən biridir. Mərmərə də-nizinin şimal-qərbində münbit, məhsuldar torpaqlarda yerləşir. Xəritəyə baxsaq, görə-rik ki, şərqdən İstanbul, qərbdən Ədirnə və Çanaqqala, cənubdan Mərmərə dənizi ilə və kiçik bir hissəsi Qara dənizlə əhatələnib.**



Tekirdağ kənd təsərrüfatı məhsullarının ixracı üçün limanı olan ticarət mərkəzi kimi də tanınır. Bu ərazi həm də özünün geniş kanola (raps), lavanda və günəbaxan tarlaları ilə məşhurdur. Mayın əvvəl-lərindən iyulun ortalarına kimi Tekirdağ şəhərinin ətrafında və yaxın bölgələrdə yerləşən əkin sahələri ziyarətçilərin diqqət mərkəzində olur.

Belə ki, şəhər və qəsəbələrdən bura gələn çox sayda insan kanola, lavanda və günəbaxan bitkiləri-nin sarı çiçəklərindən yaranan "gül dənizi"nə baxa-raq heyrətə gəlirlər. Turistlərin çoxu böyük həvəslə bu gözəlliyi fotoaparatlarının yaddaşına köçürürlər. Bu səhnə insanları, həqiqətən, çox duyğulandırır.

Yeri gəlmişkən, dünya rəssamlığında günə-baxanların əks olunduğu tablolar çoxdur. Onlardan ən gözəllərindən birini məşhur holland rəssamı Van Qoq çəkmişdir. Onun 1889-cu ildə yağlı boya ilə yaratdığı "Günəbaxanlar" əsəri dünya rəssamlıq sənətinin incilərindən sayılır. Düzdür, tabloda təkcə günəbaxan deyil, digər çiçəklər də təsvir olunur.

Çox uzağa getməyib əsas mövzumuza qayıdaq. Son illər Tekirdağda təbii studiyaları xatırladan raps, lavanda və günəbaxan tarlaları mövsüm boyu həm fotoqrafiya həvəskarlarının, həm də təbiət qoy-nunda vaxt keçirmək istəyənlərin məşhur məkanına çevrilib. İnsanlar bu yerləri ailəvi ziyarət etməyi xüsusilə çox sevirlər.

Tekirdağ vilayətinin Mədəniyyət və Turizm İdarəsinin müdiri Ömər Faruk Karaküçük bugün-lərdə "Anadolu" agentliyinin müxbiri ilə söhbətin-də bildirib ki, Tekirdağda kanola, lavanda və günə-baxan tarlaları regionda turizmin inkişafına təkan verib.

Karaküçük onu da deyib ki, Tekirdağ təkcə tarixi və mədəni zənginliyi ilə deyil, həm də təbii gözəl-liyi ilə diqqət çəkən bir şəhərdir: "Xüsusilə də ka-nola, lavanda və günəbaxan tarlaları hər il minlərlə ziyarətçini özünə cəlb edir və onları heyran qoyur. Bu rəngarəng tarlalar şəhərimizə həm estetik, həm də dəyər qatır, turizmə mühüm töhfə verir".

Maraqlıdır ki, Tekirdağdakı əkin sahələrinin gözəlliyini əks etdirən foto və videolar sosial me-dia və rəqəmsal platformalar vasitəsilə geniş au-ditoriyaya çatdırılır. Bununla da, sosial media Te-kirdağın turizm tərəfdaşına çevrilir. Ziyarətçilərin sayı artdıqca yerli büdcəyə daxilolmalar da çoxa-lır, ən başlıcası isə vilayətdə yeni iş yerləri yaranır.

Karaküçük kanola, lavanda və günəbaxan tar-lalarında təşkil edilən mədəni tədbirlərin şəhərin tanıdılmasında əhəmiyyətli rol oynadığını da vur-ğulayıb. Onun sözlərinə görə, bu geniş ərazilər təkcə əkinçilik üçün istifadə edilmir, həm də vizu-al olaraq heyratamiz mənzərələri ilə böyük maraq doğurur:

"Bu gözəlliklər fotoqraflar üçün təbii studiya rolunu oynayır. Təbii ki, vətəndaşlarımız bu əra-zilərə xatirə fotoşəkilləri çəkdirmək üçün axışırlar. Hər gün yüzlərlə, bəzən hətta minlərlə insan Tekir-dağda bu bənzərsiz mənzərələrdən həzz almaq üçün gəlir. Həm yerli, həm də xarici turistlərin marağı getdikcə artır".

Beləliklə, təbiət Tekirdağın turizm imkanlarını daha da gücləndirib. Düşünürəm ki, qardaş ölkə-nin turizm sahəsindəki uğurlu təcrübəsindən bizim ölkədə də yararlanmaq olar. Azərbaycanın bir çox şəhər və qəsəbələrinin ətrafında əkin sahələri, tarla-lar mövcuddur ki, onların gözəlliklərini seyr etmək istəyənlər heç də az deyil. Əlbəttə, bu barədə dü-şünmək və fəaliyyətə keçmək pis olmazdı.

*M.HACIXANLI*
*XQ*

## Mingəçevirdə Gənclər Forumu



**Mingəçevir Dövlət Universitetinin ev sahibliyi, Gənclər Fondunun dəstəyi, Gənclər Təşkilatları Milli Şurası və "İşıqlı Gələcək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli çərçivəsində Gənclər Forumu keçirilib.**

Məclisdə Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminov, Milli Məclisin deputatı Aydın Mirzəzadə, Mingəçevir Şəhər İcra Haki-miyyətinin şöbə müdiri Sahib Əliyev, Gənclər Təşkilatları Milli Şurasının baş katibi Nərminə Hüseynzadə, Mingəçevir Gənclər Evinin di-rektoru vəzifəsini icra edən Eşqin Məmmədov və "İşıqlı Gələcək Gəncləri" İctimai Birliyinin sədri Samrin Xanlayev ölkədə həyata keçirilən gənclər siyasətinin gənclərin təhsil, yaradıcılıq və ictimai fəaliyyət imkanlarını genişləndirdiyi-ni bildiriblər.

Sonra panel müzakirələr təşkil olunub və gənclərlə bağlı müxtəlif mövzular ətrafında fikir mübadiləsi aparılıb. Forumun ikinci his-səsində isə "Gələcəyə #Birlikdə" proqramının məqsədləri, əsas fəaliyyət istiqamətləri və Min-gəçevirdə icra olunacaq üç aylıq yerli fəaliyyət planı barədə ətraflı məlumat təqdim edilib. Təd-birin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

Layihənin ikinci günündə təşkil olunan "Fəal Gənc Akademiyası" çərçivəsində gənclər üçün sosial fəallıq, liderlik, komanda işi və kar-yera planlaması ilə bağlı təlimlər keçirilib.

*İlqar HƏSƏNOV*
*XQ-nin bölgə müxbiri*

## 23 min uşaq hazırlıq qruplarında oxuyacaq



**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına 23 min 46 uşaq elektron qeydiyyatdan keçib.**

BŞTİ-dən mətbuata bildirilib ki, elektron qeydiyyatdan keçən uşaqlardan 19 min 800 nəfəri üçün faəl sorğu yer-ləşdirilib. Valideynlər (digər qanuni nümayəndələr) mekte-beqebul.edu.az elektron sistemi vasitəsilə özünün və övla-dının şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçə bilər.

Azərbaycan bölməsi üzrə məktəb və müəllim seçimi 9 iyul, tədris digər dillərdə aparılan bölmələr üzrə məktəb və müəllim seçimi isə 10 iyuldan aktiv edilib.

Məktəbəhazırlıq qruplarına cari ildə 5 yaşı tamam olan uşaqlar (2020-ci il təvəllüdlü) qəbul edilirlər.

Qeyd edək ki, məktəbəhazırlıq qruplarının yaradılma-sında məqsəd 5 yaşlı uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar psixoloji dayanıqlığını artırmaq, əhatə olunduqları aləmə və təhsil mühitinə uyğunlaşdırmaq, onların ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin et-məkdən ibarətdir.

*XQ*

## HAVA

# Yağış yağacaq, şimşək çaxacaq...

**Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, bu gün Bakıda və Ab-şeron yarımadasında hava şəraitinin də-yişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. La-kin şəhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 22-25, gündüz 29-34 dərəcə isti olacaq. Atmosfer təzyiqi nor-madan aşağı 755 mm civə sütunu, nisbi rütubət isə gecə 70-80 faiz, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz Lənkəran-Astara zonasında qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehti-malı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə



duman olacaq. Mülayim şərq küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 21-25, gündüz 32-37, dağlarda gecə 10-15, gündüz 20-25 dərə-cə isti olacaq.

*XQ*

***✓ 2023-cü il dekabrın 29-da Bakı şəhəri, Sabun-çu rayonu, Nardaran qəsəbəsinin Ləhiş bağ massivində Nardaran bələdiyyəsi tərəfindən Məmmədova Zəminə Teymur qızının adına verilmiş Yerli (bələdiyyə) büdcənin vergi ödəyicisi olan fiziki şəxsin uçota alınması haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əmisi

**FİRDOVSİ QULUZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hidayət və ailə üzvləri Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əmisi

**FİRDOVSİ QULUZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 1728
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00